# HƏDİSLƏRDƏ HƏYAT DƏRSİ

150 HİKMƏTLİ HƏDİSİN ŞƏRHİ

*İmam Əli (ə) adına*
*İslam Araşdırmalar Mərkəzi*

بسم الله الرحمن الرحيم

**BİSMİLLAHİR RƏHMANİR RƏHİM**

Kitabın adı: ***Hədislərdə həyat dərsi***
Müəllif: ***İmam Əli (ə) adına İslam Araşdırmalar Mərkəzi***
Tərcümə: ***İsmayıl İsmayılov***
Redaktor: ***Mərdan Zalov***

***Azərbaycan Respublikası Dini Qurumlar İş Üzrə Dövlət Komitəsi DK 410/M saylı 11 avqust 2014-cü il tarixli məktubu ilə kitabın çap olunmasına razılıq verilmişdir.***

**© Ələm nəşriyyatı**

**Kitabın çap hüquqları qorunur**

# 1

## DÜŞÜNCƏ, FİKİR, TƏFƏKKÜR

*İmam Əli (ə) buyurmuşdur:*

أَلاَ لاَ خَيْرَ فِي عِلْمٍ لَيْسَ فِيهِ تَفَهُّمٌ

أَلاَ لاَ خَيْرَ فِي قِرَائَةٍ لَيْسَ فِيْها تَدَبُّرٌ

أَلاَ لاَ خَيْرَ فِي عِبادَةٍ لَيْسَ فِيْها تفَكُّرٌ

***“Agah olun, düşüncəsiz elm faydasızdır!”***
***“Bilin ki, təfəkkürsüz oxunan Quran faydasızdır!”***
***“Ayıq olun, düşünmədən edilən ibadət xeyir verməz!”***

### Qısa izah

İnsanın həyat tərzi ilə dünyagörüşü və sağlam düşüncəsi arasında uyğunluq olmadığı zamana qədər, beyni elmi formullar, məntiq qaydaları və fəlsəfi nəzərlərlə yükləmək olduqca əhəmiyyətsizdir. Quranın şərif ayələri oxunulan və ibadət edilən zamanalarda diqqət və təfəkkür olmazsa, onun ruh və həyatımıza təsir və faydası həddən artıq az olacaqdır. Belə isə, elmi düşüncə ilə mənimsəyib Quran ayələrini təfəkkürlə oxuyaq ki, bu yolla düşüncə əsasında yerinə yetirdiyimiz ibadətlərin dəyərli təsirini özümüzdə müşahidə edə biləк.

# 2

## ÖLÇÜ VƏ MİZAN TƏDBİRİ

*İmam Sadiq (ə) buyurmuşdur:*

صَلاحُ حَالِ التَّعَايُشِ وَالتَّعَاشُرِ مِلْأُ مِكْيَالٍ ثُلْثَاهُ فِطْنَةٌ وَ ثُلْثُهُ تَغافُلٌ

***"Yaşayış tərzinin islahı və ünsiyyət elə ölçü və mizanlarla həyata keçir ki, onun üçdəikisi ayıqlıq, üçdəbiri isə etinasızlıq və səhlənkarlıqdır."[1]***

### Qısa izah

Heç bir iş mütaliə və plansız həyata keçmir, tələşsız da öz qaydasına düşmür. Başqa sözlə, diqqətsiz və məlumatsız iş görmək istəsək, şübhəsiz, məğlubiyyətlə üzləşəcəyik. Amma bütün mümkün ehtimallar və düşünülməyən hadisələri nəzərə alaraq işləri həyata keçirən zaman özümüzü yubandırsaq, onda, belə asanlıqla hər hansı bir işin öhdəsindən gəlmək qüdrətimizin olmadığı anlaşılar. Bu səbəbdən, ciddi bir işə başlayan zaman həmin iş barəsində illərlə araşdırma aparmaq lazımdır. Qeyd edək ki, dost, şərik və həyat yoldaşı seçən zaman da, öncədən bu barədə araşdırma aparılması zəruridir. Elə bu cəhətdən, imam Sadiq (ə) buyurur: "Üçdəiki hissə diqqətli, üçdəbir hissə isə etinasız və cürətli olmaq lazımdır. Nə diqqətsiz və vasvası olmaq düzdür, nə də həddən artıq diqqətli olmaq. (yəni ifrat və təfritə yol verməmək lazımdır)."

---

*1. "Tuhəful-uqul", səh. 267.*

# 3

## CİSMLƏRİNİN QİDALANMASINDA CİDDİ VƏ DİQQƏTLİDİRLƏR, AMMA...

*İmam Həsən (ə) buyurmuşdur:*

عَجَبٌ لِمَنْ يَتَفَكَّرُ فِي مَأكُولِهِ كَيْفَ لا يَتَفَكَّرُ فِي مَعْقُولِهِ فَيُجَنِّبُ بَتْنَهُ ما يُؤْذِيهِ وَيُودِعُ صَدْرَهُ ما يُرْدِيهِ

***"Öz cisminin qidası haqda fikirləşən, amma ruhi qidası barədə düşünməyən şəxslərə təəccüb etmək lazımdır. Bu cür şəxslər bədənin narahatlığına səbəb olan yeməklərdən pəhriz etsə də, qəlblərini insanı fəlakətə uğradan ifadələrlə doldururlar."***[1]

### Qısa izah

Əzəmətli rəhbərin buyurduğuna uyğun olaraq deyə bilərik ki, adətən, camaat öz cismi ehtiyaclarının təmini ilə əlaqədar ciddi və diqqətlidirlər. Onlar qaranlıq zamanı süfrə arxasında əyləşməz, yuxulu halda yemək yeməz və şübhəli qidalardan pərhiz. və eyni zamanda, öz cismi qidalanmasında bütün tibbi qaydalara riayət edərlər. Lakin ruhi və mənəvi qidalara gəldikdə isə, hər cür fikir, əqidə və şübhəli düşüncələri xəbərsiz və qaranlıqda gözübağlı gedərcəsinə qəbul edər və özlərinə dost saydıqları kəslərin yanlış fikirlərini, insanı pisliyə sövq edən mətbuatı, eyni zamanda, bütün şübhəli və azdırıcı təbliğatı asanlıqla izləyərlər. Belə isə, bu məsələ

*1. "Səfinətul-bihar", c. 5, səh, 301.*

olduqca heyrət doğuran bir məsələdir.

# 4

## QƏLƏMİN ROLU

*İmam Sadiq (ə) buyurmuşdur:*

لَم أرَ باكياً اَحسَنَ تَبَسُّماً مِنَ الْقَلَمِ

***"Qələm kimi gözəlliklə təbəssüm edərək ağlayan birini görmədim."***

**Qısa izah**

Qələm insan zəkasının fikir və şəfqət göstəricisidir. Qələm xalqlar mədəniyyətinin əsasını qoyan və cəmiyyətdə baş verən hadisələri hərəkətə gətirən bir sistemdir. Qələm insanların üzücü və sarsıdıcı dərdlərini izah edərək özünün daim axıdılan göz yaşlarında belə deyir: "İnsanların dodaqlarında təbəssümlə yanaşı həmişə eşq, qəlblərində həyata rəğbət və yaşayış rəmzi olan min cür gözəllik gizlənmişdir. Amma təəssüflər olsun ki, bu qələm yelbeyin və fərsiz adamların əlinə düşdükdə, göz yaşı əvəzinə qan ağlayır və eyni zamanda, insanlığın ali dəyərlərinə istehza ilə təbəssüm edir. "

Qələm vasitəsilə hasil olaraq törədilən çoxlu sayda cinayət, zülm və sitəmlər mövcuddur.

Eşq olsun haqq və hidayət yolunda çalışan və xariqələr yaradan qələmlərə!

# 5

## İKI BÖYÜK MƏSULİYYƏT ARASINDA

*İmam Sadiq (ə) buyurmuşdur:*

اَلْمُؤْمِنُ بَيْنَ مَخَافَتَيْنِ ذَنْبٌ قَدْ مَضَا لا يَدْرِي ما صُنْعُ اللهِ فِيهِ وَ عُمُرٌ قَدْ بَقِيَ لا يَدْرِي ما يَكْتَسِبُ فِيهِ مِنَ الْمَهَالِكِ

***"Mömin həmişə iki şeydən narahatdır: 1. Allahın onunla necə rəftar edəcəyini bilmədiyi keçmiş günahlarından; 2. Gələcəkdə nəyi əldə edəcəyini bilmədiyi yerdə qalan ömründən"[1]***

### Qısa izah

İmanda əsas hədəf insanın keçmişdə etdiyi əməllər və gələcəkdə onu gözləyən vəzifə və tapşırıqlar qarşısında məsuliyyətli olması məsələsidir.

Bu iki məsuliyyəti unutmayan kəslər, həmişə keçmiş nöqsanlarını islah etmək fikrində olacaq, eyni zamanda,. sonrakı fürsətlərdən səmərəli istifadə etmək üçün ən yaxşı yollar axtararaq düşünəcəkdir. Bu iki nişanə hər bir insan və ya millətin təkamül və inkişafı deməkdir. Keçmişini unudan və gələcəyini qazanmaq barədə fikirləşməyən bir millət həmişə acizlik və bədbəxtliyə məhkumdur.

---

*1. "Üsuli-kafi", c. 2, səh. 71.*

# 6

## CƏMİYYƏTİ MƏHV EDƏN AMİLLƏR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

أَرْبَعٌ لا يَدْخُلُ بَيْتاً وَاحِدَةٌ مِنْهَا إلاَّ خَرِبَ وَ لَمْ يَعْمُرْ بِالْبَرَكَتِ؛ أَلْخِيَانَةُ وَ السَّرِقَةُ وَ شُرْبُ الْخَمْرِ وَ الزِّنَا

***"Dörd şeydən biri – xəyanət, oğurluq, şərab içmək və iffətsizlik (zina) evə daxil olarsa, onu dağıdar və (bir daha) o ev bərəkətlə abad hala gəlməz."[1]***

### Qısa izah

Yalnız ailələr deyil, həmçinin, cəmiyyətin bütün təbəqələri də bu qanundan kənar sayılmırlar. Əgər xəyanət cəmiyyətə nüfuz edərsə, bu zaman insanlarda bir-birinə qarşı inamsızlıq yaranar. Cəmiyyətdə oğurluq müxtəlif şəkillərdə genişlənərsə, insanların əmniyyət və asayişi təhlükəyə düşər. O cümlədən, əgər içki içmək insanlar arasında yayılarsa, cəmiyyət səriştəsiz insanlar, əlil övladlar və faydasız cavanlarla dolacaqdır. Əgər insanlar cəmiyyətdə əxlaqsızlıq və iffətsizliyə yol verərsə, bu halda bütün ailələrin bünövrəsi şübhəli olacaq və bu məsələ gələcək nəsilləri fəsada sürükləyəcəkdir.

*1. "Nəhcül-fəsahət", səh. 49, hədis 256.*

# 7

## YOXSULLUQ VƏ TƏNBƏLLİK

*İmam Əli (ə) buyurmuşdur:*

إِنَّ الاَشْيَاءَ لَمَّا ازْدَوَجَتْ إِزْدَوَجَ الْكَسَلُ وَالْعَجْزُ فَنَتَجَ مِنْهُمَا الْفَقْرُ

***“Bütün varlıqlar cütləşdiyi gün acizliklə tənbəllik bir-birinə qarışdı və onlardan yoxsulluq adlı (bacarıqsız) bir övlad doğuldu.”[1]***

### Qısa izah

Bütün şeylər çalışmaq və zəhmət qarşılığında əldə edilir. Bu, İslamın bizlərə öyrətmiş olduğu həqiqətlərdən biridir. Süstlük və tənbəllik, çətin hadisə və maneələr qarşısında acizlik göstərmək iman ruhu ilə bir araya sığan məsələ deyildir. Bunlar yoxsulluqdan başqa, – istər iqtisadi yoxsulluq olsun, istərsə də, əxlaqi və mənəvi – digər bir şeyi doğurmayacaq.

Əslində, imanlı insanlar bütün hallarda özlərinə istinad və etimad edərək ehtiyacsız olmalıdırlar. Bu cümlədə imam Əli (ə) diqqəti cəlb edən bir ifadə ilə belə buyurmuşdur: “Tənbəlliklə acizliyin birləşməsindən hasil olan səmərə yoxsulluq və bədbəxtlikdir. "

---

*1. “Biharul-ənvar”, c. 75, səh. 59; “Tuhəful-uqul”, səh. 154.*

# 8

## QƏLBLƏRƏ DAMAN ELM YAĞIŞI

*Loğman (ə) öz oğluna buyurur:*

يا بُنَيَّ... إِنَّ اللهَ عَزَّ وَ جَلَّ يُحْيِي الْقُلُوبَ بِنُورِ الْحِكْمَةِ كَمَا يُحْيِي الْأَرْضَ بِوَابِلِ السَّمَاءِ

***“Oğlum! Allah ölü torpaqları səmanın bərəkətli yağışları ilə diriltdiyi kimi, insanların qəlblərini də elm və hikmət nuru ilə dirildir.”[1]***

### Qısa izah

İnsanın qəlbi gül, çiçək və bar verən ağacların toxumları səpilərək əkilən bağça və bağ kimidir. Əgər bu münbit sahə vaxtı-vaxtında suvarılarsa, çox səmərəli və təravətli mühit yaranacaqdır.

Fitrət sahəsinin yeganə suvarılma üsulu yalnız elm və hikmət yağışının həyat bəxş edən damcılarıdır. Bu baxımdan, elm və hikmətsiz qəlblər fayda və səmərəsi olmayan ölü qəlblərdir. Gəlin hər zaman və bütün hallarda öz qəlblərimizi elm və hikmət nuru ilə diri saxlamağa çalışaq və həyat bəxş edən elm yağışından faydalanaq.

*1. “Biharul-ənvar”, c. 1, səh. 204.*

# 9

## TƏKƏBBÜRÜN MƏNŞƏYİ

*İmam Sadiq (ə) buyurmuşdur:*

ما مِن رَجلٍ تَكَبَّرَ أو تحيَّرَ إلّا لِذِلَّةٍ وَجَدَها في نَفْسِهِ

***"Batinində zillət yaranan kəslərdən başqa, heç kəs təkəbbür edərək qürrələnməz."***

### Qısa izah

Bu gün dünya psixoloqlarının elmi araşdırmaları zamanı sübuta yetirilən məsələ təkəbbür və özünü digərlərindən üstün tutma mənşəyinin əqidə zəifliyindən yaranmasıdır.. Bu cür problemlərlə üzləşən kəslər həmin məsələdən əziyyət çəkir və cəmiyyətdə öz çatışmamazlıqlarını təmin etmək üçün belə səhv addımlar atmalı olurlar. Başqa bir ifadə ilə desək, onlar özlərini süni də olsa böyük şəxsiyyət kimi göstərərək ictimai həyatlarına bu yolla zəlalət əlavə edir və həddindən artıq iyrənc vəziyyətə düşürlər. Bu formadakı psixoloji xüsusiyyət imamın maraqlı bəyanında bütün təfərrüatı ilə müşahidə olunmaqdadır.

Amma imanlı insanlar həmişə öz şəxsiyyətlərinin batini təsiri altına düşərək digərləri qarşısında təvazökarlıq edirlər. Başqa ifadə ilə desək, nə digərləri qarşısında fəxr edir, nə də kiçilirlər.

# 10

## HAQQ MÜQABİLİNDƏ ÜÇ DƏYƏRLİ XİSLƏT

*İslam Peyğəmbəri (s) buyurur:*

ثَلاَثٌ تَخْرُقُ الْحُجُبَ وَ تَنْتَهِي إِلَيَ مَا بَيْنَ يَدَيِ اللهِ: صَرِيْرُ أَقْلاَمِ الْعُلَمَاءِ وَ وَطْيُ أَقْدَامِ الْمُجَاهِدِينَ وَ صَوْتُ مَغَازِلِ الْمُحْصَنَاتِ

***"Üç xislət maneələri aşaraq əzəmətli Allah dərgahına çatar: 1. Alimlərin yazı yazan vaxt qələmlərinin hərəkətindən yaranan səs; 2. Döyüş meydanlarında mübariz əsgərlərin addım səsi; 3. İffətli qadınların ip əyirən cəhrəsinin sədası!"[1]***

### Qısa izah

Necə də dolğun və təəccüblü izahdır! Üç səs var ki, varlığın dərinliyinə nüfuz edir və əks-sədası Allahın əzəmətli ərşinə qədər yüksələrək onun dərgahına çatır. Həmin səslər bunlardır: Asta və qısa olmasına baxmayaraq, qələmin səsi, mücahidlərin addım səsi və imanlı qadınların ip əyirən maşınlarının səsi.

Həqiqətdə də, şərəfli insan cəmiyyətinin təməl və bünövrəsini, məhz, elm, mübarizə və əmək adlı üç amil təşkil edir:.

1. *"Əş-şəhab fil-hökm vəl-adab," səh. 22.*

# 11

## İMAM HÜSEYNİN (Ə) ŞƏHADƏTİ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِنَّ لِقَتْلِ الْحُسَيْنِ حَرَارَةً فِي قُلُوبِ الْمُؤْمِنِينَ لَنْ تَبْرُدَ أَبَداً

***"Həqiqətən, imam Hüseynin (ə) şəhadəti ilə möminlərin qəlbində heç bir zaman sönməyəcək hərarət (alov) yaranmışdır."[1]***

### Qısa izah

Əgər dünya tarixini vərəqləsək, görərik ki, dünyada həddər artıq çox qanlı müharibələr törədilmişdir. Lakin aylar və yaxud illər ötdükcə, bu hadisələr unudularaq zehinlərdən silinmiş və tarixin qaranlıq yaddaşına qalmışdır. Amma özlərini bütün varlığı ilə Allah yolunda, insanların azadlığı, şərəf və fəziləti naminə fəda edənlər heç vaxt unudulmayacaqlar. Çünki "Allah", "azadlıq", "şərəf" və "fəzilət" heç zaman köhnələn məsələlər deyildir. Onlar insanlıq dəyərlərinin cəmiyyətdə dirçəldilməsi, münafiq insanların həqiqi simalarının aşkar edilməsi və həmçinin, zülm və sitəmin köknü birdəfəlik silinməsi üçün öz canlarını fəda etdilər ki, bu dəyərlərlə yanaşı özləri də əbədi olaraq yaşasınlar.

*1. "Mustədrəkul-vəsail", c. 10, səh. 318.*

# 12

## HƏQİQİ MÜSƏLMANIN İKİ ƏLAMƏTİ

*İslam Peyğəmbəri (s) buyurur:*

لاَ تَنْظُرُوا إِلَيٰ كَثْرَةِ صَلاتِهِمْ وَ صَوْمِهِمْ وَ كَثْرَةِ الْحَجِّ وَ الْمَعْرُوفِ وَ طَنْطَنَتِهِمْ بِاللَّيْلِ وَ لٰكِنِ انْظُرُوا إِلَيٰ صِدْقِ الْحَدِيثِ وَ أَدَاءِ الْأَمَانَةِ

***"İnsanların namazları, oructarı, həcc və yaxşılıqlarının çoxlu olması və gecələr oyaq qalmalarına (bunların öz növbəsində mühüm ibadətlər sayılmasına baxmayaraq) fikir verməyin, əksinə onların doğru danışıqları və əmanətdar olmalarına nəzər salın."*[1]**

### Qısa izah

İslam dinində namaz, oruc və həcc kimi yüksək və ali tərbiyəvi ibadətlərin də xüsusi yer tutmasına baxmayaraq, islami hədisləri mütaliə etdikdə, həqiqi müsəlmanın iki əlamətlə – doğru danışmaq və əmanətdar olmaqla tanınması həqiqəti aşkara çıxır. Şübhəsiz, təkcə bunlar İslamın əsas simvolu sayılmır. Sadaladıqlarımız xüsusiyyətləri (doğru danışmaq) və (əmanətdarlıq) təkmilləşdirmək lazımdır.

Bəli, böyük şəxsiyyətləri sınaqdan keçirmək üçün ən yaxşı imtahan onların düzgün danışması və əmanətdar olmalarını təsdiq etmələridir. Belə kəslər hər zaman bu iki imtahanın öhdəsindən gələrlərsə, həqiqətdə düzgün insanlar sayılırlar.

*1. "Səfinətul-bihar", c. 1, səh. 160.*

# 13

## QƏZƏB ODU

*İmam Baqir (ə) buyurmuşdur:*

إِنَّ هَذَا الْغَضَبَ جَمْرَةٌ مِنَ الشَّيْطَانِ تُوقَدُ فِي قَلْبِ ابْنِ آدَمَ

***"Qəzəb və əsəbilik Adəm övladının qəlbində şeytanın qaladığı oddur."[1]***

### Qısa izah

Həyatda insanın qəzəb və stress halında hansısa bir işi həyata keçirdikdən və ya müəyyən bir qərar qəbul etdikdən sonra peşman olmadığı zamanlara rast gəlmək çox nadir hallarda müşahidə edilir, çünki insan vücudunda qəzəb atəşinin yandırıcı alovu şölələndiyi vaxt insanın əql və düşüncəsi bütövlükdə qüvvədən düşür, əsəb və bədən üzvləri, adətən, elə bir istiqamətdə hərəkət edir ki, bəzən törəyən zərər və acı nəticələrin bərpa olunmasına bir ömür belə kifayət eləmir.

Şeytanın bu yandırıcı atəşi baş qaldıraraq zahir olduğu zaman, hədsiz diqqət və sürətlə ona hakim olmalı və söndürməliyik. Əks təqdirdə, həm öz, həm də digər insanların həyatını təhlükə altına ata bilməyimiz mümkündür.

Bəli! Qəzəbləndiyiniz zaman nə bir qərar qəbul edin, nə kimi isə cəzalandırın və nə də bir söz danışın. Çalışın ki, o mühitdən uzaqlaşıb başqaları ilə ünsiyyət qurasınız.

---

*1. "Biharul-ənvar", c. 70, səh. 278.*

# 14

## SƏRVƏT MƏNBƏLƏRİ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

أُطْلُبُوا الرِّزْقَ فِي خَبَايَا الْاَرْضِ

***"Ruzini yerin dərinliklərində axtarın."[1]***

### Qısa izah

Qədim zamanlarda yeraltı mədən və torpağın dərinliklərində yerləşən qiymətli əşyaların dəyəri insanlar üçün əhəmiyyətli deyildi. Lakin İslam Peyğəmbəri (s) müsəlmanlara yerin dərin qatlarında axtarış apararaq yeraltı sərvətlər və eyni zamanda, onların maddi yaşayışlarına müsbət mənada təsir bağışlayan qiymətli məmulatları ixrac etmək göstərişi verdi. Peyğəmbər (s) tərəfindən atılan bu addım İslam dinin hərtərəfli bir din olduğu və "insanların yaşayışı", "təlim-tərbiyə" və "şərəfli həyatı" və sairə kimi məsələlərə önəm verdiyini diqqətə çatdırır.İslami ölkələrin zəngin yeraltı sərvətlərə malik olmasına baxmayaraq, müsəlmanların fəqir və ehtiyaclı şəkildə həyat sürməsi, həqiqətən də, insanda təəssüf doğuracaq bir haldır.Bütün fiziki və mənəvi qüvvələrimizi işə salaraq həmin sərvətlərin əldə edilməsinə çalışmaq lazımdır.

*1. "Nəhcül-fəsahə", səh. 63, hədis: 323.*

# 15

## ƏN PİS PEŞƏ

*Allahın Rəsulu (s) buyurur:*

شَرُّ الْمَكَاسِبِ كَسْبُ الرِّبَا

***"Ən pis qazanc sələmdən gələn qazancdır."***[1]

*İmam Sadiq (ə) buyurur:*

إِذَا أَرَادَ اللهُ بِقَوْمٍ هَلاكاً ظَهَرَ فِيْهِمُ الرِّبَا

***"Allah bir milləti həlak etmək istədikdə, onların arasında sələmi aşkar edər."***

### Qısa izah

Hal-hazırda yaşadığımız dünyada sələmçiliklə məşğul olan şəxslərin bazarı xüsusi və özünəməxsus rövnəq tapmışdır. Həmçinin, bugünkü dünyanın sələmçiliklə sıx bağlılığı cəmiyyətdə müxtəlif problem və fəsadlar yaratmışdır. Sələmçiliyin cəmiyyətlərin iqtisadi və maliyyə sistemlərini tənəzzülə uğratması və eyni zamanda, millət və xalqların sərvətlərinin hədsiz dərəcədə sələmçiliklə məşğul olan müəyyən müəssisə və fərdlərin əllərində toplanmasına şərait yaratması da danılmazdır. Sərvətlərin bu cür ədalətsiz bölüşdürülməsinin özü ictimai bədbəxtliklərin və əxlaqi fəsadların başlıca mənşəyidir.

Bəli! Ciddiyyətlə demək lazımdır ki, sələmçilik

*1. "Vəsailuş-şiə", 1-2, c. 12.*

dünyada olan iqtisadi stabilliyi aradan qaldırmış, dünya müharibələri və dağıntıların yaranmasına səbəb olmuşdur.

# 16

## AĞALIQ VƏ ƏSİRLİK

İmam Əli (ə) buyurmuşdur:

**أُمْنُنْ عَلَيٰ مَنْ شِئْتَ تَكُنْ أَمِيرَهُ واحْتَجْ إِلَيٰ مَنْ شِئْتَ تَكُنْ أَسِيرَهُ واسْتَغْنِ عَمَّنْ شِئْتَ تَكُنْ نَظِيرَهُ**

***"Ağalıq etmək istədiyin şəxsə yaxşılıq et, əsiri olmaq istədiyin şəxsə möhtac ol və tayı (bənzəri) olmaq istədiyin şəxsə ehtiyaclı olma!"[1]***

Qısa izah

İctimai münasibətlərdə bütün fərd və millətlər arasında belə bir qanunun hakimliyi danılmazdır:

"Hakimiyyət varlı təbəqəyə məxsus olduğundan, kasıb təbəqə istər-istəməz onlara tabedir. Möhtac insanlar, həqiqətdə, başqalarına ehtiyaclı olduqlarını bildirdikləri üçün, özləri öz köləlik sənədlərinə imza atmışlar. Bu səbəbdən, İslamda başqalarından yardım diləmək pislənmişdir. Deməli, həqiqi müsəlman digər insanlarla ictimai münasibətlərini birtərəfli deyil, qarşılıqlı əməkdaşlıq əsasında qurmaq üçün çalışmalı və əvəzsiz kömək istəmək isə, yalnız əlil və şikəst insanlara aid olmalıdır."

Diqqəti cəlb edən məsələ budur ki, hökmranlıq və tabelik, izzət və zillət, xoşbəxtlik və bədbəxtlik, zənginlik və yoxsulluq kimi məsələlər təsadüfi deyil, əksinə insanların öz əlləri ilə hazırladığı səbəblərin nəticələridir. Xoşbəxtlik və bədbbəxtlik amillərini ayırd

*1. "Biharul-ənvar", 74-cü cild, səh. 400 və 421; 72-ci cild, səh. 107 və 71-ci cild, səh. 411.*

edərək birincini qazanmaq, ikincini isə dəf etmək üçün səy etmək lazımdır.

# 17

## RİYAKARLIQ VƏ ÖZÜNÜGÖSTƏRMƏ

*İmam Sadiq (ə) buyurmuşdur:*

لاَ تُرَاءِ بِعَمَلِكَ مَن لا يُحْيِي وَ لا يُمِيتُ وَ لا يُغْنِي عَنْكَ شَيْئًا

***"Öz xeyirxah işlərini nə həyat və ölüm əllərində olmayan, nə də sənin çətinliklərini həll edə bilməyən kəslərə göstərmək (riya) məqsədi ilə yerinə yetirmə."[1]***

### Qısa izah

Riyakarlıq və özünü nümayiş etdirməyi adət halına çevirən bir qrup insanın demək olar ki, bütün həyat devizi puç və mənasızdır. Belə insanlar mədəniyyət yerinə ruhsuz zahir, real həyat yerinə mövhumat və xəyallar, səadət və xoşbəxtlik əvəzinə yalnız quru bir ad, din və məzhəbdən isə təkcə bir növ silsiləvi mərasimlərlə kifayətlənirlər. Şübhəsiz, özlərini bu şəkildə nümayiş etdirən insanların mənfəəti riyakarlıq və ikiüzlülükdən başqa, heç bir şey deyildir.

Bu səbəbdən, İslam dini belə iyrənc sifəti şiddətli şəkildə tənqid edir və bu barədə öz nəzərini bildirərək deyir: "Sənin müqəddərat və taleyin belə insanların ixtiyarında deyil! Belə isə, riyakarlıq etmək nəyə lazımdır?! "

Əgər biz bütün nemətlər, o cümlədən, izzət və səadətə nail olmağın bağışlayan və mehriban Allah

1. *"Biharul-ənvar", c. 69, səh. 300.*

tərəfindən olması həqiqətinə diqqət yetirə bilsək, bu zaman şəxsiyyət və mənliyimizi digərləri müqabilində nümayiş etdirməyimizə ehtiyac qalmaz.

# 18

## HƏSƏD VƏ PAXILLIQ

*İmam Sadiq (ə) buyurmuşdur:*

الْحَاسِدُ مُضِرٌّ بِنَفْسِهِ قَبْلَ أَنْ يُضِرَّ بِالْمَحْسُودِ

***"Həsəd edən paxıllıq etdiyi şəxsə zərər yetirməzdən qabaq özünə zərər vurar."[1]***

### Qısa izah

Həsəd amilinin həqiqəti insanın digərlərinin nemət içərisində olduğunu görmək istəməməsi, həmin nemətlərin onların əlindən çıxması uğrunda səy və təlaş etməsi və yaxud onlara ziyan dəyməsini arzulamaqdan ibarətdir.

Həqiqətdə, həsəd aparan şəxs həmişə bir növ lider və öndərlik amilinin deyil, əksinə geriqalma amili uğrunda fəaliyyət göstərir. Digər tərəfdən, həsəd əxlaqi xəstəlik və rəzilə sifətlərdən sayılır.

Həsəd edən şəxs psixoloji cəhətdən digərlərindən öncə, özünü oda ataraq yandırır və başqa bir ifadə ilə desək, hamıdan geriyə qalaraq təhqir edilir. Belə olduğu halda, həsəd aparan şəxs digər insanların inkişafına mane olmaq üçün deyil, əksinə onlardan önə keçmək uğrunda çalışmalıdır.

Bəli! Həsəd aparan kəs, başqalarına zərər yetirməzdən qabaq, ilk öncə özünü həsəd atəşində yandırır.

*1. "Biharul-ənvar", c. 70, səh. 255.*

# 19

## ALLAH RƏHMƏTİNDƏN UZAQ OLANLAR

*İmam Əli (ə) buyurmuşdur:*

مَنْ وَجَدَ مَاءً وَ تُرَاباً ثُمَّ افْتَقَرَ فَأَبْعَدَهُ اللهُ

***“İxtiyarında torpaq və su olduğu halda, fəqir və ehtiyaclı olan şəxs Allahın rəhmətindən uzaqdır.”[1]***

**Qısa izah**

İslami hədislərdən müsəlmanların əkinçilik, maldarlıq, mədənlər, ticarət və müxtəlif peşə sahələrindən istifadə edərək fəqirlik və yoxsulluqla mübarizə aparmalı olduğu həqiqəti anlaşılır

Həmçinin, əgər hansısa millət bu sərmayələrin hamısına deyil, yalnız onlardan birinə malik olarsa, öz iqtisadi çatışmazlıqlarını onların vasitəsilə təmin edərək ödəyə bilər. Əks təqdirdə, həmin sərvətlərə sahib olan, lakin ondan istifadə etməyən bir millət Allah rəhmətindən uzaqlaşmış və lənətlənmiş millət kimi olacaqdır.

İslamın nəzərində başqalarına möhtac olmaq məzəmmət edilir.

Allahın lütf və mərhəməti sayəsində bizim ixtiyarımızda su və torpaq ola-ola nə üçün biz, hətta çörəklə özümüzü təmin etmək üçün digər ölkələrdən buğda və digər qida məhsullarını idxal etməliyik?

---

*1. “Biharul-ənvar”, c. 100, səh. 65.*

# 20

## ƏN PİS DOST

*Həzrət Əli (ə) buyurmuşdur:*

شَرُّ إِخْوَانِكَ مَنْ دَاهَنَكَ فِي نَفْسِكَ وَ سَاتَرَكَ عَيْبَكَ

***"Dostlarından ən pisi sənə yaltaqlıq edən və eyiblərini örtənlərdir."[1]***

### Qısa izah

Həqiqətləri ört-basdır edərək onları görməzdən gəlmək nə bir çətinliyi aradan qaldırır, nə də kiməsə xidmət sayılır. Buna əsasən, tərbiyəvi və düzgün irad yerinə həqiqətləri gizlətməyə çalışan və dostun ötəri razılığını qazanmaq və ya onu "yaxşı" kimi qələmə vermək üçün eyiblərini ört-basdır edən kəslər, həqiqətdə, dostluğa xidmət deyil, əksinə bəzən dostun abır-həya, səadət və heysiyyətinin aradan qalxması ilə nəticələnən xəyanətə mürtəkib olmuşlar.

Bəli! Dostlar bir-birinin eyiblərini göstərən güzgü olmalı və xoş rəftar və ədəblə nöqsanları aradan qaldırmağa çalışmalıdırlar.

*1. "Ğurərul-hikəm", c. 4, səh. 173, hədis, 5725.*

# 21

## İŞLƏRİ TƏKMİLLƏŞDİRMƏK

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

اِسْتِتْمَامُ الْمَعْرُوفِ خَيْرٌ مِنْ إِبْتِدائِهِ.

***“Xeyirli bir işin davamı onu başlamaqdan daha üstün və əhəmiyyətlidir.”[1]***

### Qısa izah

Adətən, ictimai həyat mühitində faydalı təklif və işlərlə qarşılaşırıq ki, bəzən onlar yarımçıq və sona çatdırılmamış şəkildə qoyulmuş olur. Həmin işləri görən kəslər hansısa bir hərəkətverici qüvvənin təsiri altına düşərək əzm və iradə ilə işə başlayırlar, amma tez bir zamanda işi sona yetirmək hissi və şövq onlarda soyuduğu üçün öz məqsədlərinə çata bilmirlər.

İslam dinində hər bir faydalı işi başlayıb sona çatdıran ciddi, çalışqan və imanlı şəxslər bəyənilir.

Gözəl və müsbət işləri təkmilləşdirərək onları ərsəyə çatdırmaq insanların digər bəyənilən işlərə təşviq edilməsinə səbəb olur. Eyni zamanda, camaat keçmişdə həyata keçirilən yaxşı işlərin nöqsanlı və sona çatdırılmamış olduğunu gördükləri zaman, digər xeyirli işləri yerinə yetirmək rəğbətindən məhrum olur.

*1. “Nəhcül-fəsahə”, səh. 53, hədis, 271.*

# 22

## ƏBƏDİ PROQRAMLAR

*İmam Sadiq (ə) buyurmuşdur:*

إِنَّ اللهَ لَمْ يَبْعَثْ نَبِيًّا إِلَّا بِصِدْقِ الْحَدِيْثِ وَ أَدَاءِ الْأَمَانَةِ

***"Allah bütün peyğəmbərləri insanları düz danışmaq və əmanətə vəfa etməyə dəvətdən başqa, digər bir iş üçün təyin etməmişdir."[1]***

### Qısa izah

Sağlam bir cəmiyyət müxtəlif məsələlərə əsaslanır ki, onlardan ən mühümü qarşılıqlı inam və etimad sərmayəsidir. Başqa bir ifadə ilə desək, danışıq və əmələ etimad göstərməkdir. Bu dəyərli sərmayənin ən böyük düşməni isə yalan və xəyanətdir. Əgər hansısa bir cəmiyyətdə yalan və xəyanət yayılarsa, bu zaman bütün insanlar bir-birlərindən çəkinər və tənha olduqlarını hiss edərlər. Belə olan təqdirdə, insanlar həyatın bütün çətinliklərinə təklikdə qatlaşmalıdır ki, bu da "yalqızalardan ibarət olan cəmiyyət" deməkdir. Deməli, doğru danışmaq və əmanətə vəfalı olmağa dəvət ilahi peyğəmbərlərin proqramlarının bir hissəsi sayılır. Bəli! Onlar cəmiyyətin digər məsələlərinin öz axarında hərəkət etməsi üçün, insanda olan bu iki gözəl xüsusiyyəti özlərinin əsas hədəfi olaraq nəzərdə tutmuşlar.

---

*1. "Səfinətul-bihar", c. 1, səh. 160.*

# 23

## ƏN ŞİDDƏTLİ CƏZA

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

أَشَدُّ النَّاسِ عَذَاباً فِي الْقِيَامَةِ عَالِمٌ لَمْ يَنْفَعْهُ عِلْمُهُ

***"Öz elmindən bəhrələnməyən (bildiyinə əməl etməyən) alimin əzabı qiyamətdə bütün insanların əzabından şiddətlidir!"[1]***

### Qısa izah

İslam məntiqi nəzərində elm və bilik ona əməl etmək, fərdi həyat və cəmiyyətin sağlamlaşdırılması üçün bir vasitə rolunu oynayır və bunlar olmadan o, əhəmiyyətsiz və dəyərsiz hesab edilir. Cəmiyyətdə bilmədən fəsad törədən insanların məsuliyyəti bildiyi və agah olduğu halda bu işlərə mürtəkib olanların məsuliyyətindən daha yüngüldür. Cəmiyyətin kütləvi təbəqəsini məlumatlandırmaqla vəzifəli olan, lakin həmin məsələdə səhlənkarlıq edən şəxslər öz elmi miqdarında məsuliyyət yükünü daşımalıdır. Belə bir sual yaranır ki, nə üçün qiyamət günü elmli insanların cəzası (əgər cəzaya layiq olsalar) digərlərindən daha şiddətli olacaqdır?

Sualın cavabı aydındır: "Onlar öz xətaları müqabilində heç bir üzrə malik deyillər. "

---

*1. "Biharul-ənvar", c. 2, səh. 38, hədis, 64.*

# 24

## BORC ALMAQ VƏ ONUN ZƏRƏRLƏRİ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِيَّاكُمْ وَ الْدَّيْنِ فَإِنَّهُ هُمٌّ بِاللَّيْلِ وَ ذُلٌّ بِالنَّهارِ

***“İmkan daxilində borc almaqdan çəkinin, çünki bu əməl gecə qəm və qüssə, gündüz isə zillətə səbəb olar.”[1]***

### Qısa izah

Hazırkı əsrdə maddi yaşayışın cah-cəlal və bər-bəzəyi bir qrup insanın davam gətirilməsi həddən artıq çətin olan borc və kredit yükü altına girməsi və bu baxımdan, həyatlarını cəhənnəm əzabına çevirməsinə səbəb olmuşdur. Borclu insan azad hesab edilmədiyi üçün, dini rəhbərlər həmin səbəbdən, zərurət olmadığı təqdirdə borc almağı məsləhət bilməmişlər. Əgər borclu olmaq məsələsi ölkə miqyasında meydana çıxarsa, bu zaman onun millət və xalqların mənəvi azadlıq və müstəqilliyinə vurduğu zərər həddən artıq ağır olacaqdır.

Əsrimizdə dünyaya hökmranlıq edən hegemon dövlətlər zəif ölkələrə qarşı hiylə və siyasət işlədərək onları əvvəlcə özlərinə borclu edir və daha sonra isə istədikləri səmtə sürükləyə bilirlər.

1. *“Biharul-ənvar”, c. 100, səh. 141.*

# 25

## SAĞLAM İCTİMAİ HƏYAT

*İmam Sadiq (ə) buyurmuşdur:*

لَوْ أَنَّ النَّاسَ أَدُّوا حُقُوقَهُم لَكَانُوا عَايِشِينَ بِخَيرٍ

***“Əgər insanlar bir-birinin hüquqlarına qarşılıqlı şəkildə riayət edə və ehtiyaclıların ehtiyacını ödəyərlərsə, gözəl və qənaətbəxş həyat sürərlər.”[1]***

### Qısa izah

Qeyd edilən hədis zəkat və cəmiyyətdəki ehtiyaclı təbəqənin təmin edilməsi ilə əlaqədar olduğu üçün, bizə hüquqlara qarşılıqlı şəkildə riayət edilməsinin təkcə insani və əxlaqi bir məsələ deyil, əksinə mühüm ictimai bünövrə, həmçinin, sağlam və asayişə malik cəmiyyətin onun girovunda olduğunu ezah edir.

Təbəqələrarası istismar və digərlərindən zalımcasına faydalanmaq məsələsinə qarşı nişan verilən reaksiya və etirazlar cəmiyyəti süquta düçar olmaq və ondakı aramlığı aradan aparmaqla təhdid edir. Bu məsələlərin canlı şahidi İslamın dəyərli göstərişləridir.

Dünya xalqları “haqqı" "zorakılığa" bərabər hesab etdiyi, qoluzorluların öhdəsində olan öz vacibi vəzifələrini yerinə yetirmək və haqqı ödəməkdən boyun qaçırdığı zamana qədər həm onların özləri təhlükədədir, həm də insan cəmiyyətini təhlükəyə sürükləyirlər.

---

*1. “Vəsailuş-şiə”, c. 6, səh. 2.*

# 26

## BÜTÜN BƏDBƏXTLİKLƏRIN AÇARI YALANDIR

*İmam Sadiq (ə) buyurmuşdur:*

إِنَّ اللهَ جَعَلَ لِلشَّرِّ أَقْفَالاً وَ جَعَلَ مَفَاتِيحَ تِلْكَ الْاَقْفَالِ الشَّرَابَ وَ شَرٌّ مِنَ الشَّرَابِ أَلْكَذِبُ

***"Allah-taala şər və pisliklər üçün qıfıllar müəyyən etmişdir ki, onların açarı şərabdır. Yalan isə şərabdan da pisdir!"[1]***

### Qısa izah

Bütün pislik və çirkinliklərin qarşısını alan ən böyük və ən təsirli maneə əql və zəkadır. Bu amil onları bağlayan möhkəm bir qıfıl rolunu oynayır. Əgər (əqlin) qıfılı şərab açarı ilə açılarsa, bütün pislik və çirkinliklər azadlığa çıxar və digər tərəfdən, insan məst və sərxoş halda hər bir cinayət və günaha aludə ola bilər.

Başqa sözlə desək, əgər içki içən insan sərxoşluq səbəbi ilə hansısa bir günah və ya cinayətə əl atırsa, yalan danışan insan bilərək və məlumatlı olduğu halda ictimai həyatı təhlükəyə salaraq etimad məsələsinin aradan qaldırılmasının səbəbkarına çevrilir.

Nəticə etibarı ilə yalan şərabdan daha xətərli və pis sayılır.

---

*1. "Vəsailuş-şiə", c. 17, səh. 263.*

# 27

## CƏNNƏTLİK İNSANLARIN ƏLAMƏTLƏRİ

*İmam Sadiq (ə) buyurmuşdur:*

لِاَهْلِ الْجَنَّةِ أَرْبَعُ عَلَامَاتٍ؛ وَجْهٌ مُنْبَسِطٌ وَ لِسَانٌ فَصِيحٌ لَطِيفٌ وَ قَلْبٌ رَحِيمٌ وَ يَدٌ مُعْطِيَةٌ

***"Cənnət əhlinin dörd nişanəsi var: Açıqüzlülük, aydın danışıq, məhəbbətlə dolu qəlb və əl tutmaq."[1]***

### Qısa izah

Humanist məktəblərin ən nəcibi fərdləri cəmiyyətdə təsəvvür edən və maddi və mənəvi mənfəətlərin özəyi olduğu üçün cəmiyyəti dəyərli insanlar yetişdirərək formalaşdıran bir mühit kimi nəzərdə tutandır.

Xoşbəxt insanlar və cənnət əhlinin nişanələrini bəyan edən yuxarıdakı hədisdə cəmiyyətin möhkəmlənməsi və onun parçalanmasına səbəb olan dörd bir-biri ilə əlaqəli ictimai mövzuya toxunulmuşdur:

Mehr və məhəbbətlə dolu üzlər, şirin və eyni zamanda lətafətli dillər, insan və insanlıq üçün döyünən ürəklər və yardım göstərməkdən imtina etməyən əllər – bəli, cənnət əhlinin nişanələri sadaladığımız xüsusiyyətlərdir.

---

*1. "İrşadul-qulub", səh. 181.*

# 28

## RİYAKARLARIN ƏLAMƏTLƏRİ

*İmam Sadiq (ə) buyurmuşdur:*

قَالَ لُقْمَانُ لِإِبْنِهِ: لِلْمُنَافِقِ ثَلَاثُ عَلَامَاتٍ؛ يُخَالِفُ لِسَانُهُ قَلْبَهُ وَ قَلْبُهُ فِعْلَهُ وَ عَلَانِيَّتُهُ سَرِيرَتَهُ

***"Loğman öz oğluna dedi: "İkiüzlü şəxslərin üç əlaməti vardır: Dilləri qəlb, qəlbləri əməl və zahirləri isə batinləri ilə uyğun və mütənasib deyildir. ""[1]***

### Qısa izah

Münafiq və ikiüzlülük insanın şəxsiyyət zəifliyi və iradə çatışmazlığından qaynaqlanan şiddətli xəstəliklərdən sayılır. Dillə ürək, zahirlə batin, danışıqları ilə rəftarları uyğun gəlməyərək fərqlənən kəslər özlərinin həqiqi sima və şəxsiyyətini tanıtmağa və bu rəzil xislətin islah edilməsi ilə bağlı qərar qəbul etməyə qadir olmayan zəif insanlardır. Onlar müxtəlif cildlər düşərək əksər halda hamıya, hətta, özlərinə belə xəyanət edirlər. Belə şəxslərdən daha təhlükəli və xətərli olanlar isə zahirdə yaraşıqlı, batində isə çirkin və dillərini şirin edənlərdir. Onların qəlblərindəki dillərindəki ilə ziddiyyət təşkil edir.

*1. "Biharul-ənvar", c. 13, səh. 415.*

# 29

## NƏSİHƏT

*Həzrət Əli (ə) buyurmuşdur:*

إِتَّعِظُوا بِمَنْ كَانَ قَبْلَكُمْ قَبْلَ أَنْ يَتَّعِظَ بِكُمْ مَن بَعْدَكُمْ

***“Gələcək nəsil sizin həyat və sərgüzəştinizdən ibrət və nəsihət almamışdan öncə, keçmişdəkilərinizdən (ata-babalarınızdan) ibrət və nəsihət alın!”[1]***

### Qısa izah

Tarixə nəzər salsaq, onun ibrət dərsləri və moizələrlə dolu olduğunu görərik.

Baş verən zülm və sitəmlər, ixtilaflı və pərakəndə məsələlərdən tutmuş tənəzzül və dəyişikliklər, zaman və mühitdən xəbərsiz olmaq kimi xüsusiyyətlərin hamısının tarix səhnəsində öz əksini tapdığını müşahidə edə bilərik.

Bəşəriyyət tarixinin böyük şəxsiyyəti sayılan Əli (ə) bizlərə xəbərdarlıq edərək buyurur ki, keçmişdə olan insanların həyat və yaşayışından ibrət götürün və bədbəxtliyə səbəb olan fəlakətli həyatınızın gələcək nəsillər üçün ibrət dərsi olmasına şərait yaratmayın. Coşqun və təlatümlü zaman dəryası hamını özü ilə yanaşı apardığı halda, xoşbəxt insan və cəmiyyət öz keçmişinə nəzər salaraq gələcək səadət və xoşbəxtliyi uğrunda səy və təlaş edənlərdir

---

*1. “Nəhcül-bəlağə”, 32-ci xütbə.*

# 30

## DANIŞMAQ VƏ SÜKUT

*Həzrət Əli (ə) buyurmuşdur:*

لَا خَيْرَ فِي الصَّمْتِ عَنِ الْحُكْمِ كَمَا أَنَّهُ لَا خَيْرَ فِي الْقَوْلِ بِالْجَهْلِ

***"Alimin sükutu, cahilin isə danışığı faydasızdır."***[1]

### Qısa izah

Allah-taala agah və alim insanlardan onların haqsızlıq, zülm və sitəm, inhiraflar və düşmən təcavüzü qarşısında sükut etməməsi barədə əhd almışdır . Belə insanlar öz əhdlərinə sadiq qalaraq öz tutarlı bəyan və məntiqləri ilə haqq-ədalət və hidayət nurunu insanların qəlblərində şölələndirməlidirlər. Hansısa bir şəxs bildikləri şeylərin az olmasına baxmayaraq, məlumatı olduğu məsələdə alim və onunla bağlı məsuliyyət daşıyır. Bu baxımdan, kifayət qədər elmi olmayan insanlar müəyyən işlərdə dəxalət edərək digərlərini inhiraf və azğınlığa sürükləməməlidir.

Elmi olduğu halda sükut etmək və bilmədiyi halda danışmaq – bunların hər ikisi bədbəxtlik törədən amillərdən sayılır. Əgər yaxşı nəzər salsaq, görərik ki, bugünkü dünyanın qlobal problemləri bu iki amilin diqqətə alınmamasından yaranmışdır. Nəticədə, alim və savadlı insanlar cəmiyyətə xeyirli və lazım olan məsələləri bəyan etmir, cahillər isə öz savadsızlıqları ilə

---

*1. "Nəhcül-bəlağə".*

cəmiyyəti fəsada sürükləyirlər.

# 31

## BAĞIŞLAMAĞIN LƏZZƏTİ

*Həzrət Əli (ə) buyurmuşdur:*

إِذَا قَدَرْتَ عَلي عَدُوِّكَ فَاجْعَلِ الْعَفْوَ عَنْهُ شُكْرًا لِلْقُدْرَةِ عَلَيْهِ

***"Öz düşməninə qələbə çaldıqda, bağışlamağı bu qələbənin şükrü təyin et."[1]***

### Qısa izah

İslam məntiqi nəzərində, istisnasız olaraq hər bir nemət və bəxşişin zəkatı şükr olduğu kimi, qüdrət və qələbənin də zəkat və şükrü bağışlamaq və əfv etməkdir.

Zahiri qələbələr ədavət və düşmənçiliyin düşmənin qəlbindən silinməsi və müxalifətçiliklərin kökünün kəsilməsi ilə daha da davamlı olacaq və bu məsələ bağışlamaq və əfvdən başqa, digər bir yolla əldə olunası deyil. Nəticədə, düşmən qəlbən dəyişəcək və sənin dünənki düşmənin bugünkü dostuna çevriləcək, beləliklə, qələbə zahir və batin baxımından təkmilləşəcəkdir.

Əksinə, qüdrət əldə etdikləri zaman intiqam almaq hissi ilə yaşayan kəslər öz insanlıq fəzilətindən məhrum olmaqla yanaşı, sahib olduqları qələbəni də təhlükəyə atacaqlar.

İslam Peyğəmbəri (s) qeyd edilənlərin tam və kamil nümunəsidir. O həzrət Məkkəni fəth və düşməni məğlub

---

*1. "Nəhcül-bəlağə"; "Biharul-ənvar", c. 68, səh. 427.*

etdiyi zaman misligörünməmiş əfv və bağışlamaq fenomeni nümayiş etdirərək digər insanları heyrətə salmışdır.

# 32

## HƏQİQİ MƏNADA ZAHİDLİK

*Həzrət Əli (ə) buyurmuşdur:*

الزَّاهِدُ فِي الدُّنْيَا مَنْ لَمْ يَغْلِبِ الْحَرَامُ صَبْرَهُ وَ لَمْ يَشْغَلِ الْحَلَالُ شُكْرَهُ

***"Dünyada həqiqi zahid o kəsdir ki, haram mal onun müqavimət və iradəsini qırmasın və halal mal isə onu (Allaha) şükür etməkdən yayındırmasın."[1]***

### Qısa izah

Bəzi savadsız və məlumatsız insanlar "zahidlik" məfhumunu ilahi nemətlərdən uzaqlaşmaq və iqtisadi imkanlardan üz çevirərək kasıb və fəqir halında yaşamaq kimi mənfi mənaya yozmuş və onun əsl mənasını təhrif etmişlər. Halbuki, məsələ heç də belə deyildir. Həzrət Əlidən (ə) nəql olunan bu hədisdə zahidliyin həqiqi və əsl mənası "halal mallar müqabilində öz vəzifə və məsuliyyətlini unutmamaq" kimi təfsir edilir.

Əgər zahidlik məfhumu mənfi və geridə qalma amili kimi deyil, əksinə tərbiyəvi yönlü və quruculuq amili kimi təfsir edəriksə, bu zaman onun cəmiyyət üçün daha çox faydası olacaqdır.

---

*1. "Tuhəful-uqul", səh. 138.*

# 33

## ŞƏHİDLƏRLƏ BİRGƏ

*Həzrət Əli (ə) buyurmuşdur:*

مَا الْمُجَاهِدُ الشَّهِيدُ فِي سَبِيلِ اللهِ بِأَعْظَمَ أَجْرًا مِمَّنْ قَدَرَ فَعَفَّ

***"Allah yolunda döyüşüb şəhadətə çatmış şəxsin məqamı heç də qalib gəldiyi halda bağışlayan (günah edə bildiyi halda, özünü günahdan saxlayan)) kəsdən üstün deyildir."[1]***

### Qısa izah

İslam məntiqi nəzərində ən böyük cihad, xüsusilə azğınlıq və inhiraf olan mühitlərdə, nəfsi istək və meyillərlə mübarizə aparmaqdır.

İnsanın öz düşməni ilə mübarizə aparması onun öz şəxsi istək və məqsədlərindən uzaqlaşaraq pak niyyət və ixlasla döyüşdüyü zamanlarda faydalı və səmərəli olacaqdır. Bunların hamısını nəfslə mübarizə aparmaq və kifayət qədər əxlaqi keyfiyyətlərə malik olduqda həyata keçirmək mümkündür.

Bu dəlilə əsasən, həzrət Əli (ə) buyurur: "Mübarizə meydanlarında öz istək və arzularına qalib gələn kəslər özlərini inhiraf və azğınlıq olan mühitlərdə də pak və təmiz saxlayırlar. Belə şəxslər Allah yolunda mübarizə aparan şəhidlərdən heç də aşağı məqamlı sayılmırlar. Bu hədisin ardınca "Nəhcül-bəlağə"də bu cür kəslərin asimandakı mələklərlə bir sırada dayandığı qeyd edilmişdir.

*1. "Nəhcül-bəlağə".*

# 34

## CAMAATIN ƏN YAXŞISI

*İmam Sadiq (ə) buyurmuşdur:*

خَيْرُ النَّاسِ قُضَاةُ الْحَقِّ

***"İnsanların ən yaxşısı haqq əsasında hökm verənlərdir."*[1]**

### Qısa izah

İctimai, əxlaqi və hüquqi məsələlərdə ədalətli hökm vermək yalnız özü və digərlərinin mənafeyini ayrı-seçkilik etmədən nəzərə alan və şəxsi məhəbbət və düşmənçiliyi onların ədalətinə mane olmayan kəslər tərəfindən mümkündür. Belə işlər sadəcə iman nuru, insani fəzilətlər və camaaata sevgi qəlblərində yer tutaraq onların şəxsi mənafe və eqoistliklərinin qarşısını alan, eyni zamanda, aydın düşüncə və təfəkkürlərinə mane olaraq inhirafa sürükləməyən şəxslər tərəfindən həyata keçirilə bilər.

Həmin şəxslər "camaatın ən yaxşısı" adlandırılmağa layiqdirlər. Həqiqətdə, belə insanların əksəriyyəti qəzavət və hökm vermək kimi məsuliyyət tələb edən məqamlardan uzaq durur. Qeyd edilən hədisdə bildirilir ki, bu xüsusiyyətlərə malik və ədalətlə hökm verən insanlar ən yaxşı insanlardır və onlar yüsək məqamlara sahib olmalı həmin mövqeləri yanlış və ədalətsizcəsinə hökm verən fərdlərəin ixtiyarında qoymamalıdırlar.

---

*1. "Biharul-ənvar", c. 101, səh. 266.*

# 35

## AZAD İNSANLARIN İBADƏTI

*İmam Sadiq (ə) buyurmuşdur:*

العِبَادُ ثَلَاثَةٌ؛ قَوْمٌ عَبَدُوا اللهَ عَزَّ وَ جَلَّ فَتِلْكَ عِبَادَةُ الْعَبِيدِ وَ قَوْمٌ عَبَدُوا اللهَ تَبَارَكَ وَ تَعَالَي طَلَبَ الثَّوَابِ فَتِلْكَ عِبَادَةُ الْأُجَرَاءِ وَ قَوْمٌ عَبَدُوااللهَ عَزَّ وَ جَلَّ حُبًّا لَهُ فَتِلْكَ عِبَادَةُ الْأَحْرَارِ وَ هِيَ أَفْضَلُ الْعِبَادَةِ

***"Allaha ibadət edənlər üç qrupa bölünür: 1. Allaha cəhənnəm qorusundan ibadət edənlər - bu, qulların ibadətidir. 2. Allaha savab üçün ibadət edənlər - belə ibadət muzd alanların ibadətidir. 3. Allaha ona məhəbbət bəslədikləri üçün ibadət edənlər. Bu ibadət ən üstün və azad insanların ibadətidir."[1]***

### Qısa izah

Bütün ilahi mükafat və cəzalar vədəsinin haqq və Allahın mükafatının dəyərli, qeyri-adi və cəzasının da şiddətli olmasına baxmayaraq, ona məhəbbət bəsləyən, qəlbləri yalnız Allah sevgisi ilə döyünən insanlar bunlardan daha üstün olan bir məqama göz dikmiş və yalnız Allahın əmrinə itaət etmək və onun razılığını qazanmağı nəzərdə tutmuşlar. Bu, Allahı tanımaq mərifəti ilə qarışan ilahi sevgidir.

*1. "Vəsailuş-şiə", c. 1, səh. 45.*

# 36

## İNSANIN BELİNİ QIRAN AMİLLƏR

*İmam Baqir (ə) buyurmuşdur:*

ثَلاثٌ قاصِماتُ الظَّهْرِ؛ رَجُلٌ اسْتَكْثَرَ عَمَلَهُ وَ نَسِيَ ذُنُوبَهُ وَ اَعْجَبَ بِرَأْيِهِ...

***"Üç şey insanın belini qırar: 1. Yaxşı əməli böyük saymaq 2. Günahlarını unutmaq; 3. Öz nəzərini mütləq və üstün bilmək."[1]***

**Qısa izah**

Öz əməllərini üstün hesab edən kəslər tam yəqinliklə ona qane olurlar ki, bu da onların inkişaf və təkamülü qarşısında böyük maneəyə çevrilir.

Öz günahlarını unudan kəslər isə günahlarını xeyir və savab əməllərlə əvəz etmək yerinə, hər gün yeni bir günaha aludə olurlar. Belə məsələlər onların birdəfəlik məhv olmasına səbəb sayılır.

Öz fikir və ideyaları ilə kifayətlənən insanlar ictimai təfəkkür və sair fərdlərin elm və təcrübəsindən məhrum olurlar. Nəticədə, mütəmadi şəkildə və bir-birinin ardınca edilən xətalar onları əhatə edəcək və nəhayət, saysız çətinliklər müqabilində belləri sınacaqdır

Qeyd edilən çirkin və mənfur sifətləri tərk edərək cəmiyyətnin sağlam fərdlərinə çevrilməyə çalışaq.!

---

*1. "Vəsailuş-şiə", c. 1, səh. 73.*

# 37

## PAK VƏ TƏMİZKAR OL

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

اَفْوَاهُكُمْ طَرِيقٌ مِن طُرُقِ رَبِّكُمْ فَأَحَبُّهَا اِلَي اللهِ اَطْيَبُهَا رِيحًا فَطَيِّبُوهَا بِمَا قَدَرْتُم عَلَيْهِ

***"Allaha doğru aparan yollardan biri də sizin ağzınızdır. Onun dərgahında ən sevimli ağız ən yaxşı qoxulu olandır. Belə isə ağzınızı xoş iyili saxlamaq üçün çalışın. "*[1]**

### Qısa izah

"Vəsailüş-şiə" kitabında dişlərin yuyulma qaydası haqqında nəql olunan bu hədisin həm zahiri, həm də batini mənası vardır. Hədisin zahiri mənası hər bir mömin insanın ağzı ilə Allaha ibadət etməsi və onun nazil etdiyi ayələri oxumasından ibarətdir. Bu baxımdan, möminlər ağızlarını pak və təmiz saxlamalıdırlar. Hədisin batini mənası belədir: "İnsan ağzı ilə Allah dərgahına üz tutaraq danışdığı və digərləri arasında onun vasitəsilə ünsiyyət yaratdığı üçün, onu nalayiq və yersiz sözlərdən pak saxlamaqla Allah dərgahında daha sevimli və əziz bəndəyə çevrilə bilər."

Ədavət və düşmənçilik, hətta, qanlı müharibələrin də baş verməsinə səbəb olan nalayiq söz və kobudluqlardan çəkinmək lazımdır.

*1. "Vəsailuş-şiə", c. 1, səh. 358.*

# 38

## ZİYANKAR CAHİLLƏR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

مَن عَمِلَ عَليٰ غَيْرِ عِلْمٍ كَانَ مَا يُفْسِدُهُ أَكْثَرُ مِمَّا يُصْلِحُهُ

***"Elmsiz əməl edənin törətdiyi fəsad islah etmək istədiklərindən çoxdur."[1]***

**Qısa izah**

Cahillik və nadanlığın zərəri təkcə insanın həyat və yaşayışın həqiqi dəyərlərinə çatmaması ilə məhdudlaşmır. Əksinə, elmsiz əməl etməyin nəticəsi fəsad və təhlükədir.

Bu baxımdan, cahil insan öz övladına yaxşılıq etmək istədikdə, ona zərər vurur, İslama xidmət əvəzinə dini nəzərdən salır, insanlar arasında sülh və əminamanlıq yaratmaq yerinə camaat arasında nifaq və ixtilaf törənməsinə bais olur. Bir sözlə, nadan və cahil şəxslərin məlumatsızlığından yaranan fəsad və inhiraflar onların etmək istədikləri islahat və yaxşılıqlardan çoxdur.

---

*1. "Biharul-ənvar", c. 1, səh. 208.*

# 39

## HİDAYƏTİN ƏSASI

*İmam Cavad (ə) buyurmuşdur:*

الـمُؤْمِنُ يَحْتَاجُ اِلَي ثَلاثِ خِصَالٍ؛ تَوْفِيقٍ مِنَ اللهِ وَ وَاعِظَةٍ مِن نَفْسِهِ وَ قَبُولٍ مِمَّن يَنْصَحُهُ

***"Mömin üç şeyə ehtiyaclıdır: 1. Allah əta etdiyi müvəffəqiyyətə; 2. Batini nəsihət verənə; 3. Nəsihət edənlərin öyüdünü qəbul etməyə."[1]***

### Qısa izah

İnsan gələcək həyatda onu qarşılayacaq enişli-yoxuşlu yollardan keçə, səadət və xoşbəxtliyini təhdid edən saysız təhlükə və xətərlərdən nicat tapa  və cəmiyyətdə faydalı və xeyirli bir insana çevrilə bilməsi üçün, ilk öncə Allahla mənəvi rabitəyə malik olmalı və ondan yardım diləməli, sonra isə onu nəsihət edən daxili vicdana, həmçinin, digərlərinin faydalı məsləhətlərini, düşüncə və ideyalarını eşidən qulağa yiyələnməlidir. .

*1. "Muntəhəl-amal", c. 2, səh. 600.*

# 40

## CAHİLİYYƏT DÖVRÜNDƏ MƏRSİYƏXANLIQ

*İmam Baqir (ə) buyurur ki, İslam Peyğəmbərinin (s) heç bir kəsin o həzrətdən (s) öncə söyləmədiyi ən qısa hədislərdən biri də budur:*

النِّيَاحَةُ مِن عَمَلِ الْجَاهِلِيَّةِ

***"Mərsiyəxanlıq cahillik dövrünün əməllərindəndir. (Problemlər qarşısında ah-nalə edib şivən qoparmaq deyil, əksinə onların həlli üçün tədbir görmək lazımdır.)"[1]***

### Qısa izah

Bu lakonik və dolğun mənalı hədisin həm zahiri, həm də batini mənası vardır. Hədisin zahiri mənası cahiliyyət dövründə adət və ənənə halını alan düşüncəsiz əməllərə işarə edir. Cahiliyyət dövründə hansısa bir şəxs dünyasını dəyişdiyi zaman onun matəm məclisinə xüsusi avaza malik qadın mərsiyəxanlar dəvət olunurdu. Həmin mərsiyəxanlar yalandan ölən şəxsin tərif və mədhi ilə bağlı şerlər qoşur və bu minvalla qurama bir məclis aparırdılar.

Hədisin digər batini və İmam Baqirin (ə) də işarə etdiyi mənası belədir: "Həyatın ağrılı-acılı hadisələri və qarşıya çıxan çətinliklər müqabilində ah-nalə edərək fəryad qoparmaq faydasız və insanın fiziki qüvvəsinin tükənməsinə səbəb olan bihudə bir işdir. Bu cür işlər yerinə insanın öz əql və düşüncəsini işə salaraq

*1. "Vəsailuş-şiə", c. 2, səh. 915.*

problemlərin həlli ilə bağlı tədbir tökməyə çalışması daha bəyənilləndir."

# 41

## GÜN ƏRZİNDƏ ÖZÜNLƏ HESABAT APAR

*İmam Kazim (ə) buyurmuşdur:*

لَيْسَ مِنَّا مَن لَمَ يُحَاسِبْ نَفْسَهُ فِي كُلِّ يَوْمٍ

***"Gün ərzində nəfsini hesaba çəkməyən kəs bizdən deyildir!"*[1]**

### Qısa izah

Dünyanın istər böyük olsun, istərsə də kiçik, hər hansı bir müəssisəsində gündəlik mühasibat və hesab-kitab aparmadan ziyanın qarşısını almaq və çoxlu mənfəət və gəlir əldə etmək üçün çalışmaq mümkün deyildir.

Həqiqətən, insanların maddi sərmayələri, hətta, öz ağırlıqlarının neçə qram artıb-azalması barədə həddən artıq dəqiqliklə hesab-kitab aparması, amma bütün ömrü boyu bir dəfə də olsun insani, əxlaqi və mənəvi keyfiyyətləri nəzərdən qaçırması təəccüb doğuracaq bir haldır. Bu, necə də böyük bir qəflət və diqqətsizlikdir!

İmam Kazimin (ə) yuxarıdakı hədisdə buyurduğu kimi, ayıq və məsuliyyətli müsəlman gün boyu istisnasız olaraq öz nəfsini hesaba çəkən, yaxşı və xeyirli iş gördükdə, onu artırmağa, bəyinilməz işə mürtəkib olduqda isə Allahdan bağışlanmaq diləməyə çalışan kəsdir.

---

*1. "Biharul-ənvar", c. 67, səh. 72, hədis, 24.*

# 42

## İMANIN TƏSİRİ POLADDAN MÖHKƏMDİR

*İmam Sadiq (ə) buyurmuşdur:*

اِنّ الْـمُؤْمِنَ أَشَدُّ مِن زُبُرِ الْحَدِيدِ، اِنَّ زُبُرَ الْحَدِيدِ إِذَا دَخَلَ النَّارَ تَغَيَّرَ وَ إِنَّ الْـمُؤْمِنَ لَوْ قُتِلَ ثُمَّ نُشِرَ ثُمَّ قُتِلَ لَمْ يَتَغَيَّرْ قَلْبُهُ

***“Mömin polad parçalarından daha möhkəmdir. Polad atəşə düşdükdə dəyişib əridiyi halda, mömin ölüb dirilə və sonra yenidən ölərsə, onun imanı və ruhiyyəsində dəyişiklik yaranmaz.”***[1]

### Qısa izah

Həyat zəif və iradəsiz insanların tez bir zamanda onun qarşısında diz çökərək meydandan qaçdığı çətinlik və qarmaqarışıq məsələlər toplusundan ibarətdir.

Amma iman nuru sayəsində müqavimət göstərən kəslər heç vaxt saysız çətinliklər qarşısında təslim olmurlar.

Onlar ilahi əmrlərə itaət, günahlardan ,çəkinmək, şərəf və bəyənilən həyat yolunda maneələrin olduğunu bilir və başa düşürlər ki, qeyd edilənləri əldə etmək üçün üsyankar nəfsin müqabilində əzəmətlə dayanmalı, fədakarlıq və müqavimət göstərməlidirlər.

Allahın əta etdiyi toviq nəticəsində mömin şəxslər həyatın sarsıdıcı hadisələri və imtahanlardan başıuca çıxır və sonunda qalib gəlirlər.

*1. “Səfinətul-bihar”, c. 1, səh. 147.*

# 43

## TÖVHİD VƏ İLAHI ƏDALƏTİN HƏQİQƏTİ

*Həzrət Əli (ə) buyurmuşdur:*

التَّوْحِيدُ أَنْ لَا تَتَوَهَّمَهُ وَ الْعَدْلُ أَنْ لَا تَتَّهِمَهُ

***"İlahi tövhidin mahiyyəti Allahın pak zatınını öz təsəvvür və xəyalınla məhdudlaşdırmamaq, ədalətinə iman isə heç bir işdə onu müttəhim etməməyindir!"[1]***

### Qısa izah

Allahın varlığı biz insanlar üçün nüəyyən miqdarda aydın və aşkar olduğu,. dünyadakı hər bir zərrənin onun əzəmət, qüdrəti, elm və bacarığına işarə etdiyi kimi, onun pak və müqəddəs zatı bizim üçün anlaşılmaz olaraq qalmaqdadır. Buna səbəb bizim əqlimizin əhatə dairəsinin məhdud, Allahın müqəddəs zatının isə naməhdud və təsəvvürəsığmaz olmasıdır. Allahı təssəvvür etdiyimiz bütün şeylərdən üstün, pak və münəzzəh hesab etmək lazımdır. Bu, tövhidin əsl mənasıdır. Digər tərəfdən, əgər diqqət yetirsək, dünyada baş verən hadisələrin bəzən bizim üçün sirli və naməlum olduğunu müşahidə edərik. İlahi ədalətə nəzər saldıqda isə, bütün hadisələrin müəyyən qanun və hesab əsasında həyata keçdiyinin fərqinə varmaq olar. Bu zəmində mənfi düşüncəyə malik olmaq ilahi ədalət, hikmət və imanla bir araya sığmır. Sirrini dərk edə bilməsək də, Allahın bütün işi hikmət və ədalət əsasındadır.

*1. "Nəhcül-bəlağə".*

# 44

## İMANIN ƏLAMƏTLƏRİ

*İmam Sadiq (ə) buyurmuşdur:*

الـمُؤْمِنُ حَسَنُ الْمَعُونَةِ، خَفِيفُ الْمَؤُونَةِ، جَيِّدُ التَّدْبِيرِ لِمَعِيشَتِهِ، لَا يُلْسَعُ مِن جُحْرٍ مَرَّتَيْنِ

***"Möminin yardımı dəyərli, xərci az, yaşayışı isə tədbirlidir və heç vaxt o, bir dəlikdən iki dəfə keçməz (yəni, bir məsələdə iki dəfə qəflətə düşməz)."[1]***

### Qısa izah

İman ictimai, əxlaqi və elmi əlamət və xüsusiyyətlərə malikdir və onlarsız quru addan başqa, bir şey deyildir. Xatırlanan hədisdə imanın dörd əlamətinə işarə edilmişdir:

1. İmanlı şəxslər öz mömin qardaşlarına lazımı şəkildə yardım edirlər və onların köməyi mərhəmət, ixlas və agahlıqla yanaşıdır.
2. Onlar ələ gətirilməsi üçün istənilən nalayiq əməllərə mürtəkib olmağı tələb edən cah-cəlal və bər-bəzəkli yaşayış malik deyillər.
3. Belə şəxslər məişət məsələlərində, xüsusilə də, iqtisadi işlərlə bağlı olduqca ayıq-sayıq və tədbirlidirlər.
4. Onlar hər bir hadisədən dərhal ibrət dərsi alır və bu səbəbdən, heç vaxt eyni nahiyədən iki dəfə zərbə almırlar.

*1. "Səfinətul-bihar", c. 1, səh. 148.*

# 45

## DÜNYA HƏDƏF DEYİL, VASİTƏDİR

*Həzrət Əli (ə) buyurmuşdur:*

الدُّنْيَا خُلِقَتْ لِغَيْرِهَا وَ لَمْ تُخْلَقْ لِنَفْسِهَا

***"Dünya özü üçün deyil, başqa bir hədəf üçün yaradılmışdır."[1]***

### Qısa izah

Dünya və onda mövcud olan əşyaların mədhi barəsində nəql olunan bir qisim rəvayət və ayələrin təfsirində bir tərəfdən dünya insanlara Allah övliyalarının əkin yeri və yaxud ticarət evi kimi tanıtdırılmış, digər tərəfdən isə qeyd etdiyimiz ayə və rəvayətlər müqabilində dünya bəzi ayələrdə məzəmmət edilmiş və onun bir qisim insanlar üçün təhlükəli və aldadıcı amil olduğu vurğulanmışdır. Həqiqətən, xatırladılan hədislərdə yuxarıda qeyd edilən məsələlər aşkar şəkildə təfsir edilərək bildirilmişdir ki, dünya və onun maddi nemətləri insanların əbədi səadət və xoşbəxtliyi, həmçinin, onların ədalət və kamilliyinə xidmət edərsə, dəyərli və diqqətəlayiq hesab olunur. Əks təqdirdə, insanların tüğyan, qürur və nəfsani istəklərinin təmin olunmasına yönələrsə, bu zaman nifrətə səbəb olacaq və məzəmmət ediləcəkdir.

*1. "Nəhcül-bəlağə".*

# 46

## İNSANIN DƏYƏRİ

*Həzrət Əli (ə) buyurmuşdur:*

اِنَّهُ لَيْسَ لِأَنْفُسِكُمْ ثَمَنٌ اِلَّا الْجَنَّةَ فَلَا تَبِيعُوهَا اِلَّا بِهَا

***"Bilin ki, sizin varlığınızın dəyəri cənnət və əbədi səadətə çatmaqladır. Belə isə, özünüzü bundan başqa, digər bir qiymətə satmayın!"[1]***

### Qısa izah

Hansısa bir şəxsdən "öz varlığını hansı qiymət müqabilində müamilə edirsən?" – deyə soruşulsa, aydın məsələdir ki, vücudu qarşılığında müəyyən bir qiymət söyləyə bilməz. Amma həqiqətdə, insan ona əta edilən belə dəyərli bir həyat sərmayəsini hər gün ucuz qiymətə satmaqla hədər etməkdədir. Bəzən həmin insanlar ömürlərinin sonunda bu böyük sərmayəni bir ev, maşın və ya bir malikanə ilə dəyişdiyinin və tezliklə ondan ayrılmalı olacağının fərqinə varırlar. Həzrət Əli (ə) dünyanın maddi nemətlərinin insana verilən ömür sərmayəsi müqabilində müqayisə edilməz olduğunu bildirir. Onun yeganə dəyəri Allahın razılığı, əbədi səadət və kamillik yolunda səy və təlaş etməkdir və bu sahədə edilən bütün fədakarlıq əhəmiyyətə malikdir.

---

*1. "Nəhcül-bəlağə".*

# 47

## HAQQ VƏ BATİL

*Həzrət Əli (ə) buyurmuşdur:*

إِنَّ الْحَقَّ ثَقِيلٌ مَرِيءٌ وَ إِنَّ الْبَاطِلَ خَفِيفٌ وَبِيءٌ

***"Haqq çətin və məşəqqətli, eyni zamanda, şəffaf, batil isə asan və yüngül, həmçinin, təhlükəlidir."*[1]**

### Qısa izah

Əmirəl-Möminin Əlinin (ə) haqq və batil barəsində buyurduğu bu qısa hədis barəsində təfəkkür etmək yerinə düşərdi. Adətən, haqq acı və onu qəbul etmək isə bir qədər ağırdır. Bununla yanaşı, onun aşkar və bilinən olması, eyni zamanda, bütün cəmiyyəti əhatə edəcəyi məlumdur. Haqdan fərqli olaraq, şeytanın batil məsələləri şirin və ləziz cilvələndirməsi və insanın gözündə onu gözəl göstərməsinə baxmayaraq, o, öldürücü təsirə malik xörəklər kimidir. Yəni, zəhərli məmulatlardan istifadə edildikdə, insanın qəlb və bədən üzvlərini fəaliyyətdən saxlayaraq məhv etdiyi kimi, cəmiyyətdə də batil öz zərərli təsirlərini qoyaraq onun parçalanmasına gətirib çıxarır. Bu cür nəticələrlə üzləşməmək üçün insanın haqqın acılığını dadaraq batilin şirinlyindən pəhriz etməsi daha yaxşı olar.

---

*1. "Biharul-ənvar", c. 67, səh. 107.*

# 48

## ƏRƏBİN ƏN QİYMƏTLİ SÖZÜ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

أَصْدَقُ كَلِمَةٍ قَالَتْهَا الْعَرَبُ كَلِمَةُ لُبَيْدٍ، حَيْثُ قَالَ: أَلاَ كُلُّ شَيْءٍ مَا سِوَي اللهِ بَاطِلُ وَ كُلُّ نَعِيمٍ لاَ مَحَالَةَ زَائِلُ

***"Ərəb milləti içərisində deyilən ən düzgün və ən anlamlı sözlər (məşhur ərəb şairi) Lubəydin söylədiyi sözlərdir. O, belə deyir:***

***"Bilin ki, Allahdan başqa, hər bir şey batildir və sonda bütün nemətlər əldən çıxacaqdır."***"[1]

### Qısa izah

Hər bir nemət, məqam və sərvətin fənaya uğramasına diqqət insana onları ələdə etməklə bağlı haqq və ədalətə riayət etməyin zəruri olduğunu xatırladır və həmin məsələlərdə orta həddi gözləməyi önərir.

Əbədiyyət və daimən var olmaq Allahın əzəmət sifətlərindəndir və o, fəna və zavala uğramaqdan pak və münəzzəhdir. .

Həyatda qarşıya çıxan bir sıra məsələlərlə bağlı insan xatırladılan xüsusiyyətləri nəzərə alaraq qürur və təkəbbürdən uzaq olmağa çalışmalıdır.

*1. "Misbahül-şəriə", səh. 60.*

# 49

## MƏN ONLARDAN UZAĞAM

*İmam Rza (ə) buyurmuşdur:*

لَيْسَ مِنَّا مَنْ غَشَّ مُسْلِماً أَوْ ضَرَّهُ أَوْ مَاكَرَهُ

***"Müsəlmanı aldadan, ona zərər yetirən və ona qarşı hiylə işlədən kəslər bizdən deyildir!"[1]***

### Qısa izah

Öz mənfəətini başqalarının zərəri və öz xoşbəxtliyini də digərlərinin bədbəxtliyində görən şəxslər nə həqiqi bir müsəlman, nə də həqiqi bir insan hesab edilmirlər.

İnsan ictimai şəxsiyyətə malik olmaq baxımından digər canlılardan fərqlənir. Mənfəət və xeyrini başqalarının zərərində axtaran kəslər öz ictimai şəxsiyyətini əldən verərək cəmiyyətdə hansısa bir mövqeyə sahib olmayan və mədəni keyfiyyətlərdən yararlana bilməyən insanlardır. Zərər vurmaq bəzən aşkar, bəzən isə məxfi şəkildə həyata keçirilir. İslam dinində hər cür fırıldaqçılıq və hiyləgərlik bütövlükdə bəyəninlməyən sifətlərdən hesab olunur və qadağandır.

İmam Əliyyibni Musər-Rza (ə) buyurur ki, mən insanlara zərər yetirən və hiylə işlədərək onları aldadan kəslərdən tamamilə uzağam.

---

*1. "Səfinətul-bihar", c. 6, səh. 464.*

# 50

## ACİZLƏRİN UĞURSUZ TƏLAŞI

*İmam Əli (ə) buyurmuşdur:*

اَلْغِيْبَةُ جُهْدُ الْعَاجِزِ

***"Qeybət etmək aciz və zəif insanların sonuncu təlaşıdır."[1]***

### Qısa izah

Qeybət rəzillik və nanəciblik kimi sifətlərə malik və böyük günahlar sırasındadır. İnsanların arxasınca töhmət vuraraq eyiblərini açan və sirlərini faş edən kəslər bu yolla öz həsəd və kinlərini yatışdırırlar. Belə sifətlərə sahib olanlar çoxluq təşkil edir. Əxlaqi baxımdan qeybət kimi rəzilə xüsusiyyətlərə adət edən fərdlərin şəxsiyyəti cılız, atdıqları bu addım qeyri-adilanə və məntiqsizdir, hətta, onlar apardıqları mübarizədə də şücaətə malik deyillər.

Sadalanan xislətli insanlar bütün qüvvələri ilə digərlərinə arxadan zərbə vurmaq fikrindədirlər. Hədislərdə qeybət edən kəslər cənnətə daxil olan sonuncu, tövbə etmədikləri təqdirdə isə, cəhənnəmə atılacaq ilkin.şəxslər olacaqlar.[2]

---

*1. "Nəhcül-bəlağə".*
*2. "Biharul-ənvar", c. 72, səh. 222.*

# 51

## ZALIMLARIN NİŞANƏLƏRİ

*Həzrət Əli (ə) buyurmuşdur:*

لِلظَّالِمِ مِنَ الرِّجَالِ ثَلَاثُ عَلامَاتٍ: يَظْلِمُ مَنْ فَوْقَهُ بِالْمَعْصِيَةِ وَ مَنْ دُوْنَهُ بِالْغَلَبَةِ وَ يُظَاهِرُ الْقَوْمَ الظَّلَمَةَ

***"Zalımların üç əlaməti vardır: "Səviyyə baxımından özündən üstün şəxslərlə müxalifətçilik edib tabe olmamaqla zülm etmək. Tabeçiliyində olanlara nisbətdə qüdrət və zorla hakim kəsilərək sitəm və zalımlarla həmkarlıq etmək."[1]***

### Qısa izah

Qəddarlıq və zülmkarlıq ruhiyyəsi düşüncəsinə qalib gələrək onu öz xoşağəlməz təsirinə salan kəslərdə bu xüsusiyyət bütün hallarda özünü büruzə verdəcəkdir – onlar tabe olduqları yüksək məqamlı şəxslərlə müxalifət edərək göstərişlərnə boyun əyməyəcək, öz tabeçiliyindəkilərə isə qüdrətə malik olduğu üçün zülm edəcək, eyni zamanda, onunla həmfikir, münasib və uyğun dostları da zalımların arasından seçəcəkdir. Zalım olmasına baxmayaraq, həmin şəxsin zülümkarlığı müxtəlif hallarda özünü həmin vəziyyətə uyğun xüsusiyyətlərlə büruzə verir.

*1. "Nəhcül-bəlağə".*

# 52

## HƏR BIR DƏRDIN DƏRMANI VAR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

مَا اَنْزَلَ اللهُ مِنْ دَاءٍ إِلَّا اَنْزَلَ لَهُ شِفَاءً

***"Allah-taala heç bir dərdi dərmansız yaratmamışdır."*[1]**

Qısa izah

Müasir dünyada insanın sağlamıq və cisminə zərər vura bilən mənfi amillər çoxluq təşkil edir. Bununla yanaşı, qoruyucu və müsbət amillər də olmamış deyil və insan onlardan yararlanmağa çalışmalıdır. Qeyd edək ki, bəşəriyyətin davamı belə müsbət yüklü amillərin mövcudluğu sayəsində baş tutur. Sadəcə cismani xəstəliklər deyil, cəmiyyəti öz əhatəsinə almış problemlərin də həlli yeri gəldikcə aşkarlanır. Çətinlik və onların həlli yoluna bələd olmayan insanlar hansısa bir problemlə qarşılaşdıqda, özlərini çarəsiz hesab edirlər. Buna səbəb onların bütün dərdlərin dərmana malik olduğundan xəbərsiz olmasıdır. Həqiqətdə, insan çətinliklərin həlli üsullaını araşdırmalı və bu sahədə səbir və məntiqli olmalıdır.

---

*1. "Nəhcül-fəsahə", səh. 537, hədis, 2594.*

# 53

## NEMƏTLƏRİN ƏLDƏN ÇIXMASINA SƏBƏB

*İmam Baqir (ə) buyurmuşdur:*

إِنَّ اللهَ قَضَيٰ قَضَاءً حَتْمًا اَلَّا يُنْعِمَ عَلَي الْعَبْدِ بِنِعْمَةٍ فَيَسْلُبُهَا إِيَّاهُ حَتَّيٰ يُحْدِثَ الْعَبْدُ ذَنْبًا يَسْتَحِقُّ بِذٰلِكَ النَّقِمَةِ

***"Allah-taala bəndələrinə verdiyi nemətlərin onlardan geri alınmaması barədə qəti hökm etmişdir. Lakin insanlar günaha mürtəkib olmaqla verilən nemətlərin əldən çıxmasına səbəb olurlar."*[1]**

### Qısa izah

İlahi nemətlərin tükənməz olmasına baxmayaraq, onlar heç də haqq-hesabsız deyildir. Allah bəndələrə nə əbəs yerə nemət vermir, nə də səbəbsiz həmin nemətləri geri almır.

Əgər dünya əhalisi ilahi nemətlərdən düzgün şəkildə bəhrələnməyərək onları fəsad törətmək və zülm etmək üçün vəsilə kimi istifadə edərsə, bu zaman həmin nemətlər əllərindən alınaraq onların bədbəxtlik amilinə çevrilər və bəlalar nemətləri əvəz edər. Beləliklə, onların müasir sənaye və texnologiyaları məhv edilər, firavan şəkildə davam edən həyatları cəhənnəmə dönər və yaşadıqları cəmiyyət nifaq mənbəyinə çevrilər.

*1. "Üsuli-kafi", c. 2, səh. 273.*

# 54

## PAK İNSANLAR ŞƏHİDLƏR ZÜMRƏSİNDƏDİRLƏR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِذَا مُتَّ عَلَي طَهَارَةٍ تَكُونُ شَهِيْدًا

***“Əgər pak halda dünyadan gedərsənsə, şəhidlər sırasında olacaqsan!”*[1]**

### Qısa izah

Qeyd edilən hədisdə İslam Peyğəmbəri (ə)) Ənəs adlı səhabəsindən birinə belə buyurur:

“İmkan daxilində gecə və gündüz təharətli və dəstəmazlı ol! Əgər bu halda dünyadan gedərsənsə, şəhid məqamında olacaqsan!”

Hədisin zahirdə dəstəmaz və təharətli olmaqla bağlı qeyd edilməsinə baxmayaraq, həqiqətdə o, insanın hayatda pak yaşamalı olması və belə halda da dünyadan köçməsi kimi bir məsələyə işarə edir.

Qəlb, həyat və düşüncələrini günaha aludə etmədən ömür sürən və bu halda dünyadan köçən şəxslər, şübhəsiz, şəhidlər sırasında olacaqlar.

Nəzərinizə çatdırırırıq ki, şəhidlik məqamı sadəcə döyüş meydanında mübarizə apararaq əldə olunmur. Əhli-beytdən (ə) nəql edilən digər hədislərdə də qeyd etdiklərimizə işarə olunmuşdur.

---

*1. “Səfinətul-bihar”, c. 4, səh. 514.*

# 55

## FƏDAKAR AŞİQLƏR

*İmam Baqir (ə) buyurmuşdur:*

إِنَّ أَصْحَابَ جَدِّيَ الْحُسَيْنِ لَمْ يَجِدُوا أَلَمَ مَسِّ الْحَدِيدِ

***"Cəddim Hüseynin (ə) fədakar dostları düşmənin nizə və qılınc zərbələri müqabilində ağrı hiss etmirdilər."[1]***

### Qısa izah

Müəyyən bir hədəflə bağlı insan eşq – özü də yandırıcı bir eşq – mərhələsinə yetişdikdə, onun bütün düşüncə və hissləri həmin nöqtədə təmərküzləşər və bu yolda qarşıya çıxan bir sıra çətinlikərə səbr edər, hətta, bəzən heç bir narahatçılığın fərqinə varmaz. Misal olaraq deyə bilərik ki, Misir qadınları zahirdə aldadıcı və tez ötüb-keçən bir sevda eşqilə həzrət Yusifin (ə) camalına tamaşa etdikləri zaman, əllərindəki meyvəni soymaq yerinə xəbərsiz olaraq bıçaqla öz barmaqlarını yaraladılar və hətta, bunu hiss etmədilər də.

Allah yolunun qərarsız aşiqləri, həmçinin fəzilət və haqq yolunda şəhid olanların düşmənin dözülməz işgəncələrinə səbr etməsi və bu sahədə bütün əziyyətlərə qatlaşması heç də təəccüblü deyildir. Bunun üçün ilk öncə insanın aşiq olması gərəkir və onun nəticəsi dözüm və fədakarlıqdır.

---

*1. "Biharul-ənvar", c. 45, səh. 80.*

# 56

## AĞILLI VƏ NADAN

*Həzrət Əli (ə) buyurmuşdur:*

أَلْعَاقِلُ يَعْتَمِدُ عَلَيٰ عَمَلِهِ وَ الْجَاهِلُ يَعْتَمِدُ عَلَيٰ أَمَلِهِ

***“Nadan insan öz arzuları, ağıllı insan isə öz təlaş və əməlinə arxalanır.”[1]***

### Qısa izah

Ağıllı və uzaqgörən insanlar sözün əsl mənasında həqiqət axtarışında olan və yaxşı insanlardır. Bu səbəbdən, onlar ali hədəfləri həmişə kənarda axtarır və ona çatmaq üçün hədsiz səy və təlaş edirlər. Onlar zəhmətsiz və çalışmadan belə hədəflərə çatmağın qeyri-mümkünlüyünü daha yaxşı anlayırlar.

Əql sahibləri öz iradələrini  bu məqsədə doğru yönləndirirlər. Amma nadan və cahil şəxslər arzu dəryasına qərq olaraq, əldə etmək istədiklərini xəyallar aləmində axtarırlar. Çünki xəyal qurmaq insandan o qədər də zəhmət və təlaş tələb etmir. Xoşagəlməz meyil və istəklərə sahib olmaq onların bütün hədəflərində özünü büruzə verir. Bu tipli fərdlər bir zaman öz xəyallarının reallığa çevriləcəyi ümidilə yaşayır və bu səbəbdən şad və rahatdırlar. Eyni zamanda, həyatda arzu və xəyallardan başqa, nəyəsə arxalanmırlar və bu aqil və nadan insanları bir-birindən fərqləndirən xüsusiyyətdir.

---

*1. “Ğurərul-hikəm”, c. 1, səh. 324, hədis, 1240.*

# 57

## HƏQİQİ DİNDARLAR AZDIR

*İmam Hüseyn (ə) buyurmuşdur:*

أَلنَّاسُ عَبِيدُ الدُّنْيَا وَ الدِّينُ لَعِقٌ عَلَيٰ أَلْسِنَتِهِمْ يَحُوطُونَهُ مٰا دَرَّتْ بِهِ مَعَايِشُهُمْ فَإِذَا مُحِّصُوا بِالْبَلَاءِ قَلَّ الدَّيانُونَ

***"Camaatın çoxu dünyanın qullarıdır və din yalnız onların dillərindədir. Din sayəsində nə qədər ki, onların həyat və işləri qaydasında gedir, onu himayə edirlər. Amma çətin hadisələrlə imtahan olunduqları zaman dindar olaraq qalanlar çox azdır."[1]***

### Qısa izah

İslam dini kimi cəmiyyət və insanların mənafeyinin həqiqi hami və qoruyucusu olan bir din bəzən bir sıra fərdlərin şəxsi mənfəəti ilə bağlı maneə hesab olunaraq insanda təəccüb doğurur. Camaatın əksəriyyəti din onların şəxsi mənafe və istəklərinə cavab verdiyi və himayə etdiyi müddətə qədər ona bağlı və sadiq qalır, lakin "dini, yoxsa, şəxsi mənfəəti seçmək" kimi iki yol ayrıcında mövqe tutduqları zaman, həqiqi dindarlar din iddiasında olanlardan ayrılır.

Beləliklə, onlar Quranda buyurulanlara uyğun olaraq, ilahi göstərişlərin bəzilərini qəbul, bəzilərini isə rədd edirlər. [2] Reallıqda həqiqi dindarlar dini şəxsi mənafe və

*1. "Biharul-ənvar", c. 44, səh. 383;*
*2. "Nisa" surəsi, ayə 150.*

arzuları üçün deyil, həyati hədəflərini təşkil etdiyi üçün qəbul edərək ona vəfadar olurlar.

# 58

## ÖVLADLARINIZ ARASINDA ƏDALƏTƏ RİAYƏT EDİN

*İslam Peyğəmbəri (s) buyurur:*

إِعْدِلُوا بَيْنَ أَوْلاَدِكُمْ كَمَا تُحِبُّونَ أَنْ يَعْدِلُوا بَيْنَكُمْ

***"Övladlarınızın sizinlə ədalətlə rəftar etməsini istəyirsinizsə, siz də onlar arasında ədalətə riayət edin."*** [1]

**Qısa izah:**

Övladlar arasında ayrı-seçkilik salmaq böyük səhvlərdən biridir. Bəzi insanlar öz ilkin və böyük övladını, bəziləri isə kiçik övladını üstüntutur. Bəzən isə valideynlər ifrata vararaq hər şeylərini, misal üçün, bütün sərvətlərini bağışlamaqla övladlardan yalnız birinin ixtiyarında qoyur, lakin digər övladlarını isə bu irsdən məhrum edirlər.

Belə bir rəftar övladların qəlbində kin və həsəd atəşini alovlandırır. Həmçinin, onların gələcəkdə bir-birlərinə qarşı düşmən olması, ata və analarına qarşı isə kin bəsləmələrinə şərait yaradır. Hətta onlarda cəmiyyətə qarşı qisasalma fikri meydana gəlir. Təcrübə bu həqiqəti dəfələrlə sübuta yetirmişdir ki, övladlar arasında ayrı-seçkili salmaq nifrət və kinələrin yaranmasına səbəb olmuşdur. Bu isə ailələrin tez bir zamanda dağılmasına əyani sübutdur.

---

*1. "Biharul-ənvar", c. 101, səh. 92.*

# 59

## DAİM NƏZARƏT ALTINDASAN

*İmam Cavad (ə) buyurmuşdur:*

إِعْلَمْ أَنَّكَ لَنْ تَخْلُو مِنْ عَيْنِ اللهِ فَانْظُرْ كَيْفَ تَكُونُ

***"Allahın nəzərindən kənarda olmadığını bil və rəftarına diqqət et!"*[1]**

### Qısa izah

Allaha imanlı olmağın ilk səmərəsi onun daim hər şeydən agah olan Allah tərəfindən nəzarətdə saxlanıldığını bilməsi və bu minvalla, öz əməl və rəftarını kamilləşdirmək üçün səy etməsidir.

İnsan təkcə Allah tərəfindən deyil, onun bizim üçün təyin etdiyi mələklər tərəfindən də müşahidə edildiyini unutmamalıdır. İman dərəcəsi yüksəldikcə, qeyd edilən məsələlərin hiss edilməsi artacaq və insan daim özünü Allahın hüzurunda biləcəkdir.

Məsələyə bu prizmadan yanaşdıqda, onun cəmiyyətin islah edilməsində mühüm bir amil funksiyasını daşıdığı məlum olur.

Bəli! Aləm Allahın məhzəridir. Onun hüzurunda günah etməməyə çalışmaq lazımdır.

---

*1. "Tuhəful-uqul", səh. 339.*

# 60

## NƏ HƏSƏD, NƏ DƏ YALTAQLIQ ET

*Həzrət Əli (ə) buyurmuşdur:*

أَلثَّنَاءُ بِأَكْثَرَ مِنَ الْإِسْتِحْقَاقِ مَلَقٌ وَ التَّقْصِيرُ عَنِ الْإِسْتِحْقَاقِ عِيٌّ أَوْ حَسَدٌ

***"Hansısa bir şəxsi layiq olduğundan daha artıq tərif və mədh etmək yaltaqlıq, layiq olduğundan az tərif etmək isə bacarıqsızlıq və ya həsəd aparmaqdır."[1]***

### Qısa izah

Bacarıqlı və tərifəlayiq insanları bəyənilən əməl və rəftarlar səbəbilə tərifləyərək öymək və onlara minnətdar olmaq, eyni zamanda, qarşıya qoyduqları məqsəd və hədəflərə çatması üçün təşfiq etmək lazımdır. Bu məsələdə tərəf müqabilinin ləyaqət və səviyyəsi nəzərə alınmalıdır, əks təqdirdə, tutduğumuz mövqe acınacaqlı halların yaranması ilə nəticələnəcəkdir. Fərdlərin tərif və mədhi layiq olduqlarından artıq edilərsə, yaltaqlıq sayılar və tərif deyənin şəxsiyyətini alçaltmaqla yanaşı, qarşı tərəfi təkkəbbürlü olmağa sövq edər . Tənbeh edilməsi gərəkdiyi halda yersiz tərif etmək təriflənən şəxsi öz səhvlərini düzəlmək imkanından məhrum edir. Əksinə, layiq olduğundan az mədh edilən bacarıqlı insanlarda bu məsələ onların laqeyd və soyuqqanlı olmasına şərait yaradaraq fitrətindəki maraq və şövqü aradan qaldırır və tərif edənlərin həsəd və paxıllıq

1. *"Nəhcül-bəlağə".*

etdiyini, həmçinin zəifliklərini üzə çıxarır. İnsanlar həmişə orta həddi gözləməyə və digərlərinə zərər vurmamağa çalışmalıdırlar.

# 61

## QARDAŞLARININ QULLUĞUNDA DUR

*İmam Sadiq (ə) buyurmuşdur:*

مَنْ كَانَ فِي حَاجَةِ أَخِيهِ الْمُسْلِمِ كَانَ اللهُ فِي حَاجَتِهِ

***"Öz din qardaşının ehtiyac və istəklərinin ödənməsi üçün səy edən kəslərə Allah onların hacətlərinin qəbul edilməsində yardımçı olar."[1]***

### Qısa izah

Bir qayda olaraq, insanlar başqalarına yardım etdikləri təqdirdə, öz yaşayışındakı tərəqqidən qalacaqlarını güman edirlər. Amma İslamın bu sahədəki nəzəri tamamilə fərqlidir.

İmam Sadiq (ə) yuxarıda qeyd olunan hədisdə belə buyurur: "Sən camaatın ehtiyaclarının ödənməsi və onların problemlərinin həllində onlara yardım et ki, qüdrəti bütün qüdrətlərin fövqündə olan Allah da sənin ehtiyacının ödənməsində sənə yardım etsin."

Müəllif başqalarına yardım edən insanların çətinliklərinin .ilahi mərhəmət olaraq qeyri-adi halda aradan qaldırıldığını qeyd edir.

Belə insanlar ilahi lütfün onların halına şamil olması üçün lazımı şərtlərə malikdirlər və Allah da onlara xüsusi şəkildə nəzər yetirir. Səbəb isə aydındır: "Sən Allahın bəndələrinə yardım et, Allah da sənə yardım etsin."

*1. "Biharul-ənvar", c. 74, səh. 286.*

# 62

## ÖZ KEÇMİŞİNƏ TƏƏSSÜFLƏNMƏ

*İmam Əli (ə) buyurmuşdur:*

لا تُشْعِرْ قَلْبَكَ الْهَمَّ عَلَىٰ مَا فَاتَ فَيَشْغَلَكَ عَمَّا هُوَ آتٍ

***"Öz qəlbini keçmişin qəm-qüssəsi ilə məşğul etmə ki, gələcək üçün tədarük görməkdən geri qalarsan!"[1]***

**Qısa izah**

İxtiyarındakı fürsət və imkanlardan lazımınca istifadə edərək səhv və xətaya yol verməyən insanlar həddindən azdır. Bu baxımdan insanlar iki qrupa bölünür:

Birinci qrupdan olanlar keçmişdə etdikləri səhvlərə görə ifrat dərəcədə təəssüflənməklə vaxtlarını hədər edir və əllərindəki fürsətlərin tələf olunmasına səbəb olurlar.

İkinci qrupdan olan insanlar isə keçmişdəki məsələlərin bitərək geridə qaldığını anlayır və etdikləri yanlışlardan gələcəkdə ibrət almaq üçün istifadə edirlər. Belə düşünən insanlar fürsətləri qənimət bilərək var qüvvəsi ilə bu gün və gələcək üçün çalışırlar.

Həzrət Əlinin (ə) yuxarıdakı hədisdə buyurduqlarına uyğun olaraq, qələbə də bu dəstədən olan insanlara şamildir.

Ərəb şairi deyir: "Keçmiş ötüb, uzaq gələcək isə səndən uzaqdadır. Ayağa qalx və bu günü qənimət bil!"

---

*1. "Ğurərul-hikəm", c. 6, səh. 345.*

# 63

## İSLAM DÜNYA DİNİNƏ ÇEVRİLƏCƏK

*İslam Peyğəmbəri (s) buyurur:*

لا يَبْقَي عَلَي ظَهْرِ الْأَرْضِ بَيْتُ مَدَرٍ وَ لا وَبَرٍ إِلاّ أَدْخَلَهُ اللهُ كَلِمَةَ الْإِسْلامِ

***"Yer üzərində elə bir ev, hətta yun parçadan olan çadırlar və gildən olan evlər qalmayacaq ki, Allah-taala İslam dinini ora daxil etməsin."*[1]**

**Qısa izah:**

Dünyanın iki yol ayrıcında olması günbəgün bu həqiqəti bir daha üzə çıxarır ki, ya İslam dini qəbul edilməli, ya da digər dinlər aradan getməlidir.

Belə ki, dinsizlik insanın fitrət və təbiətinin əksinə olduğu üçün o, sonra İslama doğru üz gətirəcəkdir. Hal-hazırda İslam dini öz gözəlliyi ilə dünyanın müxtəlif yerlərində insanları özünə cəlb etməklə onları əhatə etmişdir. Hətta Amerikada belə bu din hal-hazırda yayılmağa davam edir.

Əlbəttə, qeyd etmək lazımdır ki, bu mövzu özünün təkamül zirvəsinə həzrət Mehdinin (ə.c) zühuru dövründə çatacaqdır. O gündə şirk və bütpərəstliyin kökü kəsiləcək və İslam dini yer üzünün hər bir nöqtəsini əhatə edəcəkdir. Həmçinin, İslam Peyğəmbərinin (s) yuxarıda qeyd olan hədisdə bəşarət verdiyi məsələ öz həqiqətini tapacaqdır.

---

*1. "Məcməul-bəyan", c. 5, səh. 25.*

# 64

## HEÇ BİR GÜNAHI KİÇİK SAYMAYIN

*İmam Həsən Əsgəri (ə) buyurmuşdur:*

مِنَ الذُّنُوبِ الَّتِي لا تُغْفَرُ: لَيْتَنِي لا أُؤَاخَذُ إِلاَّ بِهٰذَا

***“Günahlar içində bağışlanmayan günah insanın “Ey kaş, mənim günahım elə bu olaydı!” – deməsidir. ”[1]***

### Qısa izah

Kiçik günahlar müəyyən səbəblərdən böyük günahlara çevrilirlər.. Günahları kiçik hesab edərək əhəmiyyətsiz saymaq şeytanın ən təhlükəli vəsvəsələrindən biridir.

İnsanın böyük sayaraq şəkindiyi günahlar o qədər də təhlükəli deyildir. Çünki təqvalı insan həmişə özünü belə günahların toruna düşməkdən qorumağa çalışır. Lakin insan həmin günahı kiçik saydıqda, günaha nisbətdəki narahatlıq və qorxu aradan gedir və insan asanlıqla günaha aludə olur.

Mütəmadi olaraq günaha mürtəkib olmaq kiçik günahların böyük günahlarla əvəz olunması üçün şərait yaradan amillərdəndir. Bu isə insanın həmişəlik səadət və xoşbəxtlikdən məhrum olmasına gətirib çıxarır.

Həqiqətdə, qeyd edilənləri nəzərə alsaq, bütün günahların böyük olduğunu anlayarıq, çünki Allahın qadağa qoyduğu qanunları pozmağın özü böyük günah sayılır.

---

*1. “Tühəful-uqul”, səh. 366.*

# 65

## ALİMİN ÜSTÜNLÜYÜ

*İmam Musa ibn Cəfər (ə) buyurmuşdur:*

فَضْلُ الْفَقِيهِ عَلَي الْعَابِدِ كَفَضْلِ الشَّمْسِ عَلَي الْكَواكِبِ

***“Alimin abidə nisbətdə olan üstünlüyü günəşin ulduzlara nisbətdəki üstünlüyü kimidir.”*[1]**

**Qısa izah**

Səmadakı ulduzlar parlaq və işıqlı olmalarına baxmayaraq, yollarımızı təyin etmək və aydınlatmaq üçün kifayət qədər nura malik deyillər.

Əksinə, günəşin parlaq şüaları yer kürəsindəki canlılara həyat bəxş etməklə yanaşı, uzaq yolları yaxın yollardan ayırmaqda insanlara yardımçı olur. Alimlə abidin fərqi günəşin digər parlaq səma cisimlərinə nisbətdəki fərqinə bənzəyir. Abid yalnız öz kilimini sudan çıxarmaq, alim isə batmaq üzrə olanlara nicat verməyə çalışır. Qeyd edək ki, günəş sistemində hərəkət edən bütün planetlər günəşin nurundan bəhrələndiyi kimi, alimin mövcudluğunun da abidin varlığına səbəb olduğunu söyləyə bilərik. Alim olmasa, abid də olmaz.

---

*1. “Tuhəful-uqul”, səh. 307.*

# 66

## VALİDEYN VƏ ÖVLADIN QARŞILIQLI HÜQUQLARI

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

يَلْزَمُ الْوَالِدَيْنِ مِنَ الْحُقُوقِ لِوَلَدِهِمَا مَا يَلْزَمُ الْوَلَدَ لَهُمَا مِنْ حُقُوقِهِمَا

***“Övladlar ata-ana hüquqları qarşısında məsuliyyətli olduğu kimi, valideynlər də övladlar qarşısında məsuliyyət daşıyırlar.”*[1]**

### Qısa izah

Dünyadakı bütün haqlar müqabilində hansısa bir vəzifə dayanır. Yəni, hər bir haqqın kənarında bir vəzifə mövcuddur və hüquqlar böyük olduqca, onun məsuliyyət və vəzifəsi də ağırlaşır.

Nəticədə, valideynləri övladları üzərində üstün haqlara malik olduqları kimi, onların qarşısında da ciddi məsuliyyət daşıyırlar.Övladların sağlam və tərbiyəvi mühitdə inkişafı və cəmiyyətə layiqli vətəndaşlar olması üçün valideynlər əllərindən gələni əsirgəməməlidirlər.

---

*1. “Mən la yəhzuruhul-fəqih,” c. 3, səh. 311.*

# 67

## MALINI İTAƏT YOLUNDA XƏRCLƏ Kİ, GÜNAHA GÖRƏ XƏRCƏ DÜŞMƏYƏSƏN

*İmam Kazim (ə) buyurmuşdur:*

إِيَّاكَ اَنْ تَمْنَعَ فِي طَاعَةِ اللهِ فَتُنْفِقَ مِثْلَيهِ فِي مَعْصِيَةِ اللهِ

***“Malını rəbbinə itaət etmək uğrunda deyil, günah və məsiyyət yolunda xərcləməkdən çəkinərək pəhriz et.”[1]***

### Qısa izah

İnsanların əksəriyyəti öz sağlamlarını xəstəliklər müqabilində qorumaq baxımından ciddi və çox tədbirlidir və həmin səbəbdən, pullarını, adətən, dərman preparatlarına xərcləyirlər. Bəzi insanlar isə əksinə, lazımı yerlərə pul xərcləməkdən boyun qaçıraraq böyük zərərlərlə üzləşirlər. Məhşur bir məsəldə deyildiyi kimi “paxıl iki dəfə xərcə düşər” ifadəsi belə insanların halına şamildir. Misal üçün, əgər hansısa bir valideyn övladın tərbiyə və sağlam inkişafı baxımından ona yetəri qədər diqqət və qayğı göstərməzsə, gələcəkdə həmin övladın pis vərdişləri, törətdiyi fəsad və s. əməllərinə adət etməli olacaq.

Cəmiyyətin zəif və ehtiyaclı təbəqəsinin tələbatını ödəməkdə mal və pullarını əsirgəyən sərvətli şəxslər gələcəkdə onları gözləyə biləcək təhlükələrlə üzləşmək və onun acı nəticələrini dadmağa hazırlaşmalıdırlar..

*1. “Tuhəful-uqul”, səh. 305.*

# 68

## ƏN BÖYÜK TİCARƏT BAZARI

*İmam Hadi (ə) buyurmuşdur:*

أَلدُّنْيا سُوْقٌ رَبِحَ فِيها قَوْمٌ وَ خَسِرَ آخَرُونَ

***"Dünya bir dəstənin onda qazanc əldə etdiyi, digərinin isə zərərə uğradığı bazardır."*[1]**

### Qısa izah

Dünya insanların əbədi qalacağı yer və məskən deyil. Əksinə, dünya insanın ona əta edilən ömür sərmayəsi, əql, düşüncə və s. kimi nemətləri sərf edərək axirət və əbədi səadəti qazanması üçün mənfəətli bazardır. Uzaqgörən, ayıq və əql sahibi insanlar dünyanın faydasını çox yaxşı anlayırlar. Bu baxımdan, həmin insanlar daim fəaliyyət göstərir, özləri və yaşadıqları cəmiyyətin səadət və gələcəyi uğrunda dayanmadan səy və təlaş edirlər. Nəticədə, insanlar ona verilən bütün nemətlərdən səmərəli şəkildə istifadə etməli və onları tələf edərək dünyadan əbədi axirət evinə əliboş köçməməlidir.

*1. "Tuhəful-uqul", səh. 362.*

# 69

## MƏQAM ETİBARİLƏ İNSANLARIN ƏN ÜSTÜNÜ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِنَّ أَعْظَمَ النَّاسِ مَنْزِلَةً عِنْدَ اللهِ يَوْمَ الْقِيَامَةِ أَمْشَاهُمْ فِي أَرْضِهِ بِالنَّصِيحَةِ لِخَلْقِهِ

***"Qiyamət günü Allah dərgahında məqam baxımından insanların ən üstün olanı onun bəndələrinə daha çox xeyirxahlıq edənlərdir."[1]***

**Qısa izah**

İnsanlara xidmət İslamın nəzərində ən üstün ibadətlərdən hesab edilir. Öz mənfəət və xeyirini digər insanların mənafeyi ilə bir tutan insanlar Allahın bəndələrinə xidmət etməyi bacaranlardır. Yəni, belə insanlar öz mənafeyi üçün necə qayğı göstərirsə, digərləri üçün də eynilə o cür fəaliyyət göstərirlər. Ehtiyaclı olanların qiyabı və hüzurunda onlara yardım etməli və bu sahədə hansısa bir köməyi onlardan əsirgəməməliyik. Allah yanında məqamca ən üstün şəxslər onun bəndələrinə daha çox yaxşılıq edənlərdir.

*1. "Kafi", c. 2, səh. 208.*

# 70

## ÜÇ MÜHÜM İCTİMAİ MƏSƏLƏ

*İmam Sadiq (ə) buyurmuşdur:*

النَّاسُ سَوَاءٌ كَأَسْنَانِ الْمُشْطِ وَ الْمَرْءُ كَثِيرٌ بِأَخِيهِ وَ لَا خَيْرَ فِي صُحْبَةِ مَن لَمْ يَرَ لَكَ مِثْلَ الَّذِي يَرَىٰ لِنَفْسِهِ

***"İctimai hüquqlar baxımından, insanlar darağın dişləri kimi bir-biri ilə bərabərdirlər. Din qardaşlarına sahib olmaqla bir fərd böyük bir cəmiyyəti təşkil edir və insanın digərlərini düşünmədən sadəcə öz mənfəətini güdən şəxslərlə münasibət qurması rəva deyil."***[1]

### Qısa izah

Əhəmiyyət daşıyan üç əsas ictimai məsələ yuxarıda qeyd edilən hədisdə belə bəyan edilir:

Birincisi, bütün insanların irq, dil və sinfindən asılı olmayaraq ictimai hüquqlarda müsavi olması.

İkincisi, cəmiyyətin fərd və fərdin də cəmiyyətlə qarşılıqlı bağlılığı.

Üçüncü, öz xeyir və mənfəəti ilə yanaşı digər insanların da mənafelərinə dostluq və yoldaşlıq şərti əsasında ehtiram etməyin vacibliyi.

Cəmiyyətə sadalanan üç prinsip hakim kəsilməzsə, həmin cəmiyyəti nə islami, nə də insani bir cəmiyyət hesab etmək olmaz. Belə cəmiyyətdə yaşayan insanlar eyni mühitdə yaşayaraq bir-birinə maneçilik törədənlərə bənzəyirlər.

*1. "Tuhəful-uqul", səh. 274.*

# 71

## QƏZƏB VƏ TƏLƏSKƏNLİK

*Həzrət Əli (ə) buyurmuşdur:*

الحِدَّةُ نَوْعٌ مِنَ الجُنُونِ لِأَنَّ صَاحِبَهَا يَنْدَمُ فَإِنْ لَمْ يَنْدَمْ فَجُنُونُهَا مُسْتَحْكَمٌ

***"Qəzəb və tələskənlik bir növ dəlilikdir. Çünki bu sifətin sahibi tez bir zamanda tutduğu işdən peşman olur və əgər peşman olmazsa, bu, həmin şəxsin divanəliyinin şiddətli və sabit qalmasına dəlalət edir."*** [1]

### Qısa izah

Əql və düşüncə insana verilən fürsətlərdən səmərəli istifadə etməklə yanaşı, onun yersiz tələskənlik və qəzəbdən çəkinməli olduğunu da aşılayır. çəkindirməyi tələb edir. Çünki belə hallarda insan düzgün şəkildə mühakimə edə və məsələnin həqiqətinə vara bilmir və daha sonra atdığı yersiz addım və qəbul etdiyi yanlış qərarlardan tez bir zamanda peşman olur. Qəzəbli olduqda insanın söylədiyi xoşagəlməz sözlər abır-həya və heysiyyətin aradan getməsi və nəticədə, dostların itirilməsi ilə tamamlanır. Qəzəbləri soyuduqdan sonra əmələrinin təəssüf doğuran nəticələrini müşahidə etdikdə, ibrət alaraq peşmançılıq hissi keçirməyənlər sözün əsl mənasında, həqiqi divanələrdir.

---

*1. "Nəhcül-bəlağə".*

# 72

## HƏQİQİ ZAHİDLƏR

*İslam Peyğəmbəri (s) buyurur:*

الزُّهْدُ فِي الدُّنْيَا قَصْرُ الْأَمَلِ وَ شُكْرُ كُلِّ نِعْمَةٍ وَ الْوَرَعُ عَن كُلِّ مَا حَرَّمَ اللهُ

***"Zahidlik bu dünyada üç şeylə tanınır: Arzuların qısalığı ilə, nemətlərə şükür etməklə və günahlardan qorunmaqla."*[1]**

**Qısa izah:**

İnsanların əksəriyyəti islami zahidliyin mənasında səhvə düçar olaraq onu ictimai və maddi yaşayışdan ayrı hesab edir.

Zahidliyin həqiqi mənasını cəmiyyətdə zahidlik həddinə enərək maddi yaşayışın zahirinə üz çevirmiş kəslər bilirlər. Elə bu dəlilə əsasən, bəzən onu istismar proqramı kimi başa düşürlər, halbuki, həqiqi zahidlik ictimai quruculuq məfhumuna malikdir və bu da yuxarıda qeyd olunan hədisdə öz əksini tapmışdır: Haram və qeyri-şəri mallardan və digər insanların hüquqlarını qəsb etməkdən çəkinmək. Həmçinin, maddi imkanların məntiqli və humanist istiqamətdə sərf edilməsi şükr etməyin həqiqi mənasıdır. Eyni zamanda, insanın pul, məqam və şöhrət qazanmaqdan başqa, onu hər bir şeydən uzaqlaşdıran və onu nəfsi istəkləri qarşısında məğlub edən uzun-uzdı arzulardan xilas olması lazımdır.

---

*1. "Tuhəful-uqul", səh. 40.*

# 73

## ŞƏXSİYYƏTİ SINAMAQ

*Həzrət Əli (ə) buyurmuşdur:*

ثَلاثٌ يُمْتَحَنُ بِهَا عُقُولُ الرِّجَالِ هُنَّ الْمَالُ وَ الْوِلايَةُ وَ الْمُصِيبَةُ

***“Şəxsiyyətli insanların əqli üç şeylə imtahan olunur: Var-dövlət, vəzifə və bəla.”*[1]**

**Qısa izah**

İlahi imtahanların hər biri təkamül və tərəqqi üçün bir vasitədir. Onlar müəyyən bir xüsusiyyətə malik deyil, əksinə belə imtahanların baş verməsi istənilən vasitə ilə gerçəkləşə bilər. Amma qeyd edəcəyimiz üç amil digər amillərdən daha əhəmiyyətli hesab olunur:

İnsana sərvət əta edilən zaman onun (insanın) əql və düşüncəsindən necə istifadə etməsi, hansısa bir vəzifə tapşırıldıqda öhəsindən gəlib-gəlməməsi və bacarıqlı olması, eyni zamanda, həyatın acılı-şirinli çətinlik və bəlaları ilə qarşılaşdıqda Allaha şükür edib-etməməsi

Nəticədə, deyə bilərik ki, insan ona verilən sərvət, vəzifə və bəlalarla imtahan olunur.

---

*1. “Gurərul-hikəm”, c. 3, səh. 337.*

# 74

## DÜNYA VƏ AXİRƏT ÜÇÜN DÜZGÜN PROQRAM

*İmam Əli ibn Musər-Rza (ə) buyurmuşdur:*

اِعْمَلْ لِدُنْيَاكَ كَاَنَّكَ تَعِيشُ أَبَدًا وَ اعْمَلْ لِآخِرَتِكَ كَأَنَّكَ تَمُوتُ غَدًا

***"Dünya üçün elə çalış ki, elə bil onda əbədi qalacaq və axirət üçün də elə çalış ki, sanki sabah dünyadan köçəcəksən."[1]***

### Qısa izah

Yuxarıda xatırladılıan hədis İslamın maddi və mənəvi həyatla bağlı məsələlərə yanaşma tərzini bəyan edir. Öz vəzifəsinə agah olan bir müsəlman yaşayışın maddi məsələlərinə qarşı münasibətdə ciddi və intizamlı olmalıdır. Amma özlərini abid kimi göstərərək riyakalıq edən və əmək məsələsinə lazımı qədər diqqət etməyən kəslərin bir sıra problemlərlə qarşılaşacağı şübhəsizdir. Güclü iman və mənəviyyata malik insanlar dünyadakı fürsətlərdən səmərəli istifadə edərək axirətlərini qazanmağa çalışırlar. Onlar həyata göz yumduqda belə, maddiyyatla bağlı hansısa bir çatışmamazlığa düçar olmurlar. Günahkar şəxslər həqiqi tövbə etməklə günahdan uzaqlaşmalı, camaatın hüquqlarına riayət etməli və özündən sonra geridə düzəltmədiyi bir yanlış qoymamalıdır.

*1. "Vəsailuş-şiə", c. 12, səh. 49.*

# 75

## GÜNAHIN TƏSİRİ

*İmam Sadiq (ə) buyurmuşdur:*

مَن يَمُوتُ بِالذُّنُوبِ أَكْثَرُ مِمَّن يَمُوتُ بِالْآجَالِ وَ مَن يَعِيشُ بِالْإِحْسَانِ أَكْثَرُ مِمَّن يَعِيشُ بِالْأَعْمَارِ

***“Günahın təsiri nəticəsində ölən insanların sayı, təbii ölümlə dünyasını dəyişən insanların miqdarından, həmçinin, xeyirxah əməllərinin təsiri nəticəsində ömür sürən insanların sayı da təbii ömürlə yaşayan insanların sayından daha artıqdır.”[1]***

### Qısa izah

Psixolojo gərginlik və sarsıntıların əsas amilərindən biri insanın günah etməsi olsa da, həqiqətdə, vicdanın ona verdiyi əzab insanın ruhiyyəsinə güclü təzyiq göstərir və narahatçılıq yaradır. Günaha mürtəkib olan insan vicdan məhkəməsində mühakimə edilərək ən ağır cəzalara layiq görülür və onun təsiri özünü cism və ruhda, hətta, öldüyü zaman da ölümündən sonra büruzə verir. Əksinə, sağlam əqidəli və mənəviyyata malik insanlar vicdanları tərəfindən alqışlanaraq xeyir əməllərə daha çox təşviq olunur və belə insanlarda bu cəhətdən ruh yüksəkliyi yaranır. Nəticə etibarı ilə günahların insan ömrünün qısalması, xeyir və saleh əməllərin isə onun üzanması amili olduğunu söyləmək olar.

*1. “Səfinətul-bihar”, c. 3, səh. 217.*

# 76

## Həqiqi şiə

*İmam Baqir (ə) öz dostlarından birinə buyurdu:*

أَبْلِغْ شِيعَتَنَا أَنَّـهُ لا يُنَالُ مٰا عِنْدَ اللهِ إِلاَّ بِعَمَلٍ

***"Bizim şiələrimizə əməl etməkdən başqa, hansısa bir vasitə ilə Allah yanındakı ilahi nemətlərə çatmağın qeyri-mümkünlüyünü çatdır."*[1]**

### Qısa izah

İmam Baqirin (ə) buyurduğu bu dəyərli sözlər təkcə özlərini şiə adalandıraraq peyğəmbər ailəsinə məhəbbət göstərən və bu yolla Allah dərgahında müəyyən məqamlar əldə edəcəklərini düşünən əməlsiz insanlara tutarlı bir cavabdır. Məlum məsələdir ki, İslam dini əmələ əsaslanır. Həqiqi şiələr öz əməlləri və nəzərdə tutduqları planlarda həzrət Əli (ə) və Əhli-beytin (ə) əmr və gəstərişlərini izləyən və oun əsasında əməl edənlərdir. Şiəlik (təşəyyo) "müşayiət" kökündən götürülmüşdür və mənası "müəyyən bir şəxsin ardınca getmək və onu izləmək"dir.

Əql və məntiqə əsaslananraq Allah süfrəsi kənarında əməlsizlərə yer verilməyəcəyini dərk etmək mümkündür.

---

*1. "Üsuli-kafi", c. 2, səh. 300.*

# 77

## KİMİNLƏ MƏSLƏHƏTLƏŞƏK

*Həzrət Əli (ə) buyurmuşdur:*

لا تُدْخِلَنَّ فِي مَشْوَرَتِكَ بَخِيلًا يَعْدِلُ بِكَ عَنِ الْفَضْلِ وَ يَعِدُكَ الْفَقْرَ وَ لا جَبَانًا يُضْعِفُكَ عَنِ الْأُمُورِ وَ لا حَرِيصًا يُزَيِّنُ لَكَ الشَّرَهَ بِالْجَوْرِ

***“Paxıl insanlarla məsləhətləşmə ki, onlar səni Allah bəndələrinə xidmət etməkdən çəkindirərək yoxsul olmaqla qorxudarlar. Qorxaq insanlarla məsləhətləşmə ki, onlar sənin iradəni mühüm işlər görməkdə zəiflədərlər. Həmçinin, tamahkar şəxsləri öz müşavirin təyin etmə ki, zülmkarlığı sənin üçün zinətləndirərlər.”[1]***

### Qısa izah

Məşvərət etmək İslamın mühüm göstərişlərindən biridir. Dünyagörüşlü şəxslərlə məsləhətləşmək nəzərdə tutlan işlərin daha da inkişafına səbəb olduğu kimi, aşkar şəkildə zəif xüsusiyyətlərə malik insanlarla məsləhətləşmək də ciddi zərərlərin yaranmasına gətirib çıxarır və əks-təsir göstərir. Bu baxımdan, həzrət Əli (ə) insanlara üç dəstədən olan şəxsləri məşvərətçi kimi seçilməməsini tövsiyə edir. Həmin şəxslər paxıllar, qorxaq və tamahkarlardır. Paxıllar insanı digərlərinə xidmət və yaxşılıqlardan çəkindirər, qorxaqlar mühüm işlərlə bağlı iradə zəifliyi və süstlüyünün yaranmasına səbəb olar və həris və tamahkarlar isə daha çox mal və

*1. “Nəhcül-bəlağə”, 53-cü məktub. (Malik Əştərin əhdnaməsi)*

sərvət əldə etməkdə digərlərinə zülm etməyi insanın nəzərində zinətli göstərər.

# 78

## ƏN ÜSTÜN NEMƏTLƏR

*İmam Əli (ə) buyurmuşdur:*

أَجَلُّ النِّعَمِ الْعَافِيَةُ وَ خَيْرُ مَا دَامَ فِي الْقَلْبِ الْيَقِيْنُ

***"Ən üstün nemət sağlamlıq və insanın qəlbində yer tutmağa layiqli ən xeyirli şey Allaha imandır."*[1]**

### Qısa izah

Həqiqətdə, Əmirəl-Möminin Əli (ə) yuxarıdakı hədisdə ən böyük maddi və mənəvi nemətə işarə etmişdir. Cismi sağlamlıq insana əta edilən ən böyük ilahi nemət olmaqla yanaşı, təlaş və fəaliyyətin, həmçinin, əldə edilən uğurların əsas mənşəyi sayılır. İman və yəqin nuru mənəvi nemətlər sırasında duran ən dəyərli nemətlərdən biridir. Qeyd edilən iki nemət insanın həyat yolunu işaqlandırmaq, cahillik, zillət və cirkin xüsusiyyətlər kimi xəstəliklərin müalicəsində əhəmiyyətli təsirə malikdir. Belə nemətlərdən faydalanan kəslərin nailiyyətləri heç də az deyil və bu, digər ilahi nemətlərə yetişmək üçün vəsilə hesab edilir. Pəhriz etmək və zəhmətə qatlaşmadan sağlamlaq və imanın əldə olunmadığını unutmamaq lazımdır.

---

*1. "Biharul-ənvar", c. 75, səh. 44, hədis, 38.*

# 79

## GÖZLƏRDƏN QAİB OLAN İMAMIN VARLIĞININ TƏSİRLƏRİ

*İmam Sadiqə (ə) belə bir sual veridilər:*

كَيْفَ يَنْتَفِعُ النَّاسُ بِالْحُجَّةِ الْغَائِبِ الْمَسْتُورِ؟ قَالَ: كَمَا يَنْتَفِعُونَ بِالشَّمْسِ إِذَا سَتَرَهَا السَّحَابُ

***"İnsanlar gözlərdən pünhan və qaib imamın varlığından necə faydalanırlar?"[1]***

***İmam (ə) buyurdu: "Günəş buludlar arxasında gizləndiyi vaxt ondan bəhrələndikləri kimi."***

### Qısa izah

Günəş nuru yer kürəsindəki bütün canlı varlıqların həyat mənşəyi hesab edildiyi və onsuz heç bir varlığın yaşamağa qadir olmadığı kimi, insanın mənəvi həyatı və bəşəriyyətin davamı üçün də imamlar və ilahi rəhbərlərə ehtiyac vardır.

Tutqun şüşəli çıraq zülmət gecədə şölə saçaraq ətrafı işıqlandırdığı və zülməti yardığı kimi, buludlar arxasında gizlənən günəş də öz nurunu təbiətə yayaraq canlı varlıqlar və bitkilər üzərində təsir qoyur. Eynilə, qeybdə olan imamın (ə) mənəvi vücudu pərdə arxasında olmasına baxmayaraq, bəşəriyyət dünyasına bərəkət bəxş edir. Tikili və binalar günəş nurundan özlərinin pəncərə və eyvanlarına görə faydalanır. Buna əsasən,

*1. "Biharul-ənvar", c. 23, səh. 6.*

deyə bilərik ki, insanların hər biri imamın mənəvi bərəkətindən onunla yarada bildikləri rabitə və o həzrətə nisbətdəki mərifəti miqdarında yararlana bilir

# 80

## HƏR KƏSİN SÖHBƏTİNDƏ OTURMA

*İmam Cavad (ə) buyurmuşdur:*

مَنْ أَصْغَيٰ إِلَيٰ نَاطِقٍ فَقَدْ عَبَدَهُ فَإِنْ كَانَ النَّاطِقُ عَنِ اللهِ فَقَدْ عَبَدَ اللهَ وَ إِنْ كَانَ النَّاطِقُ يَنْطِقُ عَنْ لِسَانِ إِبْلِيسَ فَقَدْ عَبَدَ إِبْلِيسَ

***"Gözəl danışan natiqin sözlərinə qulaq asan hər bir kəs, həqiqətdə, ona pərəstiş etmişdir. Əgər natiq Allah kəlamı danışırsa, onda, onu dinləyən şəxs Allaha, əksinə şeytani sözlər danışırsa, şeytana pərəstiş etmişdir."*** [1]

### Qısa izah

Kimliyindən və nə danışmasından asılı olmayaraq, söz təsirə malikdir və adətən, dinləyicidə təsir qoyur. Bu cəhətdən, hər danışanın söhbətinə qulaq asmaq bəyənilmir, çünki bəziləri bihudə, bəziləri də batil sözlər danışır və natiqlərin hədəfləri müxtəlifdir. İnsanların söhbətlərinə qulaq asmaq sanki pərəstiş sayılır və pərəstiş ruhu təslim olmaq və itaətdən başqa, bir şey deyildir. Nəticədə, haqqa qulaq asanlar haqqa, batilə qulaq asanlar da batilə pərəstiş etmiş olurlar. Beləliklə, batil danışan kəslərin məclislərində iştirak etmək və dedikləri sözlərin qulaq vasitəsilə ruh və fitrətdə təsir qoymasından çəkinmək lazımdır.

---

*1. "Tuhəful-uqul", səh. 339.*

# 81

## ŞEYTANSİFƏTLİLƏR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِذَا رَأَيْتُمُ الرَّجُلَ لا يُبَالِي مَا قالَ أَوْ مَا قِيْلَ فِيْهِ فَإِنَّهُ لَبَغِيَّةٌ أَوْ شَيْطَانٌ

***“Kiminsə öz söylədiyi sözlər və ya digər insanların onun barəsində dediklərinə etinasızlıqla yanaşdığını görsəniz, bilin ki, həmin şəxs ya şeytan, ya da günaha aludə olmuş şəxsdir!”*** [1]

### Qısa izah

Müxtəlif günahlara mürtəkib olmaq insanın ona töhmət vurulması və digərlərinin onun barəsində irad tutmasına laqeyd yanaşması, eyni zamanda, bu məsələlərdən narahat olmamasına gətirib çıxarır. Belə insanlar şəxsiyyətcə aşağı, mənəviyyatsız, dəyərsiz və şeytansifətli insanlardır.

Onlardan fərqli olaraq, pak və mənəviyyatlı insanlar nə digər insanlara töhmət vurur, nə də onlara nisbət verilən xoşagəlməz iradlar müqabilində etinasız qalaraq sükut edirlər. Bu cür şəxslər çalışırlar ki, onlara qarşı yönələn mənfi məsələləri aradan qaldırsınlar.

---

*1. “Biharul-ənvar”, c. 74, səh. 147.*

# 82

## HƏQIQI BAYRAM

*Həzrət Əli (ə) buyurmuşdur:*

إِنَّمَا هُوَ عِيدٌ لِمَنْ قَبِلَ اللهُ صِيَامَهُ وَ شَكَرَ قِيَامَهُ وَ كُلُّ يَوْمٍ لاَ يُعْصَ اللهُ فِيهِ فَهُوَ عِيدٌ

***“Həqiqətən, Fitr bayramı həmin gündə oruc və ibadətləri Allah dərgahında qəbul dərəcəsinə yetişən kəslərin bayramıdır. Eyni zamanda, günah edilmədiyi gün insan üçün bayram hesab olunur.”[1]***

### Qısa izah

Mübarək ramazan ayında bir ay oruc tutduqdan sonra şadlıq və bayram məclisləri keçirmək, həqiqətdə, ilahi əmrlərə itaət etmək və nəfsi istəklərə qələbə çalmağın şərəfinədir.

Nəticədə, belə bir gün yalnız ilahi fəlsəfəni dərk etmək və ilahi hökmlərə itaət etməkdə qələbə qazanmış şəxslər üçün bayram hesab edilir və bu əzəmətli ayın ehtiramını qorumayan, günahkar və üzü qara insanlar matəm gününə qərq olmaq və xəcalət çəkməkdən başqa, digər bir şeyə nail olmurlar.

İnsan bütün il boyu bayram edə bilər və günah etmədiyi gün onun bayramıdır.

*1. “Nəhcül-bəlağə”.*

# 83

## QİYMƏTLİ SƏRMAYƏLƏR

*İslam Peyğəmbəri buyurur:*

إِنَّ اللهَ لاَ يَنْظُرُ إِلَيٰ صُوَرِكُمْ وَ لا إِلَيٰ أَمْوَالِكُمْ وَ إِنَّمَا يَنْظُرُ إِلَيٰ قُلُوبِكُمْ وَ أَعْمَالِكُمْ

***"Allah sizin mal-dövlətinizə və üzlərinizə deyil, bəlkə sizin əməllərinizə və ürəklərinizə baxır."*[1]**

**Qısa izah:**

Hal-hazırda əksər cəmiyyətlərdə fərdlərin şəxsiyyətinin dəyərləndirilməsi, onların cismani üstünlükləri və maddi sərmayələri ilə ölçülür. Lakin islam dini bu mövzuda başqa bir mövqe tutaraq, öz nəzərini belə açıqlayır: insanların şəxsiyyətini bu cür vasitələrlə ölçmək və dəyərləndirmək düzgün seçim deyildir. Həqiqət tərəzisində özünə məxsus çəkisi olan və Allahın ona nəzər saldığı və qiymətləndirdi şey insanın fikri və onun əməlidir. Elə bir təmiz fikir ki, əməllərinin mənşəyi də pak və safdır.

Bəli! Qiyamət səhnəsində təkcə bu iki qiymətli sərmayənin sahibləri qalibdirlər. Lakin fikirləri hiyləgərlik, yalan və hiylə ilə qarışıq olan kəslər, öz əməllərində onları nümayiş etdirirlər. Allahın etina etmədiyi belə adamlar sözün əsl mənasında həqiqi ziyankarlardır.

*1. "Muhəccətül-beyza", c. 6, səh. 312.*

# 84

## İKİ ŞEY HƏLAKƏT MƏNŞƏYİDİR

*Həzrət Əli (ə) buyurmuşdur:*

أَهْلَكَ النَّاسَ إِثْنَانِ؛ خَوْفُ الْفَقْرِ وَ طَلَبُ الْفَخْرِ

***"İki şey insanları həlakətə sürükləyir: Yoxsulluqdan qorxmaq və fəxr və cah-cəlal istəmək."***[1]

### Qısa izah

Əgər təcavüzkarlıq, oğurluq və rüşvətxorluğun artması səbəbləri barəsində düşünsək, həmçinin, camaat arasındakı müəyyən bir kütlənin zəhmət çəkmədən tamahkarcasına digərləini qarət etməsinə diqqət yetirsək, belə hadisələrin baş verməsində yuxarıda qeyd edilən iki amilin ciddi təsiri olduğunu anlayarıq. İnsanların bir qismi fəqirlikdən qorxduqları və gələcəyi düşündükləri üçün qeyri-qanuni işlərə əl atır, digər qismi isə öz psixoloji və mənəvi rahatlıq və asayişlərini xəyali mənsəb və məqamların əldə edilməsi üçün fəda edir və bir-biri ilə rəqabət aparır.

Belə insanlar qeyd edilən iki mənfi xüsusiyyəti tərk edəcəkləri təqdirdə, asudə həyat sürməyə nail olacaqlar. Bu yolla əldə etdikləri məqam və mənsəblərin uzun müddət davam etməyəcəyini bildikləri halda öz işlərini davam etdirməsi insanda təəccüb doğurur.

---

*1. "Tuhəful-uqul", səh. 150.*

# 85

## AZ OLSA BELƏ, YAXŞI İŞ DƏYƏRLIDIR

*İmam Sadiq (ə) buyurmuşdur:*

لا يَقِلُّ عَمَلٌ مَعَ تَقْويٰ وَ كَيْفَ يَقِلُّ مَا يُتَقَبَّلُ

***"İxlas və təqva ilə edilən əməl zahirdə az olsa belə, həqiqətdə az sayılmır. Allah dərgahında qəbul olmuş bir əməl necə ola bilər ki, az sayılsın?!"[1]***

### Qısa izah

Qurani-Məciddə belə buyurulur:

إِنَّمَا يَتَقَبَّلُ اللّٰهُ مِنَ الْمُتَّقِينَ

***"Allah yalnız təqva və pak niyyətli olanların əməllərini qəbul edir."[2]***

Bu cəhətdən, insan əməlin kəmiyyətinə deyil, onun ixlas, təqva və pak niyyətlə həyata keçirilməsinə diqqət yetirməlidir. İxlasa bağlı olaraq edilən əməl Allah dərgahında qəbul olunur və kəmiyyətcə az olsa belə, bu əməllər dəyərlidir.

Amma ixlassız, əbəs yerə və riyakarlıqla görülən işlər miqdar baxımından çoxluq təşkil etsə də, onlar Allah dərgahında qəbul edilmir və heç bir dəyərə də malik deyildir. Nəticədə, İslam dininin əməlin kəmiyyətini deyil, onun keyfiyyətini nəzərdə tutduğu məlum olur.

---

*1. "Tuhəful-uqul", səh. 201.*
*2. "Maidə surəsi", 27.*

# 86

## SƏHV ETMƏ KI, ÜZR DƏ ISTƏMƏYƏSƏN

*İmam Hüseyn (ə) buyurmuşdur:*

إِيَّاكَ وَ مَا تَعْتَذِرُ مِنْهُ فَإِنَّ الْمُؤْمِنَ لا يُسِيءُ وَ لا يَعْتَذِرُ وَ الْمُنَافِقُ كُلَّ يَوْمٍ يُسِيءُ وَ يَعْتَذِرُ

***"Pis iş görmə ki, üzr istəməyə də məcbur olamayasan. İmanlı insan pislik etməz ki, ona görə də üzr istəsin. Lakin münafiq insan hər gün pislik edər və ona görə də üzr istəyər!"[1]***

### Qısa izah

Hər bir insanın səhv və xətaya yol verməsi mümkündür. Lakin bu yerdə imanlı şəxslərlə münafiqlər arasında əsas bir fərq mövcuddur. İman əhli həmişə özünü xoşagəlməz işlərdən qorumaq və günaha mürtəkib olmamağa çalışır və bilirlər ki, üzr istəmək məsələnin həlli deyil. Lakin münafiqlər heç bir yalan və pislikdən çəkinmir və ardıcıl olaraq üzr istəyirlər. Belə bir addım zahirdə üzr istəyənin peşmançılığına dəlalət etsə də, batində onun əksini, yəni peşman olmadığını göstəriri və bu, münafiqlik əlamətidir.. Hansısa bir səhv və xətaya görə üzr istəmək bəyənilən bir iş və böyüklük, amma ardıcıl olaraq yanlış addım atmaq və üzr isə münafiqlikdir və belə insanların üzrünün heç bir əhəmiyyəti yoxdur.

---

*1. "Tuhəful-uqul", səh. 177.*

# 87

## ƏN PİS HƏYAT TƏRZİ

*İmam Əli ibn Musər-Rza (ə) buyurmuşdur:*

أَسْوَءُ النَّاسِ مَعَاشًا... مَنْ لَمْ يَعِشْ غَيْرُهُ فِي مَعَاشِهِ

***"İqtisadi və məişət baxımından ən pis insanlar öz yaşayış vasitələrini digərləri ilə bölüşdürməyən və məişətində digərlərinə yardım etməyənlərdir."[1]***

### Qısa izah

Sağlam iqtisadiyyat ictimai əlaqələri daha da möhkəmləndirən və cəmiyyətin bütün fərdlərini öz əhatəsinə alan iqtisadiyyatdır. İqtisadiyyatın müxtəlif sahələri bir sıra fərdlərin mənfəətinə xidmət edərsə, onda, belə iqtisadiyyat sağlam iqtisadiyyat deyil, iqtisadi xərçəng kimi tanınır. İmam Rzanın (ə) buyurduqlarına uyğun olaraq, belə həyat tərzi ən pis həyat tərzidir. Bəyənilən və gözəl yaşayış odur ki, insanlar bir-biri sayəsində mənfəət və xeyir əldə edərək asyişdə həyat sürsün. İnsanlar təkcə özləri üçün deyil, digərləri çün də yaşamağı bacarmalıdır.

*1. "Tuhəful-uqul", səh. 334.*

# 88

## BİZİM VƏDƏLƏRİMİZ ÜZƏRİMİZDƏ OLAN BORCLARIMIZDIR

*İmam Əli ibni Musər-Rza (ə) buyurmuşdur:*

إِنَّا أَهْلَ بَيْتٍ نَرَيٰ وَعْدَنَا عَلَيْنَا دَيْناً كَمَا صَنَعَ رَسُولُ اللهِ

***"Biz elə bir ailədənik ki, verdiyimiz vədələri öz borcumuz kimi sayırıq. Necə ki, Allahın Peyğəmbəri (s) belə idi."*[1]**

### Qısa izah

Borclu olmaq insanın kimdənsə bir şey alaraq onun müqabilində borca düşməsi deyil. Digərlərinə vədə verən şəxslər hansısa bir işin məsuliyyətini öhdələrinə alaraq onu yerinə yetirməyi qəbul edirlər. Həqiqətdə, bu məsələ inkar edilməyən əxlaqi borc sayılır.

Əhdə vəfa etmək, şəxsiyyətin böyüklüyü, əzəmət və doğruluqdan, ən əsası isə imandan xəbər verir. Bu yolla cəmiyyətdə ictimai əməkdaşlıq canlanır və etibar və şəxslərin bir-birinə inamı artaraq möhkəmlənir.

İslamın nəzərində əhdə vəfa etmək həddən artıq əhəmiyyət kəsb edir, hətta, bəzi hədislərdə bu məsələ dindar və dinsizlərin ayırd edilməsi üçün ülgü və mizan funksiyasını daşıyır.

Bəli! Vədə verdiyimiz hər bir məsələdə özümüzü məsuliyyətli və borclu bilməliyik.

---

*1. "Tuhəful-uqul", səh. 333.*

# 89

## HARAM MALLARLA İBADƏT

*İmam Baqir (ə) buyurmuşdur:*

إِنَّ الرَّجُلَ إِذَا أَصَابَ مَالاً مِنْ حَرَامٍ لَمْ يُقْبَلْ مِنْه حَجٌّ وَ لا عُمْرَةٌ وَ لا صِلَةُ رَحِمٍ

***"İnsan qeyri-şəri (haram) yollarla hansısa bir mal əldə etdiyi zaman onun nə həcc və ümrəsi, nə də qohumlara etdiyi sileyi-rəhimi qəbuldur."[1]***

### Qısa izah

İslam məntiqində təkcə hədəfin müqəddəs olması kifayət etmir. Hədəfin müqəddəs olması ilə yanaşı, ona nail olmaqda istifadə edilən vəsilələrin də pak və müqəddəs olması zəruridir.

Bəzən qəlbi təmiz olan insanlar gözəl və xeyirxah işlər görməyə çalışsalar da, həmin işləri hansı vasitələrlə həyata keçirmək barəsində dərindən düşünmür və vəsilə məsələsindən qəflət edirlər. Bilmək lazımdır ki, vasitələr pak və müqəddəs olmazsa, görülən işlərdən heç biri Allah dərgahında qəbul olunmayacaqdır. Çünki Allah əməlləri yalnız pəhrizkar insanlardan qəbul edir.[2]

Namaz, oruc, həcc, sileyi-rəhim və xeyir işlərdə iştirak etmək - bütün bunların hamısı halal mallarla olmalıdır. Çünki haram mallardan istifadə edərək ibadət etmək

1. *"Səfinətul-bihar", c. 1, səh. 213.*
2. *"Maidə surəsi," 27.*

Allah dərgahında məqbul deyil.

# 90

## BACARDIĞIN QƏDƏR HEÇ BİR KƏSDƏN BIR ŞEY İSTƏMƏ

*İmam Səccad (ə) buyurmuşdur:*

طَلَبُ الْحَوَائِجِ إِلَي النَّاسِ مَذَلَّةٌ لِلْحَيَاةِ وَ مَذْهَبَةٌ لِلْحَيَاءِ وَ اسْتِخْفَافٌ بِالْوَقَارِ وَ هُوَ الْفَقْرُ الْحَاضِرُ

***"Camaatdan bir şey istəmək insanın həyatda xar olması, həyanın aradan getməsi və şəxsiyyətin alçalmasına səbəbdir. O, elə bir fəqirlikdir ki, insan onu özü üçün hazırlayır."***[1]

### Qısa izah

Bəzi insanlar yoxsulluqdan yaxa qurtarmaq üçün özlərini ehtiyaclı kimi göstərərək dilənçilik metoduna əl atır, zəruri olmayan ehtiyaclarını kimə gəldi bidirir və özlərini digərlərindən asılı hesab edirlər. Həqiqətdə, belə insanlar öz mənlik və şəxsiyyətlərini alçatmaqla məşğuldurlar. İnsanın öz imakanları hesabına həyatını davam etdirməsi və ehtiyaclarını təmin etmək üçün digərlərinə deyil, yalnız öz gücünə arxalanması İslam fəlsəfəsinin əsasını təşkil edir. Çünki İslam dini insanları zəlillikdən xilas olaraq izzətli və başıuca yaşamağa dəvət edir. Bu baxımdan, islami ölkələr qeyri-islami olan digər ölkələrdən asılılığını aradan qaldırmalı və öz qüdrəti hesabına həyat sürməlidir. Çünki asılılıqla ələ edilən zənginlik, reallıqda yoxsulluqdur.

*1. "Tuhəful-uqul", səh. 201.*

# 91

## VAY OLSUN BELƏ İNSANA

*İmam Səccad (ə) buyurmuşdur:*

يَا سَوْأَتَاهُ لِمَنْ غَلَبَتْ إِحْدَاتُهُ عَلَيٰ عَشَرَاتِهِ

***"Təəssüf o kəsə ki, təkliyi cütlüyünə (onluğuana) üstünlük təşkil etsin."*[1]**

### Qısa izah

Qurani-Kərimdə belə buyurulur: "Yaxşı işlər görən kəs üçün on qat savab vardır, lakin pis bir iş görənlər yalnız həmin miqdarda cəzalandırılacaqdır."[2]

Bu ayəyə diqqət yetirsək, yuxarıda qeyd olunan hədisin təfsiri aydın olacaqdır: Bədbəxt o kəsdir ki, Allahın böyük mükafatı olan itaəti tərk edə və günaha aludə ola. Yəni, günah edəcəyi təqdirdə, həmin miqdarda cəzalanmağı ona yaxşı əməl müqabilində əta olunacaq on bərabər savaba dəyişə. Allahın öz bəndələrinə etdikləri yaxşı əməllərə görə on bərabər mükafat əta etməsi onun tərəfindən böyük lütf və mərhəmətdir. Lakin biz bunun qarşılığında yenə də günaha mürtəkib oluruq.

---

*1. "Tuhəful-uqul", səh. 203.*
*2. "Ənam surəsi", 160.*

# 92

## MÜŞKÜL İŞLƏRİN HƏLLİNİ GÜNAHDAN İSTƏMƏ

*İmam Hüseyn (ə) buyurmuşdur:*

مَنْ حَاوَلَ أَمْراً بِمَعْصِيَةِ اللهِ كَانَ أَفْوَتُ لِمَا يَرجُو وَ اَسْرَعُ لِمَا يَحْذَرُ

***“Hansısa bir çətinliyi Allaha qarşı məsiyət və günah etməklə həll edən kəslər ümidvar olduqları şeyləri daha tez əldən verər və qorxduqları məsələlər də tez bir zamanda onların başına gələr.”[1]***

### Qısa izah

Bəziləri öz hədəflərinə nail olmaq üçün qeyri-şəri vasitələrdən istifadə edəcəkləri təqdirdə, ona daha tez çatacaqlarını güman edirlər. Həqiqət isə bunun əksinədir və yuxarıda qeyd edilən hədisdə onların ümidvar olduqları şeylərin tezliklə əllərindən çıxacağı və qorxduqları məsələlərlə bağlı tez bir zamanda dərin quyulara düşəcəkləri bildirilmişdir. Məsələn, bir sıra insanlar haram yollarla sərvət əldə edərək asayiş və asudəlik arxasaıncadırlar və rahatçılıqdan öncə önları vəhşət və iztirabın gözlədiyindən qəflət edirlər.

Bəli! İlahi lütf və mərhəmətə arxalanmadan haram vasitələrlə məqsədə çatmaq üçün səy etməyin nəticəsi məğlubiyyətə düçar olmaqdır.

---

*1. “Tuhəful-uqul”, səh. 177.*

# 93

## ÖZÜNDƏN RAZI OLANLAR

*Həzrət Əli (ə) buyurmuşdur:*

مَنْ رَضِيَ عَنْ نَفْسِهِ كَثُرَ السَّاخِطُ عَلَيْهِ

***"Əgər kimsə özündən razı olarsa, ondan narazı olanların sayı da həddən artıq çox olacaq."[1]***

### Qısa izah

Həyatın davam etməsi üçün orta həddə insanın özünə məhəbbət və ehtiram göstərməsinin zəruri olmasına baxmayaraq, bu məsələ ifrat dərəcədə olarsa, onda, eqoizm və xudpəsəndliyə gətirib çıxaracaq.

Təkəbbürlü və özündən razı şəxslər öz eyib və nöqsanlarını örmür, özlərini vəzifəsini bilən, dostluğa layiq, fəal, qüsursuz və cəmiyyətin sağlam bir fərdi hesab edirlər. Bu səbədən, onların digərlərindən özlərinə nisbətdə qayğı və müsbət münasibətinə olan intizarı daha çoxdur. Həqiqətdə, belə düşüncə və təfəkkür tərzi insanların onlara qarşı qəzəb və hiddətini artırır və nəticədə, həmin şəxlər tək-tənha qalırlar.

---

*1. "Nəhcül-bəlağə".*

# 94

## YAXIN VƏ UZAQ QOHUMLAR

*İmam Həsən Muctəba (ə) buyurmuşdur:*

الْقَرِيْبُ مَنْ قَرَّبَتْهُ الْمَوَدَّةُ وَ إِنْ بَعُدَ نَسَبُهُ وَ الْبَعِيدُ مَنْ بَاعَدَتْهُ الْمَوَدَّةُ وَ إِنْ قَرُبَ نَسَبُهُ

***“Qohumluq əlaqələrinin uzaq olmasına baxmayaraq, daha çox sevilən qohumlar yaxın qohumlar, qohumluq əlaqəsi yaxın olub daha az sevilən qohumlar isə uzaq qohumlardır.”[1]***

### Qısa izah

Qohumluq əlaqəsi İslamın nəzərində ən mühüm ictimai münasibətlərdən biridir. Bu yolla cəmiyyətdə bir-biri ilə əlaqəli olan qruplaşmalar yaranır və onlar çətinliklərin həlli və ehtiyacların təminində bir-birinə yardımçı olaraq əməkdaşlıq edirlər. Həqiqətdə, qohumluq münasibətlərin yaxın olmasına deyil, qarşılıqlı dostluq və sevgiyə əsaslanır. Bu baxımdan, insana daha çox məhəbbət və qayğı göstərən kslər qohumluq cəhətindən uzaq olsalar da yaxın, amma yaxın olub soyuq münasibət bəsləyənlər, hətta, insanın doğma qardaşı olsa belə, uzaq sayılırlar.

*1. “Tuhəful-uqul”, səh. 165.*

# 95

## PİS ADƏTİ TƏRK ETMƏK

*İmam Həsən Əsgəri (ə) buyurmuşdur:*

رَدُّ الْمُعْتَادِ عَنْ عَادَتِهِ كَالْمُعْجِزِ

***"Düzgün olmayan və pis vərdişləri tərk edərək aradan qaldırmaq möcüzə kimidir."[1]***

### Qısa izah

Adər və vərdişlər ilahi nemətlərdən hesab olunur, çünki çətin işləri insan üçün asanlaşdırır və bir sıra həyati əhəmiyyətli məsələləri – danışmaq, yol getmək və bunların oxşarını – də nizamlı olaraq tənzimləyir.

Əgər bu ilahi nemət sui-istifadə edilərək pis və xoşagəlməz işlərdə sərf olunsa, onda, təhlükəli bir vəziyyət yaranar və belə vərdişlərdən yaxa qurtarmaq da həddən artıq çətinləşər. İmam Həsən Əsgərinin (ə) buyurduğu kimi, ondan xilas olmaq möcüzə olar.

Nəticədə, pis və çirkin əməllər bizdə adət və vərdiş halını almadan öncə, onu tərk etmək və qarşısını almaq lazımdır. Bu yolla onun öhdəsindən gəlmək mümkündür.

*1. "Biharul-ənvar", c. 75, səh. 374.*

# 96

## KƏRBƏLA QƏHRƏMANLIĞI

*İmam Hüseyn (ə) buyurmuşdur:*

لا وَاللهِ لا أُعْطِيكُمْ بِيَدِي إِعْطَاءَ الذَّلِيلِ وَ لا أَفِرُّ فِرَارَ الْعَبِيدِ...

إِنِّي لا أَرَي الْمَوْتَ إِلَّا سَعَادَةً وَ الْحَيَاةَ مَعَ الظَّالِمِينَ إِلَّا بَرَمًا

***"Allaha and olsun! Mən zəlil və alçaq insanlar kimi əlimi onlara tərəf uzatmaz, qul və əsirlər kimi onların önündən qaçmaram[1]... Mən ölümü səadət və həyat, zalımlarla birgə olmağı isə zillət və bədbəxtlikdən başqa, digər bir şey bilmirəm.[2]"***

### Qısa izah

Aşura hadisəsi bəşəriyyət tarixinin əbədi və əzəmətli eposu sayılır. Kərbəla insanı tərbiyə edən ən böyük elmi mərkəzdir. Aşura hadisəsi insanlıq tarixində unudulmayan böyük bir gündür. Əgər xalq və millətlər başı uca və iftixarla yaşamaq istəyirlərsə, onlardan ilham almalıdır.

İmam Hüseynin (ə) Kərbəla hadisəsi barəsində söylədiyi bu neçə cümlə bu məktəbin insanlara aşkar şəkildə edilən müraciətidir. Həmin müraciətdə zalımlara təslim olaraq zilləti qəbul etməmək və izzət və iftixarla yaşamaq ifadə olunmuşdur. Düşmənlər qarşısında

1. *"Müsnədi İmamuş-şəhid", c. 2, səh. 27.*
2. *"Müsnədi İmamuş-şəhid", c. Səh. 478.*

meydanı tərk edib qaçmaq yox, onlarla mübarizə aparmaq lazımdır.

# 97

## AQİL ŞƏXS KİMDİR?

*Həzrət Əliyə (ə) "aqil sözünün mənasını bizim üçün izah edin." – dedikdə, buyurdu:*

هُوَ الَّذِي يَضَعُ الشَّيْءَ مَوَاضِعَهُ

***"Aqil hər bir şeyi öz yerində yerləşdirən kəsdir."***[1]

**Qısa izah**

"Ağıl" məfhumu və onun mənası barədə çoxlu sözlər söylənməsinə baxmayaraq, həzrət Əlinin (ə) yuxarıda qeyd edilən qısa və lakonik cümləsi bu barədə deyilən ən yaxşı ifadədir. Əql hər bir şeyi öz yerində və hər bir şəxsi cəmiyyətdə öna layiq məyamda yerləşdirməkdən başqa, digər bir şey deyil. Bu baxımdan, ibadət , itaət, sevinc, şadlıq, ticarət, dostluq və digər məsələlər öz zamanı və yerində həyata keçirilməlidir.

Belə xüsusiyyətlərə malik insanlar həm ağıl sahibi, həm də ədalətli şəxslər kimi cəmiyyətdə tanınır. Qeyd edək ki, ədalət barəsində də eyni tərif söylənilmişdir.

---

*1. "Nəhcül-bəlağə".*

# 98

## DÜŞMƏNÇİLİKLƏRİN SƏBƏBİ

*Həzrət Əli (ə) buyurmuşdur:*

النَّاسُ اَعْدَاءُ مَا جَهِلُوا

***"İnsanlar bilmədikləri və məlumatı olmadıqları şeylərlə düşməndirlər."*[1]**

### Qısa izah

Bir sıra insanların həqiqətlərin əksəriyyətini inkar edərək onların əleyhinə olduqlarını müşahidə edirik və bu məsələdə onların həmin məsələlərə qarşı cahillik və nadanlıqdan başqa, digər bir dəlillərinin olmadığı aydınlaşır.

Hikmətli şəkildə söylənən bu sözlər dini məsələlərdə tamamilə özünü doğruldur. Yəni, bəzi insanların (hətta, digər elmlərdə mahir olan şəxslərin) dinin müəyyən məsələlərini inkar edərək düşmənçiliyə qalxdıqları görülməkdədir. Mövzuya diqqət yetirdikdə, məlum olur ki, beləlləri dini fəlsəfə və dini məsələlərin dərinliyinə varmayan xəbərsiz şəxslərdir, əks halda, onlar inkar yolunu tutmazdılar. Bu məsələ dəfələrlə təcrübə olunmuşdur. Qeyd edilənlərdə məqsəd ziddiyyət və müxalifətçiliklər müqabilində mülayim rəftar edərək insanlara dini məfhumları daha yaxşı başa salmaq və coşub-daşaraq sərt və şiddətli reaksiyalar göstərməməyi tövsiyə etməkdir.

---

*1. "Nəhcül-bəlağə".*

# 99

## QEYRƏTLİLƏR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِنَّ اللهَ تَعَالَيٰ يُحِبُّ مِنْ عِبَادِهِ الْغَيُورَ

***"Həqiqətən, Allah-taala qeyrətli bəndələrini sevir."[1]***

### Qısa izah

"Qeyrət" məfhumu dinin, vətənin, namus və digər ilahi nemətlərin qorunmasına nisbətdə vəfadarlıq mənasını özündə əks etdirir. Qeyrətli şəxslər sadalanan məsələlərin qorunmasında özünü məsuliyyətli və cavabdeh şəxs kimi hiss edən və digərlərinin onun hədlərinə qarşı təcavüzkarlığından narahat olan kəslərdir.

Qeyrət ilahi şəxsiyyət və peyğəmbərlərin ən ali xüsusiyyətlərindən biri sayılır. İslam Peyğəmbəri (s) bütləri sındıran həzrət İbrahim (ə) barəsində belə buyurmuşdur:

"Cəddim İbrahim qeyrətli idi. Mən isə ondan da qeyrətliyəm!"[2]

Qeyrət yadların hücumları qarşısında möhkəm bir səddir. Qeyrətli insanr və millətlər yadellilər qarşısında öz vətənləri, namus və onlara mənsub ilahi nemətləri müdafiə edir və qoruyurlar. Lakin qeyrətsiz insanlar çox

---

*1. "Nəhcül-fəsahə", səh. 152. hədis, 752.*
*2. "Mizanül-hikmə", 3142-ci bab, hədis. 15254.*

asanlıqla düşmən qarşısında təslim olurlar.

# 100

## BƏRƏKƏTLİ VARLIQ

*İslam Peyğəmbəri (ə) buyurmuşdur:*

مَثَلُ الْمُؤْمِنِ مَثَلُ النَّخْلَةِ مَا أَخَذْتَ مِنْهَا مِنْ شَيْءٍ نَفَعَكَ

***“Mömin xurma ağacına bənzəyir, ondan nə götürsən faydalı və xeyirlidir.”[1]***

### Qısa izah

Xurma ağacı doğrudan da, çox bərəkətli ağaclardan biridir. Onun meyvəsi yeyilir və o, qidalanmaq üçün ən yaxşı yeməklərdən sayılır. Bəzən onun çəyirdəyini yandırır, yarpağından isə həsir, papaq, süfrə və s. kimi şeylər toxuyurlar. Xurma ağacının özündən isə sadə bina tikintisində istifadə olunur. Hətta, çayların üzərindən keçmək üçün körpü salınır. Onun çiçəklərindən bir növ faydalı və ətirli cövhər alırlar. Xülasə olaraq demək istəyirik ki, xurmanın faydasız və atılan heç bir hissəsi yoxdur.

İmanlı şəxslər də eynilə xurma ağacı kimidirlər. Onların düşüncələri faydalı, danışıqları xeyirli, oturuşu tərbiyəvi, məktəbləri yaradıcı, dostluq və vədlərində vəfalıdırlar. Xülasə, onların hər bir işi qiymətli və dəyərlidir.

---

*1. “Nəhcül-fəsahə”, səh 564, hədis. 2727.*

# 101

## ƏN YAXŞI ƏLLƏR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

الأَيْدِي ثَلاَثَةٌ؛ سَائِلَةٌ وَ مُمْسِكَةٌ وَ مُنْفِقَةٌ وَ خَيْرُ الْأَيْدِي الْمُنْفِقَةُ

***"Üç növ əl vardır: "Alan, saxlayan və səxavətli əl. Ən yaxşı əl isə səxavətli əldir."[1]***

### Qısa izah

İslam dini ona iman gətirənləri ən yüksək insani səciyyələrə malik olmağa dəvət edərək onları layiqli şəkildə tərbiyə edir. Cəmiyyətdə insanlara bir-birinə qarşı məhəbbət, mehribanlıq göstərməyi, imkan daxilində öz ehtiyaclarının təmini üçün digərlərinə əl açmamağı və izzətli şəkildə həyat sürməyi önərir. Sadəcə digərlərindən nəyi isə istəməyi deyil, əksinə ixtiyarında olan vasitələri digərlərinin istifadəsinə verməyi və onların da faydalana bilməsini təmin etməyi tövsiyə edərək insanları bu cür dünya görüşünə yiyələnməyə dəvət edir. Nəticə olaraq deyə bilərik ki, səxavətli olmaq və digərlərinə yardım bəyənilən və təqdirəlayiq məsələdir.

*1. "Tuhəful-uqul", səh. 32.*

# 102

## YAŞAMAQDAN DAHA YAXŞI VƏ ÖLÜMDƏN BETƏR OLAN ŞEY

*İmam Həsən Əskəri (ə) buyurmuşdur:*

خَيْرٌ مِنَ الْحَيَاتِ مَا إِذَا فَقَدْتَهُ بَغَضْتَ الْحَيَاتَ وَ شَرٌّ مِنَ الْمَوْتِ مَا إِذَا نَزَلَ بِكَ أَحْبَبْتَ الْمَوْتَ

***“ Həyatdan daha yaxşı o şeydir ki, onu itirdiyin zaman yaşamaqdan bezirsən və ölümdən betər o şeydir ki, sənə üz gətirdiyində, özünə ölüm arzulayırsan.”[1]***

### Qısa izah

Bəzi şəxslər ondan üstün dəyərlərin olmasına baxmayaraq, maddi həyatı daha dəyərli hesab edirlər. Həyatda bəzən elə anlar olur ki, insan özünə ölüm arzulayır və elə həqiqətlər də mövcuddur ki, onun üçün şirin candan keçməyə dəyər.

Bu baxımdan, Allah və haqq yolunda şəhid olanlar imam Həsən Əsgərinin (ə) məna dolu sözlərini yaxşı dərk etmiş və həyat onlarla Allah və onun rizayəti arasında fasilə saldığında, ölümü daha geniş və əbədi bir dünya üçün seçmiş və mənəvi məqamlara yetişmək məqsədilə canlarından keçmişlər. Həqiqətdə, həyatdan daha üstün nemətlər və ölümdən də betər müsibətlər mövcuddur.

*1. “Tuhəful-uqul”, səh. 368; “Biharul-ənvar”, c. 75, səh. 374.*

# 103

## MÖMİNLƏ MÜNAFİQ ŞƏXSLƏRİ AYIRAN ƏLAMƏTLƏR

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِذَا رَأَيْتُمُ الْمُؤْمِنَ صَمُوتًا فَادْنُوا مِنْهُ فَإِنَّهُ يُلْقِي الْحِكْمَةَ وَ الْمُؤْمِنُ قَلِيلُ الْكَلاَمِ كَثِيْرُ الْعَمَلِ وَ الْمُنَافِقُ كَثِيْرُ الْكَلاَمِ قَلِيلُ الْعَمَلِ

***“Mömini sükut etdiyi halda müşahidə etsəniz, ona yaxınlaşın ki, ondan hikmətli sözlər eşidərsiniz. İmanlı insanlar əməli çox və azdanışan, münafiqlər isə əməli az və çoxdanışan şəxslərdir.”[1]***

### Qısa izah

İnsnın qüvvəsi naməhdud və tükənməyən deyildir. Bu səbəbdən, öz enerjisini hansısa bir məsələdə həddən artıq sərf etdikdə, digər məsələlərdə onun çatışmazlığını hiss edir. Həqiqətdə, çoxdanışan insanların əməl və iş baxımından az fəaliyyət göstərməsi insanda təəccüb doğurmur. Hər bir yer və hər zamanda müsbət xüsusiyyətlərin tərəfdarı olan İslam peyğəmbəri (s) də az danışmaq, əməl və çalışqanlığı imanlı insanların əlaməti və bunun əksini isə, yəni çox danışıb az əməl etməyi münafiqlərin nişanələrindən olduğunu buyurur. Bu xüsusiyyətlər möminlərlə münafiqləri bir-birindən fərqləndirən xüsusiyyətlərdir.

*1. “Tuhəful-uqul”, səh. 296.*

# 104

## ƏN YAXŞI MİRAS

*İmam Əli (ə) buyurmuşdur:*

خَيْرُ مَا وَرَّثَ الْآبَاءُ الْأَبْنَاءَ الْأَدَبُ

***“Aataların övladları üçün geridə qoyduğu ən yaxşı miras ədəbdir.”*[1]**

### Qısa izah

“Ədəb” sözü “gözəl rəftar”, “ehtiramla yanaşı olan münasibətlər” mənasını ifadə edir. Bu məsələ bəzən insanların bir-biri, bəzən də insanla Allah arasında özünü büruzə verir və hər iki halda insanın bütün sahələrdə müvəffəqiyyətə nail olması sirlərindən biri və ona əta edilən ən yaxşı sərmayələrdən sayılır. Elə bu səbəbdən, həzrət Əli (ə) ataların övladları üçün miras qoyduğu ən yaxşı irsin “ədəb” olduğunu vurğulayır və onun vəhdət, dostluq, məhəbbət və ictimai fəaliyyətlərdə təsirli olan ən mühüm amil olduğunu diqqətə çatdırır. Biz də özümüz və gələcək nəsli təşkil edən övladlarımızın ədəbli olmasına çalışmalıyıq.

*1. “Ğurərul-hikəm”, c. 3, səh. 438.*

# 105

## MÜSTƏQİL DÜŞÜNCƏYƏ EHTİRAM

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

بِئْسَ الْقَومُ قَوَمٌ يَمْشِي الْمُؤْمِنُ فِيهِمْ بِالتَّقِيَّةِ وَ الْكِتْمانِ

***"Möminin onlar arasında çarəsizlikdən təqiyyə və məxfi şəkildə həyat sürdyü qövm ən pis qövmdür."[1]***

### Qısa izah

Adətən, etiqad və dini əqidələri pünhan şəkildə saxlayaraq gizlətmək cəmiyyətin müəyyən bir təbəqəsinin digərlərinin azad şəkildə öz düşüncələrini bildirməyə imkan vermədikdə meydana çıxır. Məlum məsələdir ki, belə bir cəmiyyət xoşbəxtlik və səadətə nail olmayacaqdır.

Əməlisaleh insanların öz etiqad və düşüncələrini cəmiyyətdə azad və müstəqil şəkildə bəyan edə bilməsinə imkan yaradılmalı və avam insanlar bu sahədə onlara mane olmamalıdırlar. Əksinə, çalışmalıdırlar ki, belə insanlardan istifadə edərək ictimai həyat və rifah halını daha da yaxşılaşdırsınlar. İnsanlar ictimai kütlə arasında mütəfəkkir və əql sahibləri olan kəslərə daim ehtiram etməli və onların ali və bəyənilən düşüncələrinin inkişaf və tərəqqisinə yardım edərək zəminə yaratmalıdırlar ki, gələcəkdə ondan bəhrələnə bilsinlər.

---

*1. "Nəhcül-fəsahə", səh. 218.*

# 106

## MÖMİN İNSANLAR ALTI XİSLƏTDƏN UZAQDIRLAR

*İmam Sadiq (ə) buyurmuşdur:*

سِتَّةٌ لا تَكُونُ فِي مُؤْمِنٍ؛ الْعُسْرُ وَ النَّكْدُ وَ الْحَسَدُ وَ اللَّجَاجَةُ وَ الْكِذْبُ وَ الْبَغْيُ

***"Mömin şəxsdə altı xislət olmaz: ifrat tələbkarlıq, pis rəftar, həsəd, inadkarlıq, yalan və haqsızlıq."*[1]**

### Qısa izah

İmanlı olduğunu iddia edərək sadəcə "imanlıyam" demək mömin olmağa kifayət etmir. Mömin və imanlı şəxslərdə yuxarıda qeyd edilən altı xislət olmamalıdır. Sadalanan xüsusiyyətlər həqiqətdə, insanların bir-birinə nisbətdəki ictimai münasibətlərinə qayıdır. Bu müqəddəs adı (mömin adını) qəbul edən həqiqi möminlər xoşəxlaq, ədalətli, doğru danışan, digərləri ilə razılaşa bilən və haqq qarşısında təslim olan kəslərdir. İndi isə özümüzdəki xüsusiyyətlərə diqqət edərək mömin olub-olmadığımızı müəyyən etməyə çalışaq. Əgər həqiqətən də möminiksə, bizə toviq əta etdiyi üçün Allaha şükr edək, yox, əgər bu sifətlər bizdə varsa, onların aradan qaldırılması üçün bizə yardım etməsini Allahdan diləyək.

---

*1. "Tuhəful-uqul", səh. 282.*

# 107

## PƏRDƏLƏRİ YIRTMA

*İmam Sadiq (ə) buyurmuşdur:*

اِتَّقِ اللهَ بَعْضَ التُّقَي وَ اِنْ قَلَّ وَ دَعْ بَيْنَكَ وَ بَيْنَهُ سِتْرًا وَ اِنْ رَقَّ

***"Az da olsa Allahdan qorx və təqvalı ol! Özünlə Allah arasında nazik də olsa, pərdə saxla!"[1]***

### Qısa izah

Bəzi insanlar günah və xəta istiqamətində addımlayan zaman, günaha doğru o qədər tələsik yüyürürlər ki, bununla da Allahla öz aralarında olan bağlılıqları tamamilə məhv edirlər. Belə insanlar qayıtmaq üçün geridə qalan bütün körpüləri dağıdır və açıq olan bütün qapılarıöz üzlərinə bağlayırlar.

İmam Sadiq (ə) yuxarıda xatırladılan hikmətli sözlərində buyurur ki, az da olsa belə, geriyə qayıtmaq yolunu öz üzünə bağlayaraq həya pərdələrini yırtma ki, bir gün peşman olsan, qayıda biləsən. Vay olsun o kəslərə ki, peşman olduqları vaxt bütün qayıdış yolları üzlərinə bağlı olmuş olsun!

1. *"Tuhəful-uqul", səh. 268.*

# 108

## HƏQİQİ İBADƏT

*İmam Əli (ə) Kumeylə buyurdu:*

يَا كُمَيْلُ، لَيْسَ الشَّأْنُ اَنْ تُصَلِّيَ وَ تَصُومَ وَ تَتَصَدَّقَ، اَلشَّأْنُ اَنْ تَكُونَ الصَّلاَةُ بِقَلْبٍ نَقِيٍّ وَ عَمَلٍ عِنْدَ اللهِ مَرْضِيٍّ وَ خُشُوعٍ سَوِيٍّ

***“Ey Kumeyl! Təkcə oruc tutmub namaz qılmağın və Allah yolunda pul xərcləməyin mühüm deyil, əksinə mühüm odur ki, namaz və digər ibadətlərdə pak niyyətli, Allah dərgahına layiqli və təvazökarcasına olasan.”[1]***

### Qısa izah

Əməllərin həqiqi xüsusiyyəti onun keyfiyyət və necəliyini bildirən amillərlə təyin edilir və məsələ əməlin zahir və miqdarını deyil. Bu cəhətdən, həzrət Əli (ə) səhabəsi Kumeylə əməlin zahir və miqdarına deyil, onun keyfiyyəti, pak və xalis niyyətlə həyata keçirilməsinə diqqət etməsini tövsiyə edir.

Pak və xalis niyyətlə qeyd edilənləri ələ gətirmək mümkündür. Həmçinin, Allahın razılığını qazanmaq və insan ruhunu kamilləşdirmək üçün əməlləri qəlbi ayıqlıq, xuzu və xuşu ilə yerinə yetirmək zəruridir.

*1. “Tuhəful-uqul”, səh. 117.*

# 109

## ÖZ EYBİNİ UNUTMA

*İmam Sadiq (ə) buyurmuşdur:*

اِذَا رَأَيْتُمُ الْعَبْدَ يَتَفَقَّدُ الذُّنُوبَ مِنَ النَّاسِ نَاسِيًا لِذَنْبِهِ فَاعْلَمُوا اَنَّهُ قَدْ مُكِرَ بِهِ

***"Öz günahlarını unudub camaatın günah və eyiblərini arayan və hər bir şeyə irad tutan bir şəxsi müşahidə etdikdə, bilin ki, o, ilahi cəzaya mübtəla olmuşdur."[1]***

**Qısa izah**

İnsanların əksəriyyəti cəmiyyətin digər üzvlərində eyib axtarmaq, onların yanlış və xətalarına diqqət etməkdə mahir və uzaqgörəndirlər. Amma özlərinin səhv və xətalarını unutmuşlar. Məşhur məsələ əsasən, onlar "öz gözündə tiri görməyib başqalarında tük axtaran kəslər"in timsalındadırlar.

Belə şəxslər özlərindən xəbərsiz, təkəbbürlü və eqoist insanlardır və həmin xislətlərin nəticəsində "özünü unutmaq" xəstəliyinə düçar olmuşlar. Bu isə həqiqətdə, ilahi cəzadır.

İnsanlar digərlərini islah etməzdən öncə, özlərindəki mənfi xüsusiyyətləri aradan qaldırmalı, daha sonra başqalarını tərbiyə etməyə çalışmalıdır.

---

*1. "Tuhəful-uqul", səh. 271.*

# 110

## BÖYÜK İŞGƏNCƏ

*İmam Sadiq (ə) buyurmuşdur:*

مَنْ سَاءَ خُلْقُهُ عَذَّبَ نَفْسَهُ

***"Əxlaqı pis olan şəxslər özlərinə işgəncə verirlər."*[1]**

### Qısa izah

Adətən, bədəxlaq, qaş-qabaqlı və pis rəftarlı şəxslərin öz qohum-əqrəba, dost-tanışlarına əziyyət etdiyini deyirlər. Əslində isə, belə şəxslər ilk növbədə özlərinə işgəncə verərək həyatın gözəl nemətlərindən zövq ala bilmir və digərləri ilə ünsiyyətdən məhrum olaraq həyatlarını cəhənnəmə çevirirlər. Sadalanan xüsusiyyətli insanların ömrü qısa, ruhiyyəsi narahat və cisimləri də əzab içərisindədir və fəqət özlərinə əziyyət verirlər.

Xoş əxlaqlı olmaq ibadətdən sayılır və İslam dinində ona çox əhəmiyyət verilmiş, hətta, cənnətə daxil olmaq amillərindən biri kimi qeyd olunmuşdur.[2]

---

*1. "Tuhəful-uqul", səh. 270.*
*2. "Quranda əxlaq", c. 3, səh. 145.*

# 111

## QURANIN YENİLİK VƏ TƏRAVƏTİ

*İmam Rza (ə) buyurmuşdur:*

اِنَّ اللهَ تَعَالَيٰ لَمْ يَجْعَلِ الْقُرآنَ لِزَمَانٍ دُونَ زَمَانٍ وَ لا لِنَاسٍ دُونَ نَاسٍ فَهُوَ فِي كُلِّ زَمَانٍ جَدِيدٌ وَ عِنْدَ كُلِّ قَوْمٍ غَضٌّ اِلَيٰ يَوْمِ الْقِيَامَةِ

***"Allah-taala Quranı müəyyən bir cəmiyyət və ya xüsusi bir zaman üçün göndərməmişdir. Buna görə də, o, qiyamət gününə qədər hər zaman yeni və hər bir cəmiyyət üçün təravətlidir."[1]***

### Qısa izah

Bu sözlər imam Rzaya (ə) verilən "Nə üçün Qurandakı sözlərin mənası dəfələrlə oxunmasına baxmayaraq köhnəlmir və həmişə təravətlidir?" sualına cavab olaraq bildirilmişdir. O həzrət bu sözləri ilə Quranın həqiqətinin dolğun mənasına işarə edərək buyurur ki, Quran maddi aləmin yaratdığı və bəşəriyyətin səbatsız, tez ötüb-keçən fikirləri kimi deyildir ki, zaman keçdikcə köhnəlik tozu-onun üzərinə hopsun. Quranın mənşəyi böyük Allahın elmindən qaynaqlanır ki, bu da onun vücudunun əzəli, kəlamının isə zatı kimi əbədi olmasına sübutdur. Bu səbəbdən, hər dəfə Quranı mütaliə etdikdə, yeni və daha maraqlı olur. Bu isə Quranın əzəmət və möcüzəli olduğunu bildirən əlamətlərdən biridir.

---

*1. "Səfinətul-bihar", c. 7, səh. 249.*

# 112

## NƏFSƏ PƏRƏSTİŞ ETMƏKDƏN ÇƏKİN

*İmam Sadiq (ə) buyurmuşdur:*

اِحْذَرُوا اَهْوَائَكُمْ كَمَا تَحْذَرُونَ اَعْدَائَكُمْ فَلَيْسَ شَيْئٌ اَعْدَيْ لِلرِّجَالِ مِنِ اتِّبَاعِ اَهْوَائِهِمْ وَ حَصَائِدِ اَلْسِنَتِهِمْ

***"İnadkar düşmənlərinizdən ehtiyat etdiyiniz kimi, öz nəfsinizdən çəkinin, çünki insana nəfsi istəklərə itaət və dili ucbatından hasil olanlar kimi düşmən olanı yoxdur.."***[1]

### Qısa izah

Daxili düşmənlərin xarici düşmənlərdən daha təhlükəli olmasında heç bir şübhə yoxdur. Bu səbəbdən, insanın daxilindəki nəfsi istək və meyillər onu daha çox təsir altına sala və xoşagəlməz nəticələrin yaranmasına gətirib çıxara bilər. Nəticədə, nəfsin insan üüçün ən təhlükəli düşmən hesab edildiyini söyləyə bilrik. Nəfsə pərəstiş insanın gözünü kor, qulağını kar edərək əqlin nurunu aradan aparır və həqiqətlərin simasını onun nəzərində fərqli şəkildə cilvələndirir və nəhayət, insanı fəsad ucurumuna tərəf sürükləyir. Eyni zamanda, əgər insan dilinə yiyəlik etməz və onu sərbəst buraxarsa, dil qarşısına çıxan hər kəsi sancan ilana çevrilər və insan üçün böyük problemlərin yaranmasına yol açar.

*1. "Səfinətul-bihar", c. 8, səh. 729.*

# 113

## TƏNHA YOL ŞİƏ OLMAQDIR

*İmam Baqir (ə) Cabir Cöfiyə buyurdu:*

بَلِّغْ شِيعَتِي عَنِّي السَّلاَمَ وَ اَعْلِمْهُمْ اَنَّهُ لا قَرَابَةَ بَيْنَنَا وَ بَيْنَ اللهِ عَزَّ وَ جَلَّ وَ لا يُتَقَرَّبُ اِلَيْهِ اِلَّا بِالطَّاعَةِ لَهُ

***"Mənim salamımı şiələrimə çatdır və onlara söylə ki, bizimlə Allah arasında heç bir qohumluq əlaqəsi yoxdur. Allaha yaxınlaşmaq üçün yeganə yol ona itaətdir."*[1]**

### Qısa izah

Bir sıra insanlar sadəcə peyğəmbər ailəsinə məhəbbət bəsləmək və şiəlik iddiasında olmağın onların nicat və səadətə yetişməsi üçün kifayət edəcəyini güman edirlər. Sanki bu cür iddia etməklə onlar imamların qohum və yaxınlarına çevriləcəklər və guya, imamlarla Allah arasında xüsusi imtiyazlara malik qohumluq əlaqəsi var və beləliklə, onlar həmin imtiyazları işə salaraq tərəfbazlıq edəcəklər. Həqiqətdə isə Allahla onun məxluqatı arasında hakim olan yeganə irtibat və əlaqə vəzifəyə əməl etmək və Allaha itaətdir. Yəni, kimliyindən asılı olmayaraq Allaha itaət edən kəslər ona daha yaxın və günah edənlər də daha uzaq olan şəxslərdir.

---

*1. "Biharul-ənvar", c. 68, səh. 179.*

# 114

## SƏRVƏTLƏRLƏ ONUN İSTİFADƏSI ARASINDAKI UYĞUNLUQ

*İmam Əli (ə) buyurmuşdur:*

مَنْ يَكْسِبُ مَالاً مِنْ حَقِّهِ يَصْرِفُهُ فِيْ غَيْرِ أَجْرِهِ

***"Mal-dövləti qeyri-şəri və haram yolla qazanan kəslər onu ilahi mükafat olmayan yerlərə sərf edərlər."***[1]

### Qısa izah

Çamaat arasında yayılmış "hər mal və sərvət xeyirli işlər və quruculuq üçün sərf olunmağa layiq deyil" kimi sözlərə yuxarıda qeyd edilən hədis yazılı sənəddir. Həqiqət də söylənilənləri təsdiqləyir. Həyatda bəzi insanların öz sərvətləri ilə hansısa bir xeyirli işdə iştirak etmək istədiyini, lakin sonuna qədər yolu davam etdirməyə müvəffəq olmadığını və ya müvəffəq olarsa da, nəzərdə tutulan işin sonunda müsbət deyil, mənfi təsir qoyduğunu müşahidə etmişik. Onlardan fərqli olaraq, pəhrizkar və imanlı şəxslərin azacıq sərmayələr ilə xalqa böyük xidmətlər edə bilməsi də nəzərdən qaçırılmamışdır. Yəni, qeyri-şəri mal və sərvətlərin xeyirli işlərə sərf olunacağını gözləmək olmaz.

1. *"Tuhəful-uqul", səh. 63.*

# 115

## HAQLA-BATİLİ AYIRA BİLƏN VƏ ƏN DOĞRU DANIŞAN ŞƏXS

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

لِكُلِّ اُمَّةٍ صِدِّيقٌ وَ فَارُوقٌ وَ صِدِّيقُ هٰذِهِ الْأُمَّةِ وَ فَارُوقُهَا عَلِيُّ ابْنُ أَبِي طَالِبٍ(ع)

***"Hər bir ümmətin düzdanışan və haqla-batili ayırd edəni olduğu kimi, bu ümmətin də düzdanışan və haqla-batili ayırd edəni Əli ibn Əbu Talibdir."[1]***

### Qısa izah

İslami məktəb kimi əbədi və əsaslı bir məktəb öz proqramlarını təkmilləşdirmək üçün İslam peyğəmbərinin (s)– o həzrət risalətinin müəyyən illərini müxtəlif qəbilə və tayfalardan ibarət olan inadkar düşmənlərlə mübarizəyə sərf etmişdir – vəfatından sonra həmin məktəbin sirr və rəmzləri ilə tanışlığa malik bir şəxsin peyğəmbərin yolunu davam etdirməsinə ehtiyaclıdır. O şəxs elə biri olmalıdır ki, "haqla-batili ayırd edən" (faruq) və "siddiq" (ən doğru danışan) kimi adlara ləyaqəti çatsın, eyni zamanda, dini həqiqətləri bəyan edə bilsin. Yəni, camaatın qarşısına İslamın ilkin rəhbərindən (Peyğəmbərdən (s)) sonra hansısa bir çətinlik çıxsa, onu asanlıqla həll edə bilsin. Qeyd edilən hədisə əsasən, həmin şəxsin həzrət Əli (ə) olduğu açıq-aşkar məlumdur.

*1. "Biharul-ənvar", c. 38, səh. 112.*

# 116

## EVİN İDARƏSİNDƏ HƏMKARLIQ

*İmam Sadiq (ə) buyurmuşdur:*

كَانَ أَمِيرَ الْمُؤْمِنِينَ عَلَيْهِ السَّلاَمُ يَحْتَطِبُ وَ يَسْتَقِي وَ يَكْنِسُ وَ كَانَتْ فَاطِمَةُ تَطْحَنُ وَ تَعْجِنُ وَ تَخْبِزُ

***"Həzrət Əli (ə) biyabandan odun toplayar, su gətirər və (evdə) təmizlik işləri görər, xanım Fatimə (ə) isə un ələyib xəmir yoğurar və çörək bişirərdi."[1]***

### Qısa izah

Bu qısa hədisdə İslam rəhbəri Əmirəl-Möminin Əli (ə) və dünya qadınlarının xanımı olan həzrət Fatimeyi-Zəhranın (ə) ruhunun əzəməti, təvazökarlıq və səmimiyyəti aydın şəkildə öz əksini tapmışdır. Onların yaşayışı olduqca sadə, nöqsansız və eyni zamanda, səfa, səmimiyyət və həmkarlıqla birgə idi. İş görmək onların heç biri üçün eyib sayılmırdı. Həmçinin, əməkdaşlıq və qarşılıqlı anlaşma onların müştərək həyatı üçün başlıca amil hesab edilirdi. Təvazökarlıq onların ən böyük üstünlüyü idi. Kaş, o böyük şəxsiyyətlərin ardıcılları onlar kimi həyatlarında səmimi və mehriban ola biləydi!

---

*1. "Biharul-ənvar", c. 43, səh. 151.*

# 117

## BİR SAAT ƏDALƏTLİ OLMAĞIN DƏYƏRİ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

عَدْلُ سَاعَةٍ خَيْرٌ مِنْ عِبَادَةِ سَنَةٍ

***"Bir saat ədalətli olmaq bir ilin ibadətindən üstündür."***[1]

### Qısa izah

İbadət məxluqla xaliq arasındakı rabitə və həmin rabitə və ünsiyyətə diqqət etməkdən ibarətdir. İbadətlər insanın təfəkkür və ruhunun təkmilləşdirilməsinə yardımçı və mühüm rola malik olan tərbiyəvi dərslərdir. Hədisdə bir saatlıq ədalətli olmağın bir illik ibadətdən üstün olduğu qeyd edilmişdir. Bəzi hədislərdə isə bir saatlıq təfəkkürün bir illik ibadətə bərabər olması da vurğulanmışdır.[2]

Bütün bu izahların hamısı ədalət və təfəkkür amillərinin həddən artıq əhəmiyyət daşıdığını və ona önəm verilməsini açıqlayır. Nəzərdən qaçırılmamalıdır ki, ədalət olmayan yerdə fikir, təfəkkür və əql də mövcud olmayacaqdır. Amma əksinə, sağlam təfəkkür olan yerdə ədalət də mövcuddur.

---

*1. "Nəhcül-fəsahə", səh, 410, hədis. 1936.*
*2. "Mizanul-hikmə", c. 7, səh. 543.*

# 118

## HƏQİQİ HƏKİM

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

الطَّبِيبُ اللهُ وَ لَعَلَّكَ تَرْفِقُ بِأَشْيَاءَ تَخْرِقُ بِهَا غَيْرَكَ

***"Həqiqi təbib Allahdır. Sənin üçün xeyirli olan şeylər mümkündür başqalarına zərərli olsun."[1]***

### Qısa izah

İnsan həyatında baş verən kədərli hadisələr adətən, onun tədbirsiz olması və ya pis seçim etməsi, yaxud da pis niyyətli olmasından qaynaqlanır.

Lakin bəzən zahirdə xoşagəlməyən hadisələr baş verir ki, bu amillərdən heç biri onun yaranmasında hansısa bir rola malik deyil. Həqiqətdə isə həmin hadisələr həkim olan Allah tərəfindən insan üçün məsləhət bilinmiş və acı olmasına baxmayaraq, müalicəvi əhəmiyyətlidir, yəni bəzi vaxtlar insanın qəflətdən oyanması üçün xəbərdarlıq zəngi, bəzən bacarıqsız və zəifliyə diqqət yetirmək, bəzən də təkəbbür və qürurunun uzaqlaşdırılması, eyni zamanda, günahlarının kəffarəsi üçündür.

*1. "Nəhcül-fəsahə", səh 406.*

# 119

## PEYĞƏMBƏRİN CANİŞİNLƏRİ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

لا يَزَالُ هٰذَا الدِّينُ عَزِيزًا مَنِيعًا إِلَيٰ إِثْنَي عَشَرَ خَلِيفَةً... كُلُّهُمْ مِنْ قُرَيْشٍ

***"Hamısı Qüreyş qəbiləsindən olan on iki canişin (imam) rəhbərlik etdiyi vaxta qədər bu din izzətli və başıuca, həmçinin, düşmənlərin əlindən amanda olacaqdır."[1]***

### Qısa izah

Peyğəmbərin (s) on iki nəfərdən ibarət olan canişinləri barəsində əhli-sünnənin "Səhih Buxari", "Səhih Müslim", "Səhih Tirmizi", " Səhih Əbu Davud" və " Musnədi-Əhməd" kimi ən mötəbər kitablarında və həmçinin, digər mənbələrdə tamamilə aydın və açıq-aşkar hədislər nəql olunmuşdur. Şiə və əhli-sünnə alimləri tərəfindən bu hədislərin ümumi sayının iki yüz yetmiş birə yetişdiyi bildirilmişdir.

Qeyd edilən hədislərin İslam peyğəmbərindən (s) sonra on iki nəfərdən ibarət olan o həzrətin həqiqi canişinlərindən (məsum imamlardan) başqa, hakimiyyət və xilafəti ələ keçirən heç bir xəlifəyə – istər üçlük təşkil edən ilk xəlifələr, istərsə də, Bəni-Üməyyə və Bəni-Abbas xəlifələri – şamil olmayaraq onlara tətbiq olunmaması insanda təəccüb doğurur. Bu baxımdan, həmin hədislərin təfsir və izah edilməsi ilə bağlı əhli-

*1. "Əl-münaqib", c. 1, səh. 290.*

sünnə alimləri çıxılmaz vəziyyətlə üzləşməli olmuşlar. Amma şiə məktəbində onların təfsir və izahı tamamilə aydındır.

# 120

## GÜNAH MƏCLİSİ

*İmam Sadiq (ə) buyurmuşdur:*

لا يَنْبَغِي لِلْمُؤْمِنِ أَنْ يَجْلِسَ مَجْلِسًا يُعْصَي اللهُ فِيْهِ وَ لا يَقْدِرُ عَلَيَ تَغْيِيرِهِ

***"Möminlərə islah edilməsinə qüdrətləri çatmayacaq günah məclislərində iştirak etmək yaraşmaz."[1]***

### Qısa izah

İnsanın günah etməməsi və məclis əhli ilə həmahəng olmamasına baxmayaraq, günah məclisində iştirak etməsinin özü də günah sayılır. Çünki həmin məclislərdə iştirak əməldə onların təsdiqlənməsi deməkdir. Amma əmr be məruf (yaxşı işlərə dəvət) və nəhy əz münkər (pis işlərdən çəkindirmək) kimi bir vəzifənin həyata keçirilməsi və məclis əhlini günahdan çəkindirmək hədəfi ilə olarsa, bu zaman həmin məclisdə iştirak etməyə icazə vardır. Əlavə olaraq, insanın günaha aludə səhnələri müşahidə etdikdə öz etirazını bildirməməsi onun ruhiyyəsi və mənəviyyatında mənfi təsir qoyaraq qəlbinə qaranlıq gətirir və yavaş-yavaş günahların çirkinliyi onun nəzərində azalaraq günaha adət edir. Əksər hallarda narkotik maddələr, alkoqol içkilər və qumara adət edən kəslərin belə məclislərdə iştirak etməklə həmin məsələlərə tədricən adət etməsi müşahidə olunmuşdur. Nəticədə, qeyd edilən hədisin həqiqəti bəlli olur.

---

*1. "Üsuli-kafi", c. 2, səh. 374.*

# 121

## ƏKİNÇİLİK VƏ BAĞBANLIQ

*İmam Sadiq (ə) buyurmuşdur:*

إِزْرَعُوا وَ أَغْرِسُوا وَاللهِ مَا عَمِلَ النَّاسُ عَمَلاً أَحَلَّ وَ لا أَطْيَبَ مِنْهُ

***“Əkinçiliklə məşğul olun və ağac əkin. Allaha and olsun ki, camaat ondan halal və təmiz iş görməyib!”[1]***

### Qısa izah

İnsanların yaşayışının təməli əkinçilik və ticarət üzərində qurulmuşdur, hətta, sənaye istehsalı bəzən əkinçiliksiz həyata keçmir və ona lazım olan xammal əkinçilik vasitəsilə əldə olunur. Eyni zamanda, ustehsalın digər sahələrində fırıldaqçılıq və saxtakarlığa yol verildiyi halda, əkinçilik sahasində bunları həyata keçirmək mümkün deyil. Çünki əkinçilikin inkişafı təbii amillər və insanların həqiqi zəhmətinə əsaslanır və sonunda, zəhmətsiz heç bir nəticə hasil olmur. Qeyd edilən hədis bu səbəbdən əkinçilik və bağbanlığa xüsusi əhəmiyyət verərək bu sahədə əldə olunan gəlirin pak və hala olduğunu vurğulayır.

---

*1. “Səfinətul-bihar”, c. 3, səh. 464.*

# 122

## ÖMRÜN UZUN VƏ QISA OLMASI

*İmam Əli (ə) buyurmuşdur:*

مَوْتُ الْإِنْسَانِ بِالذُّنُوبِ أَكْثَرُ مِنْ مَوْتِهِ بِالْأَجَلِ وَ حَيَاتُهُ بِالْبِرِّ أَكْثَرُ مِنْ حَيَاتِهِ بِالْعُمْرِ

***"Günahların təsiri nəticəsində insanların qəfil ölümü onların təbii ölümündən və xeyirxah işlərinə görə ömürlərinin uzun olması təbii ömürlərindən çoxdur."[1]***

### Qısa izah

Şübhəsiz ki, bir çox günahlar və çirkin sifətlərə malik olmaq (içki içmək, qumar oynamaq, paxıllıq etmək, həsəd aparmaq və kin saxlamaq) kimi səbəblər insan ömrünü qeyri-təbii şəkildə qısaldır, həmçinin, sələm yemək və zülm etmək kimi əksər günahlar da ictimai münasibətlərin pozulması, müharibələrin baş verməsinə gətirib çıxarır və ümumi asayiş və əmniyyətin aradan qalxmasında öz təsirini qoyur.

Digər tərəfdən isə xeyirxahlıq etmək insanın ruhu və vicdanının rahatlığında dərin təsirə malik olduğu üçün, uzun ömrün mənşəyinə çevrilə bilir. Beləliklə, yaxşılıq və xeyir əməllər insanın ömrünü uzatdığı kimi, günah mənəvi zərərlərə malik olmaqla yanaşı, insan ömrünün qısalmasına da səbəb olur.

---

*1. "Səfinətul-bihar", c. 3, səh. 217.*

# 123

## ŞEYTANLA HƏMKARLIQ

*İmam Əli (ə) buyurmuşdur:*

لا تَسُبَّنَّ إِبْلِيسَ فِي الْعَلاَنِيَةِ وَ أَنْتَ صَدِيقُهُ فِي السِّرِ

***"Şeytanla batində dostluq etdiyin halda, ona aşkar şəkildə lənət və nifrin etmə."***[1]

### Qısa izah

Bir sıra insanların "fəqirlik", "şeytan", "nifaq" və buna bənzər digər sözlərdən açığı gələrək onlardan çəkindikləri halda, həmin məsələlərdə qərq olduğunu müşahidə emək mümkündür. Bəzi varlıların fəqirlikdən qorxduqları üçün yoxsullar kimi yaşadığı, zahirdə yüz dəfə münafiqlərə lənət göndərdiyi halda, öz həyatının başdan-başa nifaqla dolu olduğu və ömrünü ikiüzlülükdə keçirən insanlar görülməkdədir.

Həmçinin, elə şeytansifətli adamları da tanıyırıq ki, həmişə camaat arasında şeytanın şəri və vəsvəsəsindən Allaha pənah aparmaqla bağlı zikr və dua dillərindədir. Amma həqiqətdə, belə insanlar batinlərində şeytanla dostluq edir və öz şeytani planlarını necə həyata keçirməklə bağlı tədarük görürlər. Həmin şəxslərin həqiqətdə yox, dildə şeytanla düşmənçilik etdiyini deyə bilərik. Əmirəl-Möminin Əli (ə) öz sözlərilə sanki onlara xəbərdarlıq edir ki, öz batinlərinə diqqət etsinlər

1. *"Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, c. 20, səh. 329. hədis, 767*

və sadəcə dildə şeytana lənət göndərməsinlər ki, əks təqdirdə, onların şeytana lənət oxumaları özlərinə də şamil olar.

# 124

## MƏŞVƏRƏT EDİN Kİ, HİDAYƏT OLASINIZ

*İmam Müctəba (ə) buyurmuşdur:*

مَا تَشَاوَرَ قَوْمٌ إِلَّا هُدُوا إِلَيٰ رُشْدِهِمْ

***"Yalnız bir-birilə məsləhətləşən cəmiyyət xeyir və hidayətə yetişər."*[1]**

### Qısa izah

Kollektiv şəkildə işləmək hər yerdə xeyir-bərəkət, tərəqqi və inkişafa səbəb olur. Xüsusilə, əqli məsələlər, proqramların tənzimlənməsi, problemlərin həlli, həmçinin, həmrəylik məşvərət zamanı olduqca böyük təsirə malikdir. Təkcə şəxsi fikirlərini mütləq sayan kəslər yaşayışlarında həddən artıq səhvlərə yol verən və zərərə uğrayan şəxslərdir. Digərlərinin düşüncə və nəzərinə əhəmiyyət vermək lazımdır, çünki onların ağlına gələn parlaq fikir sənin zehninə gəlməyə bilər.

Nəticədə, insan ona dəyəbiləcək zərərlərin qarşısını almaq və xeyrinə olan şeylərin nə olduğunu bilməsi üçün alim və təcrübəli şəxslərin məşvərətinə ehtiyaclıdır.

---

*1. "Tuhəful-uqul", səh. 164.*

# 125

## SALAM VERMƏK İSLAMIN NİŞANƏSİDİR

*İmam Hüseyn (ə) buyurmuşdur:*

لِلسَّلاَمِ سَبْعُونَ حَسَنَةٌ تِسْعٌ وَ سِتُّونَ لِلْمُبْتَدِي وَ وَاحِدَةٌ لِلرَّادِّ

***"Salamın yetmiş savabı vardır və onun altmış doqquzu salam verənin, biri isə cavab verənin payına düşür."[1]***

### Qısa izah

Müxtəlif millətlər arasında salamlaşmanın olmasına baxmayaraq, İslamda verilən salamın xüsusi məna və əhəmiyyəti vardır. Yəni, salam verməklə qarşı tərəfə "xoşgəldin" deyilir, ona dostluq və mehribanlıq bildirilir, eyni zamanda, Allahdan sağlamlıq və səfa nəsib olması istənilir.

Qurani-Kərimdə də salam verilməsinə əhəmiyyət verilmiş və cənnət əhlinin bir-birinə dedikləri sözlərin salamdan ibarət olduğu bildirilmişdir.[2] Həmçinin, rəhmət mələkləri də təqvalı və pak insanı salamlamaq üçün onları qarşılamağa tələsirlər.[3]

Təəssüflər olsun ki, bəzi müsəlmanlar salam söyləməklə şəxsiyyətlərinin alçalacağını və soyləməməklə isə özlərinin uca olduğunu güman edərək bu cür gözəl adət və onun ilahi feyz və bərəkətindən məhrum olurlar.

Unutmayaq ki, salamın yetmiş savabından altmış

*1. "Tuhəful-uqul", səh. 177.*
*2. "Yunis "surəsi,,ayə 10.*
*3. "Rəd" surəsi, ayə 24.*

doqquzu salam söyləyənin, biri isə ona cavab verənindir.

# 126

## İDDİADAN ƏMƏLƏ DOĞRU

*İmam Səccad (ə) buyurmuşdur:*

اَلا وَ اِنَّ اَبْغَضَ النَّاسِ اِلَي اللهِ مَنْ يَقْتَدِي بِسُنَّةِ اِمَامٍ وَ لاَ يَقْتَدِي بِاَعْمَالِهِ

***"Bilin ki, Allah dərgahında ən mənfur insan hansısa bir şəxsi özünə rəhbər təyin etdiyi halda, əməldə ona itaət etməyəndir. "[1]***

### Qısa izah

İnsanın əqidə və əməlinin bir-birindən ayrı olması onun ən böyük eyiblərindən biridir. Belə şəxslər hansısa bir məsələdə əqidəli olduqlarını iddia etsələr də, lakin əməl məqamında həmin əqidədən heç bir əsər-əlamət görsənmir. Həmçinin, belələri Allaha imanlı olduqlarını söyləsələr də, həqiqətdə, öz əməllərinə qarşı olan daimi nəzarətləri görməzdən gəlirlər. Yəni, qiyamət günü ilahi məhkəmədə mühakimə ediləcəklərinə əqidələrinin olduğunu bildirsələr də, əməldə ona qarşı heç bir tədarük görmürlər. Zahirdə İslam peyğəmbəri (s) və həzrət Əliyə (ə) ehtiram və məhəbbət göstərdiklərini büruzə verən xatırladılan fərdlər əməldə azacıqda olsa belə, özlərini onlara bənzətmir. Bir sözlə, onların əqidə və əməlləri bir-birindən fərqli və qeyri-mütənasibdir.

İmam Səccadın (ə) buyurduqlarına əsasən, belə kəslər Allah dərgahında ən çirkin insanlardır.

---

*1. "Tuhəful-uqul", səh. 202.*

# 127

## İLAHİ CƏZALAR

*İmam Baqir (ə) buyurmuşdur:*

اِنَّ لِلهِ عُقُوبَاتٍ فِي الْقُلُوبِ وَ الْأَبْدَانِ؛ ضَنْكٌ في الْمَعِيشَةِ وَ وَهْنٌ فِي الْعِبَادَةِ وَ مَا ضُرِبَ عَبْدٌ بِعُقوبَةٍ اَعْظَمُ مِنْ قَسْوَةِ الْقَلْبِ

***“Allah insanların ruh və cisimlərini (günahları və itaətsizliklərinə görə) məişətdə sıxıntı və ibadətdə süstlüklə cəzalandırır. Lakin Allah heç bir bəndəni daşqəlblilik və rəhimsizlikdən ağır bir şeylə cəzalandırmayıb!”[1]***

### Qısa izah

İlahi cəzalar əslində əməllərin təzahürü və insanın günahlarının təsir və nəticəsidir. Bu cür mənfi məsələlər özünü bəzən maddi həyatdakı çatışmamazlıqlar, bəzən də ibadətin şirinliyindən məhrum olmaq şəklində büruzə verir. Lakin bundan daha pisi və daha xətərlisi odur ki, insan öz pis əməllərinə qarşı etinasız və daşqəlbli olsun və heç bir reaksiya göstərməsin.

Belə olduqda, şəxs insanlıq simasını itirməyə doğru yönəlir. Əlbəttə, bütün bunların insanın öz mənfur niyyət və çirkin əməl və günahlarının nəticəsi olduğunu unutmamalıyıq.

---

*1. “Biharul-ənvar”, c. 75, səh. 176.*

# 128

## UNUDULMUŞ HƏQİQƏT

*İmam Sadiq (ə) buyurmuşdur:*

لَمْ يَخْلُقِ اللهُ يَقِينًا لاَ شَكَّ فِيهِ اَشْبَهُ بِشَكٍّ لاَ يَقِينَ فيهِ مِنَ الْمَوْتِ

***“Allah (məsələn) ölümə bənzər şəkildə elə bir yəqin yaratmamışdır ki, onun barəsində şəkk edilməsin. Sanki o (ölüm), şəkdən ibarətdir və barəsində yəqin mövcud deyil.”[1]***

**Qısa izah**

Qeyd edilən ifadələr necə də insanın həyatın sonu və ölümdən xəbərsiz olduğunu bildirən təəccüblü cümlələrdir!

Həyatın sona yetəcəyi və insanın da onun üçün müəyyən edilmiş bir iqamətgaha doğru irəliləməli olduğu barədə düşündükdə, bütün şəxslərin – istər hansısa bir dinə etiqadlı olsun, istərsə də dinsiz – zehnində olan şəkk-şübhə ortadan qalxacaq. Amma bəzən insan özünü o qədər karlıq və xəbərsizliyə vurur ki, sanki işin içində nə ölüm var, nə də həyatın sona yetməsi! Bu baxımdan, qarşıda üzləşəcəyi məsələ ilə əlaqədar saleh əməl, iman və təqva ehtiyatı hazırlayaraq tədarük görmür. Bu mövzuya həqiqət nəzərindən yanaşmalı və hansı yaşda olursa-olsun, elə yaşamalıyıq ki, sonunda Allah qarşısında peşman və xəcalət çəkəsi olmayaq.

---

*1. “Tuhəful-uqul”, səh. 271.*

# 129

## ELMİN BƏHRƏSİ

*İmam Kazim (ə) buyurmuşdur:*

اِنَّ الزَّرْعَ يَنْبُتُ فِي السَّهْلِ وَ لا يَنْبُتُ فِي الصَّفَا فَكَذٰلِكَ الْحِكْمَةُ تَعْمُرُ فِي قَلْبِ الْمُتَوَاضِعِ وَ لا تَعْمُرُ فِي قَلْبِ الْمُتَكَبِّرِ الْجَبَّارِ

***"Toxumlar bərk daşlar üzərində deyil, yumşaq torpaqlarda cücərdiyi kimi, elm və hikmət də zülmkar və təkəbbürlü şəxslərin deyil, yalnız təvazökar insanların qəlbində yer tutar."[1]***

### Qısa izah

Təvazökarlıq elm əldə etmək və təhsil almaq yolunda ilk addım sayılır. İnsan haqq, müəllim və elmi ondan çox olan hər bir şəxs müqabilində təvazökarlıq göstərməlidir.

Bu baxımdan, təkəbbür və cahillik bir-birinə yaxındır. Təkəbbürlü insanlar öz nadanlıqlarını etiraf etməyə hazır deyillər.

Belə şəxslər onların təfəkkür və ruhiyyəsi ilə uyğun gəlməyən hansısa bir həqiqətlə barışmamaqla qalmır, hətta, haqq və həqiqətlərlə mübarizə aparmağa çalışırlar. Nəticə etibarı ilə onların daimi olaraq öz nadanlıq və cahilliklərində qalacaqlarını söyləyə bilərik.

*1. "Tuhəful-uqul", səh. 296.*

# 130

## İMAMIN AĞIR VƏZİFƏLƏRİ

*İmam Əliyyibni Musər-Rza (ə) buyurmuşdur:*

اَلْإِمَامُ اَمِينُ اللهِ فِي اَرْضِهِ وَ خَلْقِهِ وَ حُجَّتُهُ عَلَيٰ عِبَادِهِ وَ خَلِيفَتُهُ فِي بِلَادِهِ وَ الدَّاعِي اِلَي اللهِ وَ الذَّابُّ عَنْ حَرِيمِ اللهِ

***"İmam Allahın yer üzərində və onun məxluqları arasındakı əmanətdarıdır. O, bəndələr üzərində Allahın höccəti, şəhərlərdə xəlifəsi, Allaha tərəf dəvət edən carçı və ilahi dəyərlərin müdafiəçisidir."[1]***

### Qısa izah

İmamət məqamını tanıtdıran geniş hədisin qısa bir hissəsi olan bu hədisdə imamın beş mühüm və ağır vəzifələrinə işarə olunmuşdur:

1. İmam ilahi vəhyin qoruyucusu və xəzinədarı olmaqla yanaşı, eyni zamanda, dini maarif, hökmlər və bütün elmlərin müdafiəçisidir.

2. İmam ilahi adət-ənənə və inancların canlı dəlili və şahididir.

3. İmam ilahi işləri idarə edən və nəzarətçi, həmçinin, Allahın camaat arasındakı nümayəndəsidir.

4. İmam yaxşı işlərə dəvət edərək insanları pis işlərdən çəkindirən şəxs və ən böyük dini təbliğçisidir.

5. İmam düşmənlərin hücumu qarşısında ilahi din və inancların müdafiəçisidir.

*1. "Tuhəful-uqul", səh. 328.*

Sadalanan xüsusiyyətlərə malik şəxsin həddən artıq elmli və ismətli biri olduğu məlumdur və belə şəxsi təyin etmək sadəcə Allaha məxsusdur.

# 131

## BAĞLI QAPILAR AÇILIR

*İmam Cavad (ə) buyurmuşdur:*

لَوْ كَانَتِ السَّمَاوَاتُ وَ الْأَرْضُ رَتْقًا عَلَيٰ عَبْدٍ ثُمَّ اتَّقَي اللهَ تَعَالَيٰ لَجَعَلَ اللهُ لَهُ مِنْهَا مَخْرَجًا

***"Yer və göyün qapıları əgər bir şəxsin üzünə bağlanmış olsa və sonradan həmin şəxs təqva və pəhrizkarlığı özünə peşə etsə, Allah onun işləri üçün bir çıxış yolu müəyyən edər."[1]***

### Qısa izah

Bəzən həyatda bütün qapılar insanın üzünə bağlanır və o, hansı tərəfə üz gətirirsə, çətinliklərlə qarşılaşdığını görür. Bu cür hadisələr insanın qəflət yuxusundan oyanması və Allaha tərəf qayıdışı, eyni zamanda, öz həyat və müqəddəratını dəyişməsi üçün olduqca yaxşı fürsətdir. Belə məqamlarda əgər insan Allahdan yardım diləyərək ona tərəf üz tutsa, ilahi rəhmət onun da halına şamil olar və ağıllarına gəlməyən yerdən çətinliklərinin həlli üçün onların üzünə bağlı qapılar açılar.

*1. "Nurul-əbsar", səh. 181.*

# 132

## ŞƏXSİYYƏTSİZ İNSANLARDAN ÇƏKİN

*İmam Hadi (ə) buyurmuşdur:*

مَنْ هَانَتْ عَلَيْهِ نَفْسُهُ فَلا تَأْمَنْ شَرَّهُ

***"Öz şəxsiyyətinə ehtiram etməyən kəslərin şərindən ehtiyalı ol!"*[1]**

### Qısa izah

Fəsad və pis işlərin qarşısının alınmasında mühüm olan amillərdən biri də insanın öz şəxsiyyətinə ehtiram etməsi və ya özünün şəxsiyyətli olduğunu düşünməsidir. Belə insanlar digərlərinin nəzərində səviyyəli hesab edilməsələr də, ən azı öz mövqelərinin qorunması üçün bir sıra xoşagəlməz işləri həyata keçirməkdən çəkinirlər.

Belələrindən fərqli olaraq özünə ehtiram etməyən və abır-həyası olmayanların istənilən çirkin əməllərə mürtəkib olması qaçılmazdır. Bu səbəbdən, imam Hadi (ə) həmin insanların şərrindən ehtiyatlı olmağın zəruriliyini vurğulayır. İnsanlara ehtiram göstərmək və onların şəxsiyyətinə hörmət fəsadın qarşısının alınması, xüsusən, övladların tərbiyəsində əhəmiyyətli rola malikdir və şəxsiyyətin təhqir edilməsi mənfi nəticələrin yaranmasına gətirib çıxarır. Bu baxımdan, atdığımız hər bir addıma diqqət etməli və bir-biimizin şəxsiyyətinə hörmətlə yanaşmalıyıq.

*1. "Tuhəful-uqul", səh. 362.*

# 133

## BÖYÜK CİHAD

*İmam Həsən Əsgəri (ə) buyurmuşdur:*

اَشَدُّ النَّاسِ اجْتِهادًا مَنْ تَرَكَ الذُّنُوبَ

***"İnsanların ən mübarizi günahları tərk edən şəxsdir."*** [1]

### Qısa izah

Bildiyimiz kimi, günahların mənşəyi sayılan nəfsi istək və arzularla mübarizə aparmaq İslam dinində "cihadi-əkbər" (böyük cihad) adlandırılmışdır və bu məsələ öz növbəsində düşmənlərlə qarşı-qarşıya gəlməkdən daha əhəmiyyətli sayılır. Çünki nəfslə mübarizə tərbiyəvi funksiyaya malikdir və insan mənəviyyatının saflaşmasına yardımçıdır. Nəfsi istəklərlə mübarizə aparmadan digər üstün məsələlərdən danışmaq əbəs və yersizdir və əldə edilən qələbələr iftixar sayılmır.

Qeyd edək ki, insanların bir sıra məsələlərdə məğlubiyyətə uğraması onun zəif nöqtələrinin nəticəsidir və onları radan qaldırmaldır. Xüsusən, günaha aludə olmuş mühitlərdə belə bir cihad və mübarizənin dəyəri daha aşkar və həmçinin, ictimai hədəflərə nail olmaq üçün onun əhəmiyyəti daha aydın özünü göstərir. İslam Peyğəmbərinin (s) Mədinədə əldə etdiyi uğurlar, həqiqətdə,, tərbiyə və quruculuğun, Məkkədəki qələbəsi isə Peyğəmbər (s) səhabələrinin

---

*1. "Biharul-ənvar", c. 78, səh. 373.*

rəşadətinin səmərəsi idi. Təqribən, Quranın doxsan surəsi Məkkədə nazil olmuşdur. İslam Peyğəmbəri (s) on üç il ərzində öz səhabə və tərəfdarlarını Quran nuru sayəsində tərbiyələndirmiş, sonra isə Mədinəyə hicrət edərək İslam cəmiyyətinin təməlini qqoymuşdur.

# 134

## İMAM MEHDİNİN (Ə) QEYB DÖVRÜ

*Həzrət Mehdi (ə) buyurmuşdur:*

اَمَّا الْحَوَادِثُ الْوَاقِعَةُ فَارْجِعُوا فِيهَا اِلَي رُوَاةِ حَدِيثِنَا

***"Böyük qeyb dövründə qarşıya çıxan müxtəlif hadisələrdə bizim hədislərimizi nəql edənlərə (alimlər) müraciət edin."[1]***

### Qısa izah

İnsan cəmiyyəti rəhbər və onu idarə edənə malik olmadan düzgün şəkildə formalaşa bilməz. Bu səbəbdən, Allah-taala insanları başlı-başına qoymayaraq onlar üçün müəyyən ilahi rəhbərlət təyin etmişdir. İmam Mehdinin (ə.c) kişik qeyb dövründə o həzrətin xüsusi naibləri, böyük qeyb dövründə isə ümumi naiblər onun özü tərəfindən təyin eilmişlər. Asimani kitab olan Qurani-Kərim və peyğəmbər (s) sünnəsinə agah, həmçinin, Əhli-beyt (ə) məktəbilə tanışlığı olan imanlı və təqvalı şəxslər bu ümmətin idarəçiliyini öz öhdələrinə götürmüş və xalqa xidmət etməkdədirlər.

Bununla yanaşı, kimsə özündən bu məqama layiq olduğunu iddia edərsə, onun iddiası qəbul olunmaz. Çünki imamın (ə) fərmanı yalnız böyük şəxsiyyətlər barəsində verilmişdir.

1. *"Vəsailuş-şiə", c. 18.*

# 135

## PİSLİKLƏRİN MƏNŞƏYİ

*İslam Peyğəmbəri (s) buyurur:*

اِجْتَنِبُوا الْخَمْرَ فَإِنَّهَا مِفْتَاحُ كُلِّ شَرٍّ

***"Şərabdan çəkinin, həqiqətən o, bütün pisliklərin açarıdır."[1]***

**Qısa izah:**

Şərabın zərərli təsirləri zəminəsində çoxlu sayda kitab və məqalələr yazılmasına baxmayaraq, onun bütövlükdə insan orqanizmində, o cümlədən, ürək, qan-damar, əsəb və həzm sistemində, ciyər və böyrəklərdə törətdiyi fəsadların tamamilə şahidi oluruq. Bundan əlavə, statistik göstəricilərə əsasən, cəmiyyətdə şərabın faciəvi nəticələri və bədbəxt hadisələrin baş verməsinə səbəb olması da yüzlərlə alim və mütəfəkkirin tədqiqatında öz əksini tapmışdır. Amma bununla belə, biz İslam Peyğəmbərinin (s) belə qiymətli və əhatəli, həm də qısa bir cümlədə onun bütün xüsusiyyətlərini çatdıran bir kəlamı kimi ifadəni tapa bilmərik. O həzrət şərabın bütün mənfur həqiqətlərini lakonik cümləsində bəyan etmişdir.

Bəli! Şərab bütün pisliklərin, çirkinlik və bədbəxtliklərin açarıdır. Şərab insanda təpədən dırnağa kimi mənfi və iyrənc təsirlər qoyur və insan orqanizmini

*1. "Nəhcül-fəsahə", səh, 12, hədis, 59.*

tamamilə sıradan çıxarır. Həmçinin, şərab bir çox cinayətlərin törəməsində başlıca rol oynayır.

# 136

## VƏZİFƏYƏ ƏMƏL ETMƏK ƏN BÖYÜK İBADƏTDİR

*İmam Səccad (ə) buyurmuşdur:*

مَنْ عَمِلَ بِمَا افْتَرَضَ اللهُ عَلَيهِ فَهُوَ مِنْ اَعْبَدِ النَّاسِ

***"Allahın vacib buyruqlarına əməl edən şəxslər ibadət edənlərin ən üstünüdür."[1]***

**Qısa izah**

İbadət təkcə xalqa xidmət və namaz qılıb oruc tutmağa həsr edilməmişdir. Ən böyük ibadət odur ki, hər kəs bütün sahələrdə öz vacibi vəzifəsinə əməl etmiş olsun. Vəzifəyə əməl etmək necə də əzəmətli və böyük bir ibadətdir!

Bu məsələ istənilən cəmiyyəti abadlaşdırmaq və onu gülüstana çevirərək səadət bəxş etməkdə çox təsirlidir. Mədəni, ictimai, iqtisadi və humanitar sahələrdə olduğu kimi, vacibi fərizələrə (vəzifələrə) əməl etməyin geniş mənası vardır və bu, vacib ibadətlərə də şamil olur.

Bu tərtiblə, öz vacibi vəzifələrini tərk edərək müstəhəb əməllərə üz gətirən şəxslər və özlərini abid adlandıranların İslama qarşı olan biganəlikləri tam aydın olur.

Bəli! Ən abid insan öz vəzifəsinə əməl edən şəxsdir.

*1. "Vəsailuş-şiə", c. 11, səh. 206.*

# 137

## SƏMA SAKİNLƏRİ

*Həzrət Əli (ə) buyurmuşdur:*

هٰذِهِ النُّجُومُ الَّتِي فِي السَّمَاءِ مَدَائِنُ مِثْلُ الْمَدائِنِ الَّتِي فِي الْأَرْضِ مَرْبُوطَةٌ كُلُّ مَدِينَةٍ اِلَيٰ عَمُودٍ مِنْ نُورٍ

***"Səmadakı ulduzlar yerin şəhərlərinə bənzəyir; onlardan ibarət olan hər bir şəhər nurlu sütunlarla hörülmüşdür."[1]***

### Qısa izah

Milyonlarla kəhkəşanlarda, sonmüş və parlaq ulduzlarda deyil, sadəcə yer kürəsində həyatın olduğunu düşünmək yanlışdır. Müasir texnologiyalarla alimlərin apardıqları hesablamalara əsasən, digər planetlərdə də həyatın olması və oradakı yaşayışın yer kürəsindəki həyatdan milyonlarla il əvvəl başlandığı və sivilizasiyaların bizim sivilizasiyadan daha üstün şəkildə olduğu müəyyən edilmişdir. Bu barədə həzrət Əlinin (ə) on dörd əsr əvvəl məlumat verməsi o həzrətin elmi səviyyəsinin hansı həddə olduğunu göstərir və möcüzə sayılır.

---

*1. "Biharul-ənvar", c. 55, səh. 91.*

# 138

## QURAN VƏ CAZİBƏ QANUNU

*İmam Rza (ə) öz dostlarından birinə buyurdu:*

اَلَيْسَ اللهُ يَقُولُ بِغَيْرِ عَمَدٍ تَرَوْنَهَا؟ فَقُلْتُ: بَلَي. قالَ: ثُمَّ عَمَدٌ وَ لٰكِنْ لا تَرَوْنَهَا

***"Allah (Qurani-Kərimdə) "sizin görə bilmədiyiniz sütunlarla ucaltdığı göylər"dən söz açmayıbmı?[1] Dedim: Bəli. Buyurdu: Belə isə sütunlar vardır, amma siz onları görə bilmirsiniz!"[2]***

### Qısa izah

Müasir dövrdə yer kürəsi və səma cisimlərinin öz oxu ətrafında cazibə və dəfetmə qüvvəsi sayəsində hərəkət etdiyi məlumdur. Cazibə qanunu böyük bir zəncir kimi onları bir-birlərinə tərəf çəkir və mərkəzdən qaçma qüvvəsi isə onları bir-birlərindən ayırır. Qeyd olunan iki qüvvə səma cisimlərinin nizamlı şəkildə və bir-birinə mane olmadan öz oxları ətrafında hərəkət etməsini tənzimləyir. Bu cür hərəkət milyon illərdir ki, azacıq dəyişikliyə uğramadan həyata keçir. Görəsən, elmə məlum olumazdan qabaq, kimsə hədisdə qeyd olunanları daha öncə bu qədər incəliklə bəyan etmişdirmi?!

Qeyd edək ki, bu, Quranın möcüzələrindən biridir.

---

1. *"Rəd" surəsi, 2-ci ayə.*
2. *"Burhan təfsiri", c. 2, səh. 278.*

# 139

## DAĞLARIN SİRRİ

*İmam Əli (ə) buyurmuşdur:*

وَ وَتَّدَ بِالصُّخُورِ مَيَدانَ اَرْضِهِ

***"Allah yer kürəsini dağlar vasitəsilə zəlzələ və titrəyişlərdən qoruyub."***[1]

### Qısa izah

Müasir dövrdə elm sübut etmişdir ki, ayın cazibə qüvvəsi nəticəsində dəniz və okean sularında qabarma və çəkilmələr baş verir və bu məsələ sutkada iki dəfə təkrar olunur ki, beləliklə, dəniz və okean suları bir metr, bəzən çox və hətta, on beş metrə qədər artır. Cazibə nəticəsində baş verən bu proses yer qabığının qalın təbəqəsində müxtəlif təsirlər qoyaraq onu otuz santimetrə qədər yuxarı qaldırır və daha sonra aşağı endirir. Nəticədə, yerin səthində dəyişiklik baş verir ki, bu da titrəyiş və zəlzələlər yaradır. Amma dağların mövcudluğu yer süxurlarındakı belə titrəyiş və təkanların qarşısnı almaqda əhəmiyyətli rola malikdir.

Quranda dağlar yer kürəsinə sancılan mismarlara bənzədilmiş və beləliklə, onların qoruyucu funksiya daşıdığı bildirilmişdir. [2]

---

*1. "Nəhcül-bəlağə", 1-ci xütbə.*
*2. "Nəbə" surəsi, ayə 7.*

# 140

## MİKROSKOPİK CANLILAR

*İmam Rza (ə) buyurmuşdur:*

اِنَّمَا قُلْنَا "اللَّطِيفُ" لِلْخَلْقِ اللَّطِيفِ... وَ مَا لَا تَكَادُ عُيُونُنَا تَسْتَبِينُهُ لِدِمَامَةِ خَلْقِهَا، لَا تَرَاهُ عُيُونُنَا وَ لَا تَلْمُسُهُ اَيْدِينَا

***"Allaha "lətif" deməyimizin səbəbi onun ən kiçik və zərif məxluqlar yaratması ilə bağlıdır. O, elə canlılar yaratmışdır ki, çox kiçik olduqlarından gözlərimiz görmür, əllərimiz (toxunmaqla) hiss etmir."[1]***

### Qısa izah

Yuxarıda oxuduqlarınız ifadələr müfəssəl hədisin kiçik bir hissəsidir ki, Fəth ibn Yezid Curcani onu imam Əliyyibni Musər-Rzadan (ə) nəql etmişdir: Bu canlılar o qədər kiçikdirlər ki, adi gözlə onları müşahidə etmək qeyri-mümkündür. Belə kiçik mikroorqanizmlər dəniz dalğaları, ağacların qabıqları üzərində yaşayır, həmçinin, onlar səhra və düzənliklərə səpələnmiş haldadırlar. Xatırladılan hədis təqribən, min il əvvəl və hələ mikroskopik canlıları kəşf edilməzdən yüz illərlə öncə söylənilərək qədimi kitablarda yazılmış və imam Rzadan (ə) yadigar qalmışdır. Onun elmi möcüzələrdən hesab edildiyi aydın məsələdir.

*1. "Biharul-ənvar", c. 4, səh. 173.*

# 141

## İSLAMDAN YALNIZ BİR AD

*İmam Əli (ə) buyurmuşdur:*

يَأْتِي عَلَي النَّاسِ زَمَانٌ لا يَبْقَي فِيهِمْ مِنَ الْقُرآنِ اِلَّا رَسْمُهُ وَ مِنَ الْإِسْلاَمِ اِلَّا اسْمُهُ وَ مَسَاجِدُهُمْ يَوْمَئِذٍ عَامِرَةٌ مِنَ الْبِنَاءِ خَرَابٌ مِنَ الْهُدَيٰ

***"Elə br zaman gələcək ki, insanlar arasında Quranın yalnız rəsmül-xətti və İslamın isə sadəcə adı qalacaqdır. Həmin zamanda onların məscidləri memarlıq baxımından abad, amma hidayət baxımından isə xarabalığa çevriləcəkdir."[1]***

### Qısa izah

Nəzərinizə çatdırılan bu cür təəccüblü ifadələrin nə hazırda tamamilə həyata keçdiyini, nə də gələcəkdə baş verəcəyini söyləyə bilmərik. Amma onun bəzi nümunələri diqqətdən yayınmır. Daha heyrətlisi budur ki, sadalanan xüsusiyyətlərə malik olan bəzi müsəlmanlar gerilik və köhnəlikdən şikayətlənirlər və sanki Quranın sadəcə rəsmül-xəttini qoruyaraq onu tərbiyəvi və asimani kitab kimi qəbul etməyən və İslamın da yalnızca adını saxlayaraq onun göstərişlərinə tabe olmayanlar onlar deyillər. Hansı cımiyyət və toplumu barmaqla göstərmək olar ki, orada İslam və Quranın göstərişləri kamil şəkildə icra edilmiş, amma inkişaf və tərəqqidən əsər-əlamət olmamış olsun?!

Nəticədə, əgər inkişaf və təkamüldən geri qalırıqsa,

*1. "Nəhcül-bəlağə".*

bunun əsas problem və səbəbini özümüzdə axtarmalıyıq.

# 142

## ƏQLLƏ CAHİLLİYİN MÜQAYİSƏ MEYARI

*İmam Əli (ə) buyurmuşdur:*

اللِّسَانُ مِعْيَارُ اِطَاشَةِ الْجَهْلِ وَ اَرْجِحَةِ الْعَقْلِ

***"Dil cahillik və nadalığın tüğyan etməsi meyarı və əqlin tərəzisidir."[1]***

### Qısa izah

İnsan psixalogiyasının xüsusiyyətləri, şəxsiyyətin keyfiyyət göstəriciləri və əqlin səviyyəsini müəyyən edən ən mühüm vasitə dildir. Kiçicik və o qədər də əhəmiyyətli nəzərə çarpmayan dil azacıq bir hərəkələ insan ruhiyyəsinin bütün gizli sirlərini aşkar edərək onu üzə çıxarır. Bu baxımdan, İslamın əksər göstərişləri dilin islah olunması ətrafında dövr edərək onun cilovlanmasına təkid edir. İlahi şəxsiyyət və rəhbərlər də həmin məsələdə insanları xəbərdar edərək onun yarada biləcəyi mənfi təsirləri nəzərə çarpdırmışlar. Qeyd edək ki, fakir və ruhiyyə islah olunmadıqca, dilin islah olunması intizarında olmaq düşüncəsizlikdir. İnsan dilinə yiyəlik etmək və az danışmaqla özündəki bir sıra eyib və çatışmamazlıqların məxfi qalmasına yardımçı ola bilər. Əksər günahlar dil vasitəsi ilə törədildiyi üçün, ona daha ciddi nəzarət tövsiyə edilir.

Nəticədə, dili heç də digər bədən üzvlərindən sadə

1. *"Tuhəful-uqul", səh. 143.*

və əhəmiyyətsiz saymaq olmaz.

# 143

## NEMƏTDƏN DAHA ÜSTÜN

*İmam Hadi (ə) buyurmuşdur:*

الشَّاكِرُ اَسْعَدُ بِالشُّكْرِ مِنْهُ بِالنِّعْمَةِ الَّتِي اَوْجَبَتِ الشُّكْرَ لِأَنَّ النِّعَمَ مَتَاعٌ وَ الشُّكْرَ نِعَمٌ وَ عُقْبيٰ

***"Nemətə görə şükür edən kəsin bu yolla əldə etdiyi səadət və xoşhallıq onun həmin nemət səbəbilə sahib olduğu səadətdən çoxdur. Çünki nemətlər yalnız bu dünya üçün vəsilə, şükür isə həm bu dünya, həm də axirət üçün sərmayədir."[1]***

**hazi asıQ**

Şükür təkcə dillə deyil, əməllə yerinə yetirilməlidir və nemətlər layiqli yerlərdə məsrəf olunarsa, bu özü "şükür etmək" və "onların qədirini bilmək" mənasını ifadə edir. Verilən nemətlər müqabilində şükür etməyin ardından dünyəvi bərəkətin artması və axirət səadətinə nail olmaq gəlir. Bu məsələ verilən nemətin özündən də əhəmiyyətli və dəyərlidir. Beləliklə, nemətlər ilahi razılıq və Allah bəndələriə xidmət üçün istifadə edildiyi zaman, həm bu dünya, həm də axirətdə müəyyən məqamlara yetişmək üçün təsirlidir. Quranda Allah-taala buyurur ki, əgər şükr etsəniz, nemətimizi sizin üçün artırarıq. Biz də Allahın əta etdiyi nemətlər müqabilində şükr

*1. "Tuhəful-uqul", səh. 362.*

etməliyik ki, daha böyük nemətlərə yetişə bilək.

# 144

## ƏHLİ-BEYT (Ə) MƏKTƏBİNİ YAŞATMAQ

*İmam Rza (ə) buyurmuşdur:*

مَنْ جَلَسَ مَجْلِسًا يُحْيَيِ فِيهِ اَمْرُنَا لَمْ يَمُتْ قَلْبُهُ يَوْمَ تَمُوتُ الْقُلُوبُ

***"Bizim göstərişlərimizin dirçəldilməsinə səbəb olan məclislərdə iştirak edən şəxsin qəlbi Allah qorxusundan qəlblərin öldüyü (qiyamətdə) ölməz."[1]***

### Qısa izah

Qeyd edilən ifadələrdən Əhli-beyt (ə) məktəbi ardıcıllarının onların (Əhli-beytin (ə)) əmr və göstərişlərini iştirak etdikləri məclis və toplantılarda canlandıraraq yaşatmalı olduğu anlaşılır. Nəzərinizə çatdırırıq ki, Əhli-beyt (ə) tərəfdarları bu məkəblə yaxından tanış olmalı və məsum imamların bəyan etdiyi cümlələrin həqiqiətini daha yaxşı şəkildə dərk etməyə səy etməlidirlər. Əgər Əhli-beyt (ə) adına hansısa bir mərasim təşkil edilərsə, hökmən, orada quruculuq, gələcək perspektivlər və həyata canlılıq bəxş edən məsələlərin vurğulanması ön plana çəkilməlidir, çünki, bu ilahi şəxsiyyətlərin həm vucudu, həm də bəyan etdikləri ifadələr sadalanan məsələləri əhatə edir.

Bir sözlə, belə məclislər təkcə hansısa bir şəxsin təltif və ona müəyyən hədiyyələrin verilməsi ilə bağlı olmamalı, əksinə ictimai-əxlaqi, insani və etiqadi məsələləri də

*1. "Biharul-ənvar", c. 1, səh. 199.*

özündə əks etdirməli və bu sahədə Əhli-beytin (ə) təlim və göstərişlərindən qarşıya çıxan problemlərin həlli üçün istifadə olunmalıdır.

# 145

## SİRRİN QORUNMASINDA ƏMANƏTDARLIQ

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِذَا حَدَّثَ الرَّجُلُ بِحَدِيثٍ ثُمَّ الْتَفَتَ فَهِيَ اَمَانَةٌ

***"Hansısa bir şəxs dediyi sözlərdən sonra öz ətrafına (o tərəf-bu tərəfə) baxarsa, həmin söz əmanət və sirdir (və onu qorumaq lazımdır)."[1]***

### Qısa izah

İslam dinində əmanətin növləri müxtəlifdir. Camaatın sirrinin qorunması həmin əmanətlərdən biri sayılır.

Bu məsələyə İslam dinində əhəmiyyət verilmiş və sirri faş etməyin kəbirə (böyük) günahlar sırasında dayandığı bildirilmişdir. Danışanın sözünün sirr olmasını başa düşmək üçün onun insandan təmənna etməsi, sözlərini gizlətməyin lazım gəldiyini bildirməsinə ehtiyac yoxdur, əksinə kiçicik bir işarə ilə məsələnin məxfiliyi və əmanət qalmasına eyham vurması kifayətdir. Əgər danışan sözlərini söylədiyi vaxt ətrafına baxaraq o tərəf-bu tərəfə boylanırsa, hansısa bir sirdən insanı xəbardar etdiyini başa salır və onu əmanət saxlamaq lazımdır. Beləliklə, həmin sözləri hər hansı bir yerdə – istər ictimai olsun, istərsə də, fərdi – faş etmək haram və günah sayılır.

---

*1. "Nəhcül-fəsahə", səh. 38, hədis. 197.*

# 146

## İMANIN ƏLAMƏTİ

*İslam Peyğəmbəri (s) buyurur:*

إِذَا سَرَّتْكَ حَسَنَتُكُ وَ سَائَتْكَ سَيِّئَتُكَ فَاَنْتَ مُؤْمِنٌ

***"Əgər səni yaxşı işin sevindirir və pis işin kədərləndirirsə, onda möminsən!"[1]***

**Qısa izah:**

İslam dini buyurur ki, bütün insanlar pak fitrətlə doğulurlar; paklıqlara və yaxşılıqlara doğru iman və sevgi fitrətinə nail olmaqla yanaşı, əxlaqsızlığa adət etmək və günahlara aludə olmaq mümkündür ki, insanın can və ruhunu tədricən öz təsiri altına alsın və bütünlüklə onu öz rəngi ilə dəyişdirsin.

Lakin nə qədər ki, insan yaxşılıqlara meylli olsa və pisliklərə nifrət bəsləsə, onda ilkin pak fitrət hələ də aradan getməmişdir.

Bədbəxt insanlar o kəslərdir ki, öz çirkin əməllərindən narahat olmur, üstəlik onunla fəxr də edirlər və yaxud belə şəxslər fədakarlıq, xeyirxahlıq etdikləri və ya bir nəfərə güzəştə getdikləri və ədalətli olduqları zaman isə əksinə, öz etdiklərindən peşman olu,r təəssüflənir və kədərlənirlər. Belə fərdlərə tam yəqinliklə imansız insanlar olduğunu demək lazımdır.

---

*1. "Nəhcül-fəsahə", səh. 41, 214-cü hədis.*

# 147

## BÜTÜN İŞLƏRDƏ İLKİN ŞƏRT

*İmam Əli (ə) buyurmuşdur:*

مَا مِنْ حَرَكَةٍ اِلَّا وَ اَنْتَ مُحْتَاجٌ فِيهَا اِلَي مَعْرِفَةٍ

***"Elə bir iş yoxdur ki, onun icrasında agahlığa ehtiyac duymayasan!"[1]***

### Qısa izah

Əgər "Elə bir iş yoxdur ki..." (ma min hərəkətin) ifadəsi barədə düşünsək və İslamın nəzərdə tutduğu plan və proqramlarla yaxından tanış olsaq, onda, bu müqəddəs ilahi dinin yalnız ibadət və dua etməkdən ibarət olmadığı, həmçinin, əməli şəkildə həyata keçiriləsi məsələləri diqqətdən qaçırmadığı məlum olacaq. İslam dini, hətta, ayrı-ayrılıqda fərdlər və cəmiyyətlər üçün müəyyən konsepsiya və proqramları nəzərə almışdır. Həmin proqramların ilk maddə və şərti məlumatlı və həqiqət axtarışında olmaqdır. Hansısa bir məsələdə düzgün şəkildə məlumat və ayıqlığa malik olmadan atılan addım, çəkilən zəhmət və edilən səylər ya az səmərəli, yaxud da faydasız olacaqdır.

Zəmanəmizdə bir sıra xəstəliklərin müalicə olunması üçün ən dəqiq analizlər götürüldüyü və heç bir həkimin mühüm xəstəliklərdə müxtəlif növlü analizlərdən öncə qəti qərar qəbul etmədiyi məlumdur. Belə olduğu halda,

*1. "Biharul-ənvar", c. 74, səh. 412.*

nə üçün sıravi insanlar da öz işlərində daha diqqətli və ayıq-sayıq olmasın?!.

İctimai və fərdi məsələlərdə bilik, mərifət və məsələnin həllində təyinedici funksiyaya malik olanların ardınca getmək lazımdır.

# 148

## İLAHİ HƏDİYYƏ (QONAQ)

*İslam Peyğəmbəri (s) buyurmuşdur:*

إِذَا اَرَادَ اللهُ بِقَوْمٍ خَيْرًا اَهْدَيٰ اِلَيْهِمْ هَدِيَّةً. قَالُوا: وَ مَا تِلْكَ الْهَدِيَّة؟ قَالَ: الضَّيْفُ

*"Allah hansısa bir qövmün xeyir və səadətini istədiyi zaman onlara hədiyyə verər. Peyğəmbərdən "o hədiyyə nədir?" – deyə soruşduqda, buyurdu: "Qonaq."*[1]

### Qısa izah

Bəli! Qonaq Allahın olduqca əziz və dəyərli bir hədiyyəsi hesab olunur. Bir qayda olaraq, "qonaq" məfhumuna maddi dünyamızda o qədər də əhəmiyyət verilmir və o, insanın zəhmət və əziyyətinə səbəb olan biri kimi tanınır. Həmin səbəbdən, insanların bir-birini qarşılıqlı olaraq qonaq dəvət etməsi və qonaq getməsi halları hazırkı dövürdə çox az və nadir şəkildə müşahidə edilir. Digər tərəfdən, maddi, ticari və siyasi əlaqələr zəminində təşkil edilən qonaqlıqların istisna xarakteri daşıdığını da nəzərdən qaçırmamaq lazımdır.

İslami ölkələr, xüsusən də, islami dəyərlərə önəm verən ailələrin nəzərində qonaq (onunla qohumluq əlaqələri olmasa belə) həddən artıq ehtirama layiq və Allah tərəfindən göndərilən hədiyyə hesab olunur. Hədislərdə də gələn qonağın insanın günahlarının

*1. "Biharul-ənvar", c. 72, səh. 461.*

bağışlanması üçün vəsilə və xeyir-bərəkət mənşəyi olduğu qeyd edilmişdir.

# 149

## BÖYÜKLƏRƏ HÖRMƏT, KİÇİKLƏRƏ QAYĞI

*İmam Sadiq (ə) buyurmuşdur:*

لَيْسَ مِنَّا مَنْ لَمْ يُوَقِّرْ كَبِيرَنَا وَ لَمْ يَرْحَمْ صَغِيرَنَا

***"Bizim böyüklərimizə hörmək və kiçiklərimizə qayğı göstərməyənlər bizdən deyildir!"[1]***

### Qısa izah

İnsan cəmiyyəti daim irəliyə doğru addımlayan karvan qəflə-qatarına bənzəyir – yenicə doğulan körpələr dünyaya təbəssüm edir, uşaqlar inkişaf edərək günü-gündən böyüyür, böyüklər qocalır və yaşlılar da həyatdan köçür. Həqiqətdə, heç kəs bu təbii qanun çərçivəsindən kənara çıxmaq qüdrətinə malik deyil. Yaşlı nəsil zaman etibarilə daha öndə, eyni zamanda, gənc nəslə nisbətdə daha çox təcrübə və dünya görüşünə malik olduğu üçün onlara ehtiram edilir.

Yeniyetmə və kiçik yaşlı insanlara hayatın ilkin çağlarında qayğı və mehribanlıq göstərərək onların səadətə yetişməsinə vəsilə olmaq böyüklər üçün bir vəzifədir.

Diqqət edilməlidir ki, mütərəqqi və kamil bir cəmiyyətin inkişafı üçün əvvəlki iki məsələ nəzərdən qaçırılmasın.

---

*1. "Üsuli-kafi", c. 2, səh. 165.*

# 150

## ÖZ GƏLƏCƏYİN ÜÇÜN BU CÜR TƏDARÜK GÖR

*İmam Əli (ə) buyurmuşdur:*

مَا تُقَدِّمْ مِنْ خَيْرٍ يَبْقَ لَكَ ذُخْرُهُ وَ مَا تُؤَخِّرْهُ يَكُنْ لِغَيْرِكَ خَيْرُهُ

***"(Dünyada) öncədən göndərdiyin xeyirli əməllər sənin axirətin üçün saxlanılır, təxirə saldıqlarının faydası isə başqalarına çatır."[1]***

### Qısa izah

Müasir dövrümüzdə sərvət və maddi nemətlərə hədsiz tamah əvvəlki əsrlərə nisbətdə daha çox nəzərə çarpır. Həqiqətdə, bu çür rəftar heç bir əqli və məntiqi meyara əsaslanmır. Hədəf və məqsədi mal-dövlət və sərvət toplamaq olan belə şəxslər, ümumiyyətlə, onun hansı yolla əldə olunmasına əhəmiyyət və önəm vermir, eyni zamanda, topladıqları sərvəti tamamilə xərcləməyin qeyri-mümkünlüyünü dərk etmirlər. Sahibi öldükdən sonra ondan geridə qalan malların qiyamətdə məsuliyyət yükünə çevriləcəyi danılmaz reallıqdan başqa bir şey deyil. Nəticədə, min cür məşəqqət və zəhmətlə mal toplayıb sonunda ondan ayrılarkən məsuliyyət yükü altında qalmaq, həqiqətən də, ağılsızlıqdır. Belə məsələləri təfəkkür edərək dərindən düşünən insanlar xoşbəxtdirlər.

---

*1. "Nəhcül-bəlağə", 69-cu məktub.*

## MÜNDƏRİCAT

*1. DÜŞÜNCƏ, FİKİR, TƏFƏKKÜR ........................................ 5*

*2. ÖLÇÜ VƏ MİZAN TƏDBİRİ .................................................. 6*

*3. CİSMLƏRİNİN QİDALANMASINDA CİDDİ VƏ DİQQƏTLİDİRLƏR, AMMA... 7*

*4. QƏLƏMİN ROLU ................................................................ 9*

*5. İKI BÖYÜK MƏSULİYYƏT ARASINDA. .................................... 10*

*6. CƏMİYYƏTİ MƏHV EDƏN AMİLLƏR ........................................ 11*

*7. YOXSULLUQ VƏ TƏNBƏLLİK .............................................. 12*

*8. QƏLBLƏRƏ DAMAN ELM YAĞIŞI ............................................ 13*

*9. TƏKƏBBÜRÜN MƏNŞƏYİ ..................................................... 14*

*10. HAQQ MÜQABİLİNDƏ ÜÇ DƏYƏRLİ XİSLƏT. .............................. 15*

*11. İMAM HÜSEYNİN (Ə) ŞƏHADƏTİ .......................................... 16*

*12. HƏQİQİ MÜSƏLMANIN İKİ ƏLAMƏTİ. ..................................... 17*

*13. QƏZƏB ODU .................................................................... 18*

*14. SƏRVƏT MƏNBƏLƏRİ ........................................................ 19*

*15. ƏN PİS PEŞƏ .................................................................. 20*

*16. AĞALIQ VƏ ƏSİRLİK ......................................................... 22*

*17. RİYAKARLIQ VƏ ÖZÜNÜGÖSTƏRMƏ. ...................................... 24*

*18. HƏSƏD VƏ PAXILLIQ. ....................................................... 26*

*19. ALLAH RƏHMƏTİNDƏN UZAQ OLANLAR ................................ 27*

*20. ƏN PİS DOST* ........ *28*

*21. İŞLƏRİ TƏKMİLLƏŞDİRMƏK* ........ *29*

*22. ƏBƏDİ PROQRAMLAR* ........ *30*

*23. ƏN ŞİDDƏTLİ CƏZA* ........ *31*

*24. BORC ALMAQ VƏ ONUN ZƏRƏRLƏRİ* ........ *32*

*25. SAĞLAM İCTİMAİ HƏYAT* ........ *33*

*26. BÜTÜN BƏDBƏXTLİKLƏRIN AÇARI YALANDIR* ........ *34*

*27. CƏNNƏTLİK İNSANLARIN ƏLAMƏTLƏRİ* ........ *35*

*28. RİYAKARLARIN ƏLAMƏTLƏRİ* ........ *36*

*29. NƏSİHƏT* ........ *37*

*30. DANIŞMAQ VƏ SÜKUT* ........ *38*

*31. BAĞIŞLAMAĞIN LƏZZƏTİ* ........ *40*

*32. HƏQİQİ MƏNADA ZAHİDLİK* ........ *42*

*33. ŞƏHİDLƏRLƏ BİRGƏ* ........ *43*

*34. CAMAATIN ƏN YAXŞISI* ........ *44*

*35. AZAD İNSANLARIN İBADƏTI* ........ *45*

*36. İNSANIN BELİNİ QIRAN AMİLLƏR* ........ *46*

*37. PAK VƏ TƏMİZKAR OL* ........ *47*

*38. ZİYANKAR CAHİLLƏR* ........ *48*

*39. HİDAYƏTİN ƏSASI* ........ *49*

*40. CAHİLİYYƏT DÖVRÜNDƏ MƏRSİYƏXANLIQ* ........ *50*

*41. GÜN ƏRZİNDƏ ÖZÜNLƏ HESABAT APAR* ........ *52*

*42. İMANIN TƏSİRİ POLADDAN MÖHKƏMDİR* ........ *53*

*43. TÖVHİD VƏ İLAHI ƏDALƏTİN HƏQİQƏTİ* ........ *54*

*44. İMANIN ƏLAMƏTLƏRİ* ........ *55*

*45. DÜNYA HƏDƏF DEYİL, VASİTƏDİR ..... 56*

*46. İNSANIN DƏYƏRİ ..... 57*

*47. HAQQ VƏ BATİL ..... 58*

*48. ƏRƏBİN ƏN QİYMƏTLİ SÖZÜ ..... 59*

*49. MƏN ONLARDAN UZAĞAM ..... 60*

*50. ACİZLƏRİN UĞURSUZ TƏLAŞI ..... 61*

*51.ZALIMLARIN NİŞANƏLƏRİ ..... 62*

*52. HƏR BIR DƏRDIN DƏRMANI VAR ..... 63*

*53. NEMƏTLƏRİN ƏLDƏN ÇIXMASINA SƏBƏB ..... 64*

*54. PAK İNSANLAR ŞƏHİDLƏR ZÜMRƏSİNDƏDİRLƏR ..... 65*

*55. FƏDAKAR AŞİQLƏR ..... 66*

*56. AĞILLI VƏ NADAN ..... 67*

*57. HƏQİQİ DİNDARLAR AZDIR ..... 68*

*58. ÖVLADLARINIZ ARASINDA ƏDALƏTƏ RİAYƏT EDİN ..... 70*

*59. DAİM NƏZARƏT ALTINDASAN ..... 71*

*60. NƏ HƏSƏD, NƏ DƏ YALTAQLIQ ET ..... 72*

*61. QARDAŞLARININ QULLUĞUNDA DUR ..... 74*

*62. ÖZ KEÇMİŞİNƏ TƏƏSSÜFLƏNMƏ ..... 75*

*63. İSLAM DÜNYA DİNİNƏ ÇEVRİLƏCƏK ..... 76*

*64. HEÇ BİR GÜNAHI KİÇİK SAYMAYIN ..... 77*

*65. ALİMİN ÜSTÜNLÜYÜ ..... 78*

*66. VALİDEYN VƏ ÖVLADIN QARŞILIQLI HÜQUQLARI ..... 79*

*67. MALINI İTAƏT YOLUNDA XƏRCLƏ Kİ, GÜNAHA GÖRƏ XƏRCƏ DÜŞMƏYƏSƏN ..... 80*

*68. ƏN BÖYÜK TİCARƏT BAZARI ..... 81*

*69. MƏQAM ETİBARİLƏ İNSANLARIN ƏN ÜSTÜNÜ........................ 82*

*70. ÜÇ MÜHÜM İCTİMAİ MƏSƏLƏ.......................................... 83*

*71. QƏZƏB VƏ TƏLƏSKƏNLİK................................................ 84*

*72. HƏQİQİ ZAHİDLƏR .......................................................... 85*

*73. ŞƏXSİYYƏTİ SINAMAQ ...................................................... 86*

*74. DÜNYA VƏ AXİRƏT ÜÇÜN DÜZGÜN PROQRAM ....................... 87*

*75. GÜNAHIN TƏSİRİ............................................................. 88*

*76. HƏQİQİ ŞİƏ ..................................................................... 89*

*77. KİMİNLƏ MƏSLƏHƏTLƏŞƏK ............................................... 90*

*78. ƏN ÜSTÜN NEMƏTLƏR....................................................... 92*

*79. GÖZLƏRDƏN QAİB OLAN İMAMIN VARLIĞININ TƏSİRLƏRİ........... 93*

*80. HƏR KƏSİN SÖHBƏTİNDƏ OTURMA....................................... 95*

*81. ŞEYTANSİFƏTLİLƏR ........................................................ 96*

*82. HƏQIQI BAYRAM ............................................................... 97*

*83. QİYMƏTLİ SƏRMAYƏLƏR.................................................... 98*

*84. İKİ ŞEY HƏLAKƏT MƏNŞƏYİDİR ........................................... 99*

*85. AZ OLSA BELƏ, YAXŞI İŞ DƏYƏRLIDIR................................. 100*

*86. SƏHV ETMƏ KI, ÜZR DƏ ISTƏMƏYƏSƏN............................... 101*

*87. ƏN PİS HƏYAT TƏRZİ....................................................... 102*

*88. BİZİM VƏDƏLƏRİMİZ ÜZƏRİMİZDƏ OLAN BORCLARIMIZDIR......... 103*

*89. HARAM MALLARLA İBADƏT ............................................... 104*

*90. BACARDIĞIN QƏDƏR HEÇ BİR KƏSDƏN BIR ŞEY İSTƏMƏ............. 106*

*91. VAY OLSUN BELƏ İNSANA ................................................. 107*

*92. MÜŞKÜL İŞLƏRİN HƏLLİNİ GÜNAHDAN İSTƏMƏ ...................... 108*

*93. ÖZÜNDƏN RAZI OLANLAR.................................................. 109*

*94. YAXIN VƏ UZAQ QOHUMLAR ........................................ 110*

*95. PİS ADƏTİ TƏRK ETMƏK ........................................ 111*

*96. KƏRBƏLA QƏHRƏMANLIĞI........................................ 112*

*97. AQİL ŞƏXS KİMDİR? ........................................ 114*

*98. DÜŞMƏNÇİLİKLƏRİN SƏBƏBİ ........................................ 115*

*99. QEYRƏTLİLƏR........................................ 116*

*100. BƏRƏKƏTLİ VARLIQ ........................................ 118*

*101. ƏN YAXŞI ƏLLƏR ........................................ 119*

*102. YAŞAMAQDAN DAHA YAXŞI VƏ ÖLÜMDƏN BETƏR OLAN ŞEY......... 120*

*103. MÖMİNLƏ MÜNAFİQ ŞƏXSLƏRİ AYIRAN ƏLAMƏTLƏR............... 121*

*104. ƏN YAXŞI MİRAS........................................ 122*

*105. MÜSTƏQİL DÜŞÜNCƏYƏ EHTİRAM ........................................ 123*

*106. MÖMİN İNSANLAR ALTI XİSLƏTDƏN UZAQDIRLAR.................. 124*

*107.PƏRƏDƏLƏRİ YIRTMA........................................ 125*

*108. HƏQİQİ İBADƏT........................................ 126*

*109. ÖZ EYBİNİ UNUTMA ........................................ 127*

*110. BÖYÜK İŞGƏNCƏ ........................................ 128*

*111. QURANIN YENİLİK VƏ TƏRAVƏTİ ........................................ 129*

*112. NƏFSƏ PƏRƏSTİŞ ETMƏKDƏN ÇƏKİN........................................ 130*

*113. TƏNHA YOL ŞİƏ OLMAQDIR ........................................ 131*

*114. SƏRVƏTLƏRLƏ ONUN İSTİFADƏSI ARASINDAKI UYĞUNLUQ......... 132*

*115. HAQLA-BATİLİ AYIRA BİLƏN VƏ ƏN DOĞRU DANIŞAN ŞƏXS ......... 133*

*116. EVİN İDARƏSİNDƏ HƏMKARLIQ........................................ 134*

*117. BİR SAAT ƏDALƏTLİ OLMAĞIN DƏYƏRİ........................................ 135*

*118. HƏQİQİ HƏKİM........................................ 136*

*119. PEYĞƏMBƏRİN CANİŞİNLƏRİ ........................................ 137*

*120. GÜNAH MƏCLİSİ ........................................ 139*

*121. ƏKİNÇİLİK VƏ BAĞBANLIQ........................................ 140*

*122. ÖMRÜN UZUN VƏ QISA OLMASI........................................ 141*

*123. ŞEYTANLA HƏMKARLIQ........................................ 142*

*124. MƏŞVƏRƏT EDİN Kİ, HİDAYƏT OLASINIZ........................................ 144*

*125. SALAM VERMƏK İSLAMIN NİŞANƏSİDİR ........................................ 145*

*126. İDDİADAN ƏMƏLƏ DOĞRU ........................................ 147*

*127. İLAHİ CƏZALAR ........................................ 148*

*128. UNUDULMUŞ HƏQİQƏT........................................ 149*

*129. ELMİN BƏHRƏSI ........................................ 150*

*130. İMAMIN AĞIR VƏZİFƏLƏRİ ........................................ 151*

*131. BAĞLI QAPILAR AÇILIR ........................................ 153*

*132. ŞƏXSİYYƏTSİZ İNSANLARDAN ÇƏKİN........................................ 154*

*133. BÖYÜK CİHAD........................................ 155*

*134. İMAM MEHDİNİN (Ə) QEYB DÖVRÜ ........................................ 157*

*135. PİSLİKLƏRİN MƏNŞƏYİ ........................................ 158*

*136. VƏZİFƏYƏ ƏMƏL ETMƏK ƏN BÖYÜK İBADƏTDİR ........................................ 160*

*137. SƏMA SAKİNLƏRİ........................................ 161*

*138. QURAN VƏ CAZİBƏ QANUNU ........................................ 162*

*139. DAĞLARIN SİRRİ ........................................ 163*

*140. MİKROSKOPİK CANLILAR ........................................ 164*

*141. İSLAMDAN YALNIZ BİR AD ........................................ 165*

*142. ƏQLLƏ CAHİLLİYİN MÜQAYİSƏ MEYARI........................................ 167*

*143. NEMƏTDƏN DAHA ÜSTÜN........................................ 169*

*144. ƏHLİ-BEYT (Ə) MƏKTƏBİNİ YAŞATMAQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 171*

*145. SİRRİN QORUNMASINDA ƏMANƏTDARLIQ . . . . . . . . . . . . . . . . . . . . . . . . . 173*

*146. İMANIN ƏLAMƏTİ . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 174*

*147. BÜTÜN İŞLƏRDƏ İLKİN ŞƏRT. . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 175*

*148. İLAHİ HƏDİYYƏ (QONAQ) . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 177*

*149.BÖYÜKLƏRƏ HÖRMƏT, KİÇİKLƏRƏ QAYĞI . . . . . . . . . . . . . . . . . . . . . . . . . 179*

*150. ÖZ GƏLƏCƏYİN ÜÇÜN BU CÜR TƏDARÜK GÖR. . . . . . . . . . . . . . . . . . . . . . 180*

*MÜNDƏRİCAT . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 181*

## “CAMİƏ” ZİYARƏTNAMƏSİ

Bütün imamları bu ziyarətnamə vasitəsilə ziyarət etmək olar. Müxtəlif “Camiə” ziyarətnamələri mövcuddur və biz, burada onlardan yalnız birini sizin nəzərinizə çatdıracağıq.

Şeyx Səduq “Mən la yəhzuruhul fəqih” adlı kitabında nəql edir ki, həzrət imam Rzadan (ə), imam Kazimin (ə) ziyarəti vaxtı yerinə yetirilən əməllər barəsində soruşdular və o həzrət buyurdu: “O həzrətin məzarı kənarında olan məsciddə namaz qılın və bu ziyarətnaməni oxuyun. Bu ziyarətnaməni bütün imamları ziyarət etdiyin vaxt, ümumiyyətlə bütün müqəddəs məzarları, o cümlədən peyğəmbərlərin məzarlarını ziyarət etdikdə də oxuya bilərsən:

السَّلامُ عَلَى أَوْلِيَاءِ اللَّهِ وَ أَصْفِيَائِهِ السَّلامُ عَلَى أُمَنَاءِ اللَّهِ وَ أَحِبَّائِهِ السَّلامُ عَلَى أَنْصَارِ اللَّهِ وَ خُلَفَائِهِ السَّلامُ عَلَى مَحَالِّ مَعْرِفَةِ اللَّهِ السَّلامُ عَلَى مَسَاكِنِ ذِكْرِ اللَّهِ السَّلامُ عَلَى مُظْهِرِي أَمْرِ اللَّهِ وَ نَهْيِهِ السَّلامُ عَلَى الدُّعَاةِ إِلَى اللَّهِ السَّلامُ عَلَى الْمُسْتَقِرِّينَ فِي مَرْضَاةِ اللَّهِ السَّلامُ عَلَى الْمُخْلِصِينَ فِي طَاعَةِ اللَّهِ السَّلامُ عَلَى الْأَدِلاءِ عَلَى اللَّهِ السَّلامُ عَلَى الَّذِينَ مَنْ وَالاهُمْ فَقَدْ وَالَى اللَّهَ وَ مَنْ عَادَاهُمْ فَقَدْ عَادَى اللَّهَ وَ مَنْ عَرَفَهُمْ فَقَدْ

عَرَفَ اللَّهَ وَ مَنْ جَهِلَهُمْ فَقَدْ جَهِلَ اللَّهَ وَ مَنِ اعْتَصَمَ بِهِمْ فَقَدِ اعْتَصَمَ بِاللَّهِ وَ مَنْ تَخَلَّى مِنْهُمْ فَقَدْ تَخَلَّى مِنَ اللَّهِ عَزَّ وَ جَلَّ وَ أُشْهِدُ اللَّهَ أَنِّي سِلْمٌ لِمَنْ سَالَمْتُمْ وَ حَرْبٌ لِمَنْ حَارَبْتُمْ مُؤْمِنٌ بِسِرِّكُمْ وَ عَلانِيَتِكُمْ مُفَوِّضٌ فِي ذَلِكَ كُلِّهِ إِلَيْكُمْ لَعَنَ اللَّهُ عَدُوَّ آلِ مُحَمَّدٍ مِنَ الْجِنِّ وَ الْإِنْسِ وَ أَبْرَأُ إِلَى اللَّهِ مِنْهُمْ وَ صَلَّى اللَّهُ عَلَى مُحَمَّدٍ وَ آلِهِ

**Əssəlamu əla əvliyaillahi və əsfiyaih, əssəlamu əla umə-naillahi və əhibbaih, əssəlamu əla ənsarillahi və xuləfaih, əssəlamu əla məhalli mərifətillah, əssəlamu əla məsakini zikrillah, əssəlamu əla muzhiri əmrillahi və nəhyih, əssəlamu ələd duati iləllah, əssəlamu ələl mustəqirrinə fi mərzatillah, əssəlamu ələl muxlisinə fi taətillah, əssəlamu ələl ədillai ələllah, əssəlamu ələlləzinə mən valahum fə qəd valəllah, və mən adahum fəqəd adəllah, və mən ərəfəhum fəqəd ərəfəllah, və mən cəhiləhum fəqəd cəhiləllah, və mənitəsəmə bihim fə qəditəsəmə billah, və mən təxəlla minhum fəqəd təxəlla minəllahi əzzə və cəll, və uşhidullahə ənni silmun limən saləmtum, və hərbun limən harəbtum, muminun bisirrikum və əlaniyətikum, mufəvvizun fi zalikə kullihi iləykum, ləənəllahu əduvvə ali Muhəmmədin minəl cinni vəl ins, və əbrəu iləllahi minhum, və səlləllahu əla Muhəmmədin və alih.**

*Salam olsun Allahın yaxın bəndələri və seçdiyi şəxslərə! Salam olsun Allahın əmanətdarı və dostlarına! Salam olsun Allahın dostları və canişinlərinə! Salam olsun Allah mərifətinin qəlblərinə! Salam olsun Allah zikrinin məkanlarına! Salam*

*olsun Allahın əmr və qadağasının aşkar olunduğu yerlərə! Salam olsun Allaha dəvət edənlərə! Salam olsun Allahın razılığı yolunda möhkəm dayananlara! Salam olsun Allaha itaətdə ixlaslı olanlara! Salam olsun Allaha doğru bələdçilərə! Salam olsun o şəxslərə ki, onları sevənlər Allahı da sevir, onları düşmən bilən Allahı da düşmən bilir, onları tanıyan Allahı da tanıyır, onları tanımayan Allahı da tanımır, onlara sarılan Allaha da sarılır və onları tərk edən Allahı da tərk edir! Allahı şahid tuturam ki, mən sizinlə sülh edənlə sülhdə və döyüşənlə döyüşdəyəm. Sizin gizli və aşkar işlərinizə imanım var və bütün işlərimi hər zaman sizə həvalə edirəm. Allah Məhəmmədin Əhli-beytini düşmən bilən cinlər və insanlara lənət etsin! Mən Allahın dərgahında onlara öz nifrətimi bildirirəm. Allahın salamı olsun Məhəmməd və onun Əhli-beytinə!*

Bu ziyarətnamə, "Üsuli-kafi", "Təhzib" və "Kamilüz-ziyarət" adlı kitablarda da nəql olunmuş və sonunda da qeyd edilmişdir ki, bu ziyarətnaməni hər bir müqəddəs məzarı ziyarət etdikdə oxumaq olar. Həmçinin orada qeyd edilmişdir ki, bu ziyarətnaməni oxuduqdan sonra Məhəmməd və ali Məhəmmədin(s.ə.s) bir-bir adlarını çəkərək, onlara çoxlu salavat göndərin və onların düşmənlərinə nifrin və lənət yağdırın. Sonra da özünə və mömin-möminələr üçün ürəyindən keçən duaları et.

**«ƏLƏM NƏŞRİYYATI»**

***Hazırlığa verilmişdir: 25.07.2014***
***Çapa imzalanmışdır: 22.08.2014***
***Nəşrin ölçüsü: 86x60. 1/8***
***Fiziki çap vərəqi: 24***
***Sayı: 1000***